AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

21 APREL 2019-cu il BAZAR № 86 (6413) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

# Son bir il: dinamik inkişafın yeni zirvəsi

**Xalqımızın azadlıq mücadiləsində, müstəqilliyin möhkəmləndirilməsində, müasir innovativ iqtisadiyyatın bərqərar olmasında, ölkəmizin dünyada yüksək siyasi nüfuz qazanmasında Heydər Əliyev siyasi kursunun inkarolunmaz, mühüm əhəmiyyəti vardır. Ulu öndərin müəyyən etdiyi strategiya ilə irəliləyən Azərbaycan ilbəil yeni dəyişiklərlə daha yüksək mərhələyə qalxır. Dünyanın nadir uzaqgörən siyasətçiləri sırasında önəmli yer tutan ulu öndərin siyasi kursu sayəsində reallaşan özünəməxsus innovativ inkişaf modeli ilə ölkəmiz ilbəil mühüm nailiyyətlərə imza atmaqdadır. Məhz Heydər Əliyev siyasi kursunun alternativsizliyi nəticəsində 2018-ci ilin aprel ayının 11-də keçirilən Prezident seçkilərində də İlham Əliyev yenidən ən inamlı siyasi lider və ölkə rəhbəri mövqeyini qazandı.**



### *Heydər Əliyev siyasi kursunun ən layiqli varisi*

Ulu öndərin dövlətimizin rəhbərliyinə qayıdışından ötən dövr ərzində reallaşan strategiya onun layiqli siyasi varisi Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə özünün səmərəliliyini, müasir tələbata müvafiqliyini, gələcəyə hədəflənmiş istiqaməti təmin etdiyini dəfələrlə təsdiq etmişdir. Heydər Əliyev siyasi kursunun müasir gərgin beynəlxalq proseslər fonunda yeganə alternativsiz strateji yol olduğunun sübutunu görən xalq 2003-cü il oktyabrın 15-də keçirilən seçkilərdə bu siyasətin layiqli davamçısı İlham Əliyevi dəstəkləyərək 76,8 faiz səslə onu özünə dövlət başçısı seçdi. Yeni Prezidentin ali dövlət vəzifəsində ilk günlərdən başlayaraq nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, milli maraqlara müvafiq, bir-birini tamamlayan daxili və xarici siyasəti ona xalq arasında geniş liderlik imici və çox böyük inam qazandırdı. Bu inam xalqla iqtidar birliyini bir daha möhkəmləndirdi və 2008, 2013 və 2018-ci illərdə keçirilən Prezident seçkilərində də İlham Əliyevin apardığı siyasi kursa əhalinin əksəriyyəti səs verdi.

Təsadüfi deyil ki, on beş il ərzində Azərbaycan iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft sektoru 2,8 dəfə, sənaye istehsalı 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə artmış, qeyri-neft ixracı 4,1 dəfə çoxalmış, valyuta ehtiyatları 2004-cü ildəki 1,8 milyard dollardan 2018-ci ildə 46 milyard dollara çatmışdır. Müasir dünyamızda heç bir dövlət iqtisadiyyatına sərmayə cəlb etmədən inkişaf edə bilməz. Bu baxımdan Azərbaycanın xarici siyasəti olduqca səmərəlidir və qarşılıqlı mənafeləri təmin etmək baxımından digər tərəfin də marağındadır. Və nəticədə 2003-2018-ci illərdə ölkə iqtisadiyyatına 250 milyard dollar investisiya qoyulması diqqəti xüsusi olaraq cəlb edir. Müstəqillik dövründə Azərbaycana yatırılan sərmayənin 93 faizini təşkil edən bu investisiya qoyuluşunun təxminən yarısı xarici mənbələrin payına düşür.

İqtisadiyyatın inkişafı nəqliyyat, yanacaq və ərzaq təhlükəsizliyi təmin edilmədən mümkün deyildir. Dövlət rəhbəri bu sahələri paralel şəkildə inkişaf etdirmək üçün düşünülmüş siyasətlə bütün addımları atmaqla ölkənin iqtisadi sıçrayışına nail oldu. Strateji mənafeləri təmin edən iqtisadi siyasət nəticəsində bu dövrdə Azərbaycanda nəhəng transmilli energetika və nəqliyyat layihələri həyata keçirilmişdir. 2006-cı ildə Xəzər və Aralıq dənizlərini birləşdirən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verildi. 2014-cü il sentyabrın 20-də isə Avropanın enerji təhlükəsizliyində əhəmiyyətli yer tutacaq, həmçinin Azərbaycanın perspektiv inkişafında, iqtisadi maraqlarında və siyasi nüfuzunun artmasında böyük rol oynayacaq Cənub Qaz Dəhlizinin təməli qoyuldu. Uzunluğu 3500 kilometr, dəyəri 40 milyard dollardan çox olan bu qlobal layihə dəqiq mexanizmlərlə icra edilmiş və 2018-ci il mayın 29-da Bakıda Cənub Qaz Dəhlizinin, iyunun 12-də isə onun tərkib hissəsi olan TANAP boru kəmərinin rəsmi açılışı olmuşdur. TAP layihəsnin icrası isə qrafik üzrə davam etdirilir və yaxın zamanlarda onun da istifadəyə verilməsi gözlənilir. 1994-cü il sentyabrın 20-də Bakıda imzalanmış Avropanın enerji təhlükəsizliyində əhəmiyyətli rol oynamış, ölkənin digər transmilli enerji daşıyıcıları və nəqliyyat dəhlizləri layihələrində liderliyini və mühümlüyünü mümkün etmiş "Əsrin müqaviləsi"nin - "Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş"in müddəti 2017-ci il sentyabrın 14-də 2050-ci ilə qədər uzadılmışdır. Yeni şərtlərə görə, SOCAR-ın payının 11 faizdən 25 faizə qaldırılması, mənfəət neftinin 75 faizinin Azərbaycana verilməsi müqavilədə təsbit olunmuşdur. Bundan əlavə, 8 il ərzində xarici investorlar tərəfindən ölkəyə bərabər hissələrlə bonus kimi 3,6 milyard dollar ödəniləcəkdir. Bu saziş Azərbaycanda uzun illər bundan sonra da neftin hasilat səviyyəsinin sabit qalmasına, neft sektoruna xarici investisiya qoyuluşunun təmin olunmasına imkan yaradır.

### *Avrasiyanın mühüm beynəlxalq nəqliyyat qovşağı*

Avropa və Asiyanı birləşdirən Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində böyük işlər də Prezident İlham Əliyevin təşəbbüsü və siyasi iradəsi ilə baş tutmuşdur. Mərkəzi və Orta Asiyanın nəqliyyat infrastrukturunu Yaxın Şərq, Şimali Afrika və Avropa ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolunun təməli 2007-ci ildə qoyulmuş, 2017-ci il oktyabrın 30-da isə paytaxtımızda rəsmi açılışı olmuşdur. Bundan başqa, Azərbaycanın Rusiya Federasiyası, İran və Gürcüstanla sərhədinə qədər yeni magistral avtomobil yolları istifadəyə verilmişdir. 2018-ci il sentyabrın 18-də 204 kilometr uzunluğunda yeni Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi magistral avtomobil yolunun istismarına başlanması ilə Azərbaycan öz ərazisində "Şimal-Cənub" nəqliyyat dəhlizi layihəsinin reallaşması istiqamətində bütün işləri çox böyük uğurla başa çatdırmışdır. Ölkəmiz siyasi, iqtisadi və strateji baxımdan böyük əhəmiyyətə malik həmin beynəlxalq nəqliyyat dəhlizlərində fəal iştirak etməklə Avrasiyada mühüm tranzit və logistika mərkəzlərindən birinə çevrilmişdir.

### *İKT sahəsinin inkişafının prioritet elan edilməsinin uğurları*

2014-2018-ci illərdə İnformasiya və Kommunikasiya Texnologiyaları (İKT) infrastrukturu inkişaf etdirilmiş, bölgələrimizdə kənd yaşayış məntəqələri də daxil olmaqla müasir elektron xidmətlərinin göstərilməsi imkanları daha da genişləndirilmiş, ölkə ərazisində genişzolaqlı, ucuz və keyfiyyətli internetə çıxış təmin edilmişdir. Məhz dövlətin düşünülmüş siyasəti sayəsində Azərbaycan BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyasının dəyərləndirməsinə əsasən dənizə çıxışı olmayan ölkələr arasında ən güclü transsərhəd bağlantıya və yüksək inkişaf etmiş İKT sektoruna nail olub. Dövlət müasir texnologiyalar istehsalı sahəsinə kifayət qədər böyük sərmayələr yönəldir. Artıq ölkədə kosmik sənaye yaradılıb, Azərbaycan kosmik ölkələr klubunun üzvüdür və sahə müvəffəqiyyətlə inkişaf edir. Hazırda üç - "Azerspace-1" telekommunikasiya "Azerisky" və "Azerspace-2" peyklərinə malikik. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması haqqında" 4 noyabr 2008-ci il tarixli 27 nömrəli Sərəncamına əsasən "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramının təsdiq edilməsi haqqında" 17 avqust 2009-cu il 443 saylı Sərəncamından sonra ölkəmizdə yeni, müasir kosmik sənaye sahəsi yaradıldı.

**(davamı 3-cü səhifədə)**

## "Hərbi vəzifə və hərbi xidmət haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında, Azərbaycan Respublikasının Cəzaların İcrası və İnzibati Xətalar məcəllələrində dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 6-cı, 17-ci, 18-ci və 20-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1197-VQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

Maddə 1. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, N 2, maddə 56; 2015, N 2, maddə 92, N 5, maddə 496, N 7, maddə 821; 2016, N 6, maddələr 999, 1007; 2017, N 10, maddə 1769; 2018, N 7 (I kitab), maddə 1425, N 11, maddələr 2204, 2205) 8.2.3-cü maddəsində "etməlidir." sözü "etməli;" sözü ilə əvəz edilsin və aşağıdakı məzmunda 8.2.4-cü maddə əlavə edilsin:

"8.2.4. müddətli həqiqi hərbi xidmətə çağırılan Azərbaycan Respublikasının vətəndaşlarının məcburi dövlət daktiloskopik qeydiyyatını aparmalıdır.".

Maddə 2. "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, N 7, maddə 641; 2014, N 4, maddə 347, N 7, maddə 767; 2016, N 6, maddə 987; 2018, N 10, maddə 1979, N 11, maddə 2226) 12.1.2-ci və 36.3-cü maddələrində "daktiloskopik" sözü "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda məcburi dövlət daktiloskopik və məcburi dövlət genom" sözləri ilə əvəz edilsin.

Maddə 3. Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinə (Azər-baycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 8 (III kitab), maddə 586, N 12, maddə 835; 2001, N 7, maddə 455; 2002, N 1, maddə 9, N 5, maddələr 237, 240, 244, N 8, maddə 463; 2004, N 6, maddə 399; 2005, N 4, maddə 278; 2006, N 11, maddə 929; 2007, N 8, maddə 756, N 11, maddə 1049, N 12, maddələr 1197, 1218; 2008, N 6, maddə 462, N 7, maddələr 602, 607; 2010, N 3, maddə 171, N 4, maddə 275, N 7, maddə 591; 2011, N 2, maddələr 70, 71, N 6, maddə 473, N 7, maddə 600, N 12, maddə 1107; 2012, N 5, maddə 406, N 11, maddələr 1056, 1063; 2013, N 8, maddə 889; 2015, N 10, maddə 1107, N 11, maddə 1271; 2016, N 6, maddələr 981, 1000; 2017, N 6, maddə 1058, N 12 (I kitab), maddə 2268; 2018, N 5, maddə 881, N 7 (I kitab), maddə 1422, N 10, maddələr 1971, 1978, N 11, maddə 2225) aşağıdakı məzmunda 11.6-cı maddə əlavə edilsin:

"11.6. Məhkumlar "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda məcburi dövlət daktiloskopik və məcburi dövlət genom qeydiyyatından keçirilirlər.".

Maddə 4. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 2 (I kitab), maddə 202, N 3, maddələr 397, 403, 429, N 4, maddələr 631, 647, 654, N 5, maddələr 835, 846, N 6, maddələr 997, 1010, N 7, maddələr 1247, 1249, N 10, maddə 1608, N 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, N 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, N 1, maddə 21, N 2, maddələr 147, 152, 162, N 3, maddələr 331, 344, N 5, maddələr 698, 701, 734, 749, 754, N 6, maddələr 1020, 1033, 1036, N 7, maddələr 1273, 1296, 1297, 1299, N 11, maddələr 1964, 1966, 1969, 1979, N 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, N 1, maddə 19, N 2, maddələr 160, 162, 163, N 3, maddələr 383, 401, 404, N 4, maddə 646, N 5, maddələr 857, 860, 862, 876, 883, N 6, maddələr 1153, 1168, N 7 (I kitab), maddələr 1435, 1437, 1438, N 10, maddə 1963; N 11, maddələr 2188, 2191, 2214, 2217, 2231; Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1317-VQD nömrəli, 2 noyabr tarixli 1326-VQD nömrəli, 30 noyabr tarixli 1357-VQD, 1371-VQD, 1377-VQD nömrəli, 7 dekabr tarixli 1382-VQD, 1384-VQD nömrəli, 18 dekabr tarixli 1395-VQD, 1398-VQD nömrəli və 28 dekabr tarixli 1406-VQD, 1427-VQD, 1432-VQD nömrəli qanunları) 156.2-ci maddəsinə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"İnzibati qaydada həbs edilmiş şəxslər məcburi dövlət daktiloskopik qeydiyyatından keçirilirlər.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti.**

**Bakı şəhəri, 5 mart 2019-cu il.**

## "Hərbi vəzifə və hərbi xidmət haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında, Azərbaycan Respublikasının Cəzaların İcrası və İnzibati Xətalar məcəllələrində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 5 mart tarixli 1520-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında, Azərbaycan Respublikasının Cəzaların İcrası və İnzibati Xətalar məcəllələrində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 5 mart tarixli 1520-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Hərbi vəzifə və hərbi xidmət haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında, Azərbaycan Respublikasının Cəzaların İcrası və İnzibati Xətalar məcəllələrində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Hərbi vəzifə və hərbi xidmət haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında, Azərbaycan Respublikasının Cəzaların İcrası və İnzibati Xətalar məcəllələrində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti.**

**Bakı şəhəri, 9 aprel 2018-ci il.**

# İnsanların həyatının yaxşılaşdırılması Prezidentin həyata keçirdiyi strategiyanın əsasını təşkil edir





**Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi düşünülmüş və məqsədyönlü siyasət ölkəmizin inkişafına, xalqımızın əmin-amanlıq şəraitində yaşamasına tam təminat verir. Bu siyasətin əsas məqsədi insanların rifah halının yaxşılaşdırılması, onlara göstərilən qayğının daha da artırılması və həyat səviyyəsinin yüksəldilməsidir. Təbii ki, bütün bunların hamısı iqtisadi bazanın yaradılması sayəsində mümkün ola bilər. Ona görə də bu gün Azərbaycanda Prezident İlham Əliyevin birbaşa təşəbbüsü və rəhbərliyi altında genişmiqyaslı iqtisadi islahatlar həyata keçirilir.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu fikirlər aprelin 20-də Şəki şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə sosial-iqtisadi sahədə uğurla reallaşdırılan islahatlara, vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində görülən işlərə həsr olunmuş "Uğurlu sosial siyasətin yeni hədəfləri" mövzusunda regional müşavirədə səsləndirilib.

Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini - icra katibi Əli Əhmədovun, Milli Məclisin deputatlarının, YAP Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ rayon təşkilatlarının fəallarının, Şəki ictimaiyyəti nümayəndələrinin iştirak etdiyi tədbirdə əvvəlcə Heydər Əliyev Mərkəzinin qarşısında Ulu Öndərin abidəsi önünə gül dəstələri düzülüb, dahi rəhbərin xatirəsi ehtiramla yad edilib.

Sonra Baş nazirin müavini və qonaqlar Heydər Əliyev Mərkəzində yaradılan şəraitlə yaxından tanış olublar.

Müşavirəni Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov açaraq, ölkəmizdə aparılan uğurlu sosial-iqtisadi islahatlardan danışıb. Bildirilib ki, İlham Əliyevin 15 illik prezidentlik fəaliyyətinin təhlili dövlətimizin başçısının sosial məsələlərin həllinə həmişə xüsusi diqqət göstərdiyini təsdiqləyir. Hakimiyyətə gəldiyi ilk günlərdə dövlətimizin başçısı ölkə daxilində aparılan siyasətin mərkəzində Azərbaycan vətəndaşının dayanacağını və əhalinin yaşayış səviyyəsinin artırılmasının onun əsas hədəfləri sırasında olacağını elan etmişdi. Ötən dövr göstərdi ki, Prezident İlham Əliyev öz prioritetlərinə, verdiyi vədlərə sadiqdir.

Elxan Usubov qeyd edib ki, dövlətimizin başçısının regionların sosial-iqtisadi inkişafına diqqət və qayğısı sayəsində son illər ölkənin digər bölgələri kimi, Şəki şəhəri də yeni inkişaf mərhələsini yaşayır. Şəhərdə kompleks yenidənqurma işləri görülür, yeni istehsal sahələri yaradılır, sosial obyektlər istifadəyə verilir, infrastruktur yaxşılaşdırılır. Diqqətə çatdırılıb ki, son illərdə Şəkidə 41 məktəb, 18 uşaq bağçası, 6 səhiyyə və 11 mədəniyyət müəssisəsi tikilib və ya əsaslı təmir olunub. Şəki şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması işləri davam etdirilib, yaşayış məntəqələrinin 86 faizi qazlaşdırılıb, yüksək keyfiyyətli yeni yollar çəkilib. "ASAN Həyat" kompleksinin açılması isə sakinlər üçün ən böyük hədiyyə olub.

Müşavirədə çıxış edən Baş nazirin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini - icra katibi Əli Əhmədov Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə əldə olunan uğurlardan bəhs edib. Bildirib ki, bir il bundan əvvəl xalqımız növbəti dəfə İlham Əliyevi yenidən prezident seçdi. Xalq tərəfindən belə bir seçimin edilməsi vətəndaşların ulu öndər Heydər Əliyevin siyasətinə hörmətinin, inamının ifadəsi olmaqla yanaşı, Prezident İlham Əliyevin Azərbaycanın inkişafı yolunda əldə etdiyi nailiyyətlərinə, uğurlarına verilən qiymətdir.

Əli Əhmədov deyib: "2018-ci ildə keçirilən seçkilərdən bir il sonrakı müddətdə çox əhəmiyyətli, həyatımızın bütün sahələrini əhatə edən dəyişikliklər baş verib. Bu dəyişikliklər arasında diqqəti xüsusi cəlb edən məsələ vətəndaşlarımızın rifah halının yaxşılaşdırılması ilə əlaqədar çox əhəmiyyətli və genişmiqyaslı strategiyanın reallaşmasıdır. Prezident seçkilərindən sonra İlham Əliyevin imzaladığı ilk Fərman da məhz vətəndaşlarımızın sosial rifah halının yaxşılaşdırılması ilə əlaqədar olub. Ötən bir ildə həyata keçirilən çoxmiqyaslı tədbirlər çərçivəsində sosialyönümlü, sosial strategiyanın həyata keçirilməsi ilə bağlı Prezident tərəfindən çox vacib sənədlər imzalanıb. Nəticə etibarilə Azərbaycan vətəndaşlarının sosial rifahının yaxşılaşdırılması istiqamətində əhəmiyyətli addımlar atılmağa başlanıb".

Baş nazirin müavini qeyd edib ki, Prezidentin imzaladığı sərəncamlarla Azərbaycanda minimum əməkhaqqı 38 faiz artırılaraq, 130 manatdan 180 manata qaldırılıb. Beləliklə, Azərbaycanda təxminən 600 mindən çox insanın yaşayış səviyyəsində, aldığı əməkhaqlarında ciddi artım baş verib. Eyni zamanda, minimum pensiyaların 116 manatdan 160 manata çatdırılması nəticəsində yenə də təxminən 600 mindən çox insanın pensiyasında əhəmiyyətli artım baş verib ki, bu da onların rifahının yaxşılaşmasına kömək göstərəcək.

Müşavirədə Azərbaycan Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərov, Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun direktoru, YAP Siyasi Şurasının üzvü, deputat, akademik Yaqub Mahmudov, YAP Balakən rayon təşkilatının sədri, Siyasi Şuranın üzvü Azad Balayev və YAP Zaqatala rayon təşkilatının sədri Habil Qurbanov mövzu ilə bağlı çıxış edib, həyata keçirilən uğurlu sosial siyasət haqqında danışıblar.

**AZƏRTAC**

# Hanoyda OANA İcraiyyə Komitəsinin 44-cü iclası başa çatıb

**AZƏRTAC-ın sədrliyi və Vyetnamın VNA agentliyinin ev sahibliyi ilə Hanoyda keçirilən Asiya və Sakit Okean İnformasiya Agentlikləri Təşkilatının (OANA) İcraiyyə Komitəsinin 44-cü iclasının növbəti sessiyaları keçirilib.**



Təşkilatın baş katibi Vüqar Seyidov görülən işlər və toplantının gündəliyi barədə məlumat verib.

Sonra çıxış edən OANA-nın prezidenti, AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov iclasda müzakirə edilən mövzulardan danışaraq hazırda xəbər agentlikləri qarşısında ciddi çağırışların dayandığını qeyd edib. "Günümüzün ən aktual məsələsi isə feyk xəbərlərdir ki, informasiya agentlikləri üçün daha çox çətinliklər yarada bilər. Amma gündəlik işimizdə əsaslandığımız jurnalistika ənənələri yalan və çaşdırıcı xəbərlərin qarşısında bir sipərdir. OANA-da birləşən xəbər agentliklərinin hamısı çoxillik, hətta bir əsrə yaxın tarixə malik olan media qurumlarıdır. Ona görə də OANA həqiqətən ən etibarlı xəbər istehsalçılarının komandasıdır. Feyk xəbərlərin dövran etdiyi bir zamanda bu, bizim ən böyük üstünlüyümüz və ən böyük dəyərimizdir", - deyə OANA-nın prezidenti bildirib.

Aslan Aslanov OANA-nın fəaliyyətinin təkmilləşdirilməsi məsələlərinə diqqət çəkərək sədr olaraq AZƏRTAC-ın bu məqsədlə hazırladığı və ötən Tehran iclasında müzakirə olunan təkliflərin zərurətdən yarandığını bildirərək deyib: "Bu zərurətlər nədir? Bunlar OANA-nın Nizamnaməsinin daha da təkmilləşdirilməsi, artıq 7 yaşına qədəm qoyan, daha köhnə texnologiyalara əsaslanan veb-saytın yenilənməsi, qabaqcıl üzv agentliklərin təcrübəsindən yararlanmaq kimi təşəbbüslərdir. Ona görə də həm indi, həm də gələcəkdə bu istiqamətdə istənilən təşəbbüsləri ümumi maraqlar naminə dəstəkləməyə hazırıq".

Sonra baş katib Vüqar Seyidov İcraiyyə Komitəsinin işçi qrupu tərəfindən hazırlanan və təşkilatın Nizamnaməsinə daxil edilməsi üçün irəli sürülən təklifləri səsləndirib. Sənədə dəyişikliklər və əlavələr əsasən üzvlüyə qəbul qaydaları ilə bağlıdır. Təkliflər Komitə üzvləri tərəfindən razılıqla qəbul edilib və səsə qoyulması üçün bu ilin noyabrında Seulda keçiriləcək Baş Assambleyaya çıxarılmasına tövsiyə olunub.

İclasda Koreya Respublikasının Yonhap və Vyetnamın VNA agentliklərinin nümayəndələri feyk xəbərlərlə mübarizə, onların müəyyən edilməsi yolları ilə bağlı məruzələrlə çıxış ediblər.

Sonra OANA Mükəmməllik Mükafatı qalibinin müəyyən edilməsi üçün İcraiyyə Komitəsi üzvləri arasında keçirilən səsvermənin nəticələri açıqlanıb. Agentliklər müsabiqədə iştirak etmək üçün öz məhsullarını və layihələrini təqdim ediblər. Birinci yeri eyni sayda səs qazanan Sinxua və VNA agentlikləri tutub. İkinci yerdə TASS, üçüncü yerdə isə AZƏRTAC (Uşaq Bilik Portalı) qərarlaşıb.

Müsabiqədə ümumilikdə 12 agentlik öz layihəsi ilə iştirak edib.

Sonra Koreya Respublikasının Yonhap agentliyinin OANA-nın 17-ci Baş Assambleyasının Seulda keçirilməsi ilə bağlı görülən ilkin işlər barədə məlumatı təqdim edilib. Bolqarıstanın BTA agentliyinin rəsmisi isə bu ilin iyununda Sofiyada keçiriləcək Dünya Xəbər Agentlikləri Konqresinin təşkilati məsələlərindən danışıb.

İclasın bağlanış mərasimində çıxış edən Aslan Aslanov Dünya Xəbər Agentlikləri Konqresinin və OANA-nın sədri olaraq AZƏRTAC-ın BTA və Yonhap agentliklərinə təşkilati işlərdə kömək göstərdiyini və sədrlik başa çatanadək bu istiqamətdə səylərini əsirgəməyəcəyini vurğulayıb. İclasın işində fəal iştiraklarına görə o, İcraiyyə Komitəsinin üzvlərinə təşəkkürünü bildirib.

Bununla da OANA İcraiyyə Komitəsinin Hanoyda keçirilən 44-cü iclası başa çatıb.

**AZƏRTAC**

# Daxili işlər nazirinin birinci müavini Qubada vətəndaşların qəbulunu keçirib

**Azərbaycan Respublikasının daxili işlər nazirinin birinci müavini, polis general-leytenantı Vilayət Eyvazov aprelin 20-də Quba Rayon Polis Şöbəsində qəbul keçirib.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən, Xızı şəhər və rayonlarından müraciət edən 15 vətəndaşı qəbul edən Vilayət Eyvazov onların polisin fəaliyyəti ilə bağlı müraciətlərini dinləyib, problemlərinin qanunvericiliyə uyğun və operativ şəkildə həlli üçün konkret tapşırıqlar verib. Müraciətlərin əksəriyyəti yerindəcə həllini tapıb.

**AZƏRTAC**

# "Azərenerji" ASC-də Türkiyənin Azərbaycandakı səfiri ilə görüş keçirilib

**"Azərenerji" ASC-nin prezidenti Baba Rzayevin başçılıq etdiyi nümayəndə heyəti ilə Türkiyə Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Erkan Özoralın başçılıq etdiyi nümayəndə heyəti arasında görüş olub, - bu barədə qurumun İctimaiyyətlə əlaqələr mərkəzindən "Respublika" qəzetinə verilən məlumatda bildirilir.**



"KEP İnternational Trade and Representation" şirkətinin baş direktoru Halim Neyzinin və həmin şirkətin məsləhətçisi Nülənd Çilingirin də iştirak etdiyi görüşdə Azərbaycanda yeni generasiya güclərinin yaradılması, Yaşma ərazisində tikilməsi nəzərdə tutulan 1000 MVt-luq yeni elektrik stansiyası layihəsinə xarici investorların, o cümlədən türk şirkətlərinin cəlb edilməsi mövzusunda müzakirələr aparılıb.

**"Respublika".**

# SOCAR-AQŞ-də KİV nümayəndələri üçün mətbuat konfransı

**SOCAR-AQŞ-in baş ofisində kütləvi informasiya vasitələrinin nümayəndələri üçün mətbuat konfransı keçirilmişdir. Mətbuat konfransını giriş sözü ilə SOCAR-AQŞ-in baş direktoru Ramin İsayev açaraq ölkəmizin aparıcı KİV nümayəndələri ilə görüşməyindən məmnun olduğunu bildirdi. Qeyd etdi ki, gördüyümüz işlər və qazandığımız uğurlar ictimaiyyətə məhz KİV-lər vasitəsilə çatdırılır.**



R.İsayev bildirdi ki, SOCAR-AQŞ 2007-ci ildə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin və Abşeron Qazma Şirkətinin təsis etdiyi kompleks qazma və quyu xidmətləri göstərən müştərək müəssisədir. Şirkətin göstərdiyi xidmət sahəsinə neft və qaz quyuların qazılması, quyuların layihələndirilməsi və planlaşdırılması, maili istiqamətləndirilmiş quyuların qazılması, quyuların mənimsənilməsi, quyuların əsaslı təmiri, yan lülələrin və çoxşaxəli quyuların qazılması kimi fəaliyyətlər daxildir. Bundan başqa, şirkət təczihat sistemlərinin, anbar təsərrüfatının və digər əlaqəli xidmətlərin idarə olunması sahəsində də zəngin təcrübəyə malikdir. Hazırda SOCAR-AQŞ - Xəzərdə 4 neft və qaz yatağında, o cümlədən dayazsulu "Günəşli", "Qərbi Abşeron", "Ümid" və "Bulla" yataqlarında mövcud olan 5 platformada 6 qazma qurğusu vasitəsilə qazma işlərini aparır. 2009-cu ildən etibarən şirkət Qazma Podratçılarının Beynəlxalq Assosiasiyasının (International Association of Drieling Contractors, IADC) üzvüdür. Şirkət həmçinin inteqrə olunmuş qazma və quyu xidmətlərinin göstərilməsi sahəsində API Spec Q2 - Keyfiyyət İdarəetmə Sisteminin standartının tələblərinə uyğun sertifikat ilə təltif olunmuşdur. Şirkət regionda API Spec $Q_2$ sertifikatı ilə təltif olunmuş ilk və yeganə qazma müəssisəsidir. 2018-ci ilin noyabr ayında isə BMT Qlobal Sazişinə qoşulub.

Baş direktor daha sonra bildirdi ki, bu günlərdə KCA Deutag və SOCAR AQŞ şirkətlərinin birgə müəssisəsi olan "Turan Drilling & Engineering" MMC "BP Exploration (Caspian Sea) Limited" (BP) şirkəti ilə ilk müqavilə bağlanıb. İmzalanan müqavilənin təxmini dəyəri razılaşdırılmış müddət üzrə 500 milyon ABŞ dolları və müqavilə müddətinin uzadılması imkanları da nəzərə alınmaqla 700 milyon ABŞ dollları məbləğindədir. Müqavilə, Hasilatın Pay Bölgüsü Sazişinin müddəalarına əsasən, BP şirkətinin Xəzər dənizindəki 7 stasionar özülündə qazma qurğularının idarə edilməsi və onlara texniki xidmətin göstərilməsini nəzərdə tutur. Müqavilənin əhatə dairəsinə "Şərqi Azəri", "Qərbi Azəri", "Mərkəzi Azəri", dərinsulu "Günəşli", habelə "Qərbi Çıraq", "Çıraq" və "Şahdəniz" yataqlarındakı dəniz özülləri üzrə qazma qurğuları daxildir. Müqavilənin ilkin müddəti beş ildir və iki dəfə bir il müddətinə artırıla bilər.

2018-ci ilin iyul ayında təsis olunmuş "Turan Drilling and Engineering" KCA Deutag və SOCAR AQŞ şirkətlərinin birgə müəssisəsidir. Birgə müəssisə, özündə qazma və mühəndis-layihələndirmə işlərinin yerinə yetirilməsi sahəsində dünyanın aparıcı podratçılarından sayılan KCA Deutag şirkətinin səriştəsini, habelə SOCAR AQŞ-nin Xəzər regionunda qabaqcıl təcrübəsini və infrastrukturunu birləşdirir.

"Turan Drilling and Engineering" birgə müəssisəsinin əsas səhmdarı olan SOCAR AQŞ MMC-nin Baş direktoru Ramin İsayev bildirdi ki, SOCAR AQŞ Xəzər regionunda inteqrə olunmuş qazma və quyu xidmətləri sahəsində özünü təsdiq etmiş və etibarlı infrastruktura malik olan aparıcı müəssisədir.

SOCAR AQŞ, həmçinin "ÜMİD" YATAĞINDA UNİKAL QAZMA VƏ GEOFİZİKİ TƏDQİQAT İŞLƏRİ APARIB. Müəssisə "Ümid" yatağının 1 saylı dəniz stasionar özülündən faktiki dərinliyi 6810 m olan 16 nömrəli kəşfiyyat quyusunda qazma işlərini təhlükəsiz, uğurla və keyfiyyətlə başa vurub.

"Ümid" yatağının 1 saylı dəniz stasionar özülündən faktiki dərinliyi 6810 m olan 16 saylı quyunun tikintisi işlərini təhlükəsiz və ətraf mühitə heç bir ziyan vurmadan uğurla yekunlaşdırıb. Quyu bütövlüyü nəzərə alınmaqla 16 saylı quyu Xəzərin Azərbaycan sektorunda qazılmış ən keyfiyyətli quyulardan biridir. Kəmərlərin layihə dərinliyinə çatdırılması, kəmərlərarxası təzyiqin olmaması və sementləmə işlərinin mükəmməl aparılması deməyə əsas verir ki, 16 saylı quyu "Ümid" yatağının tarixində yeni səhifə açıb. SOCAR tarixində ilk dəfə olaraq, quyu tikintisi zamanı qazma texnologiyalarında müəyyən dəyişiklik edilmiş, quyuağzı avadanlıqların yığılmasında yeni metodlar tətbiq edilmiş və yüksək hasilatın əldə olunması üçün 5 1/2 düymə monobar lift boruları vasitəsilə tamamlanma işləri aparılmışdır.

Müəssisənin əldə etdiyi uğurlardan biri də "Ümid" yatağı üzrə məhsuldar horizontlarda lay təzyiqlərinin ölçülməsi və süxur nümunələrinin götürülməsi olmuşdu.

"Ümid" yatağı tarixində, ilk dəfə olaraq, SOCAR AQŞ yataq üzrə V horizontdan beynəlxalq standartlara cavab verən avadanlıqla 6046.5-6063.5 m və 6037-6046 m intervalından 100 % süxur nümunələri götürmüş, hermetik şəkildə qablaşdıraraq sifarişçiyə təhvil vermişdir.

SOCAR AQŞ kollektivi Prezident cənab İlham Əliyevin müəyyən etdiyi siyasət və strategiyanın həyata keçirilməsində və SOCAR rəhbərliyinin qarşıya qoyduğu konkret vəzifələrin icrasındakı öz töhfəsi ilə qürur duyur və bu şərəfli fəaliyyətini bundan sonra da davam etdirmək əzmindədir.

Sonda Baş direktor R.İsayev KİV nümayəndələrini maraqlandıran sualları cavablandırdı.

**Müşfiq MİRZƏ,**
**"Respublika".**

# "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" "dəyirmi masa"

**AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunda ədalət mühakiməsinin keyfiyyətinin və səmərəliliyinin artırılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı 03 aprel 2019-cu il tarixli "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında Fərmanın elmi-nəzəri təhlili" mövzusunda "dəyirmi masa" təşkil olunmusdur.**



Tədbirin açılışında İnstitutun direktoru, Milli Məclisin deputatı, hüquq elmləri doktotu, professor Aytən Mustafazadə demişdir:

- Bu Fərman ölkəmizin davamlı tərəqqisinin təmin edilməsi üçün məhkəmə-hüquq sisteminin inkişafında yeni mərhələnin başlanacağına və bu sahədə islahatların dərinləşəcəyinə böyük ümid yaradır. Bildiyiniz kimi, AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun əsas məqsədi hüquq, insan hüquq və azadlıqları problemlərinə dair elmi-tədqiqat işlərinin aparılması, elmi tövsiyələrin hazırlanması və bu sahədə biliklərin dərinləşdirilməsini təmin etməkdən ibarətdir. Odur ki, məlum sənədin elmi-nəzəri təhlilinə ehtiyac var.

Qeyd edək ki, ölkə rəhbəri cənab İlham Əliyevin imzaladığı Fərmanın giriş hissəsində bildirilir ki, müasir dövrün tələblərinə cavab verən, cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsinin formalaşdırılması prosesini sürətləndirmək məqsədilə məhkəməyə müraciət imkanları daha da genişləndirilməli, məhkəmələrin fəaliyyətində şəffaflıq artırılmalı, məhkəmə icraatının effektivliyi yüksəldilməli, məhkəmə qərarlarının tam və vaxtında icra edilməsi təmin olunmalı, süründürməçiliyin və digər neqativ halların aradan qaldırılması üçün görülən tədbirlər gücləndirilməlidir. Eyni zamanda, ədalət mühakiməsi mexanizmlərinin effektiv fəaliyyətinin təmin edilməsi üçün hakim və məhkəmə aparatı işçilərinin sosial müdafiəsi daha da yaxşılaşdırılmalı, müvafiq infrastrukturun yenilənməsi işləri davam etdirilməli, məhkəmə icraatında müasir informasiya texnologiyalarının tətbiqinin üstünlüklərindən hərtərəfli istifadə edilməli, digər mühüm məsələlər həll olunmalıdır. Bu fərman cənab Prezidentin daim xalqın qayğısına qaldığının, ölkənin tərəqqisi, sahibkarlığın güclənməsinə, qeyri-neft sektorunun inkişafına, insan kapitalına və bütün sahələrdə islahatların aparılmasına maraqlı olmasının göstəricisidir.

Tədbirdə AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun hüquqşünas alimləri məlum Fərmanın icrası ilə bağlı elmi yanaşmalarını səsləndirmiş, müvafiq təkliflərini vermişlər. Eyni zamanda, həmin təkliflər ətrafında geniş fikir mübadiləsi aparılmış, nəticə etibarı ilə Fərmanın ölkəmizin taleyüklü məsələlərinin həllində xüsusi önəm daşıyacağına əminliklərini bildirmişlər.

Tədbirdə Azərbaycan Respublikası Milli Məclisinin müvafiq komitələrini təmsil edən deputatlar, AR Ədliyə Nazirliyinin Ədliyyə Akademiyasının, AR Baş Prokurorluğun Elm və Tədris Mərkəzinin nümayəndələri və İnstitutun hüquqşünas alimləri, eləcə də KİV nümayəndələri iştirak etmişlər.

**Kamil İSMAYILOV,**
**"Respublika".**

# Seçenov Universitetinin Bakı filialında “Açıq qapı” günü keçirilib





**Aprelin 20-də İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin (Birinci MDTU, Seçenov Universiteti) Bakı filialında “Açıq qapı” günü keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Rusiya ali məktəbinin Bakı filialının rektoru, professor Əziz Əliyev, İ.M.Seçenov adına Birinci MDTU-nun təhsil xidmətlərinin ixracı şöbəsinin rəisi Nikita Sokolov, abituriyentlər və onların valideynləri iştirak ediblər.

Qonaqlara filialda tədris prosesi barədə ətraflı məlumat verilib. Qeyd



edilib ki, burada tədris İ.M.Seçenov adına Birinci MDTU-nun aparıcı professor və müəllimləri tərəfindən Moskva Universitetinin tədris planları və proqramları əsasında həyata keçirilir. Filialda təhsil müddəti altı ildir. Buranı bitirənlərə verilən diplom, eyni zamanda Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən nostrifikasiya edilir. Filialın klinik bazaları və tələbələrin təcrübə keçdiyi xarici klinikalar haqqında məlumat verilib.

Abituriyentlər və onların valideynləri filiala sənəd qəbulu və qəbul imtahanlarının keçirilməsi qaydaları ilə tanış ediliblər.

**AZƏRTAC**

# YAP Qubadlı rayon təşkilatının Gənclər birliyinin hesabat-seçki konfransı keçirilib

**Yeni Azərbaycan Partiyası (YAP) Qubadlı rayon təşkilatının Gənclər birliyinin V hesabat-seçki konfransı keçirilib. Təşkilatın Sumqayıtda yerləşən qərargahında təşkil olunan konfransda Milli Məclisin deputatı İmamverdi İsmayılov, rayon icra hakimiyyəti başçısının müavini, YAP Qubadlı rayon təşkilatının sədri Allahverdi Haxverdiyev, rayonun idarə müəssisə və təşkilat rəhbərləri, YAP Qubadlı rayon təşkilatının 85 ərazi ilk partiya təşkilatlarının sədrləri və nümayəndələri iştirak ediblər.**





AZƏRTAC xəbər verir ki, əvvəlcə iştirakçılar YAP Qubadlı rayon təşkilatının binasının foyesində ulu öndər Heydər Əliyevin büstü önünə gül dəstələri düzərək, dahi şəxsiyyətin xatirəsini dərin ehtiramla anıblar.

Akt zalında keçirilən konfransda çıxış edən YAP Qubadlı rayon təşkilatının sədri Allahverdi Haxverdiyev bildirib ki, təşkilat sıralarında 3617 üzvü birləşdirir. Onlardan yarısı ali təhsillidir, 200-dən çoxu idarəetmə orqanlarında çalışır.

YAP Qubadlı rayon təşkilatının Gənclər birliyinin sədri Aqil Quliyev hesabat dövründə görülmüş işlər haqqında hesabat məruzəsi ilə çıxış edib.

Yığıncaqda çıxış edən Milli Məclisin deputatı İmamverdi İsmayılov ümummilli lider Heydər Əliyevin xalqımız qarşısındakı xidmətlərindən danışıb. Bildirib ki, ölkəmizdə gənclərə göstərilən yüksək diqqət və qayğı əsası Ulu Öndər tərəfindən qoyulan dövlət gənclər siyasətinin davamıdır. Hazırda dövlət gənclər siyasəti Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Vurğulanıb ki, bu gün gənclərin ölkəmizin sosial-iqtisadi, ictimai-mədəni, eləcə də idman həyatında fəal iştirakı üçün əlverişli şərait yaradılıb.

Sonra Gənclər və İdman İdarəsinin rəisi Natiq Abbasov, rayon Zilanlı kənd orta məktəbinin müəllimi Sənəm Quliyeva və digərləri gənclərə göstərilən diqqət və qayğıdan, onların inkişafı üçün yaradılan şəraitdən söz açıblar.

Konfransda təşkilati məsələlərə baxılıb, YAP Qubadlı rayon təşkilatının Gənclər birliyi şurasının, idarə heyətinin üzvləri müəyyənləşib, ülvi Qasımlı birliyin sədri seçilib. Sonra ümumrespublika konfransında iştirak edəcək nümayəndələr müəyyənləşib.

Sonda rayonun ictimai-siyasi həyatında fəallığı ilə seçilən bir qrup gəncə YAP Qubadlı rayon təşkilatının fəxri fərmanı təqdim olunub.

**AZƏRTAC**

# Son bir il: dinamik inkişafın yeni zirvəsi

**(əvvəli 1-ci səhifədə)**

Təsdiq olunmuş Dövlət Proqramında deyilir: “İnformasiya və kommunikasiya texnologiyaları sahəsi prioritet sahə elan edilmişdir. Rabitə və informasiya texnologiyaları sahəsinin isə neft sahəsindən sonra Azərbaycan iqtisadiyyatının ən inkişaf etmiş sektoru olacağı gözlənilir. İnformasiya və kommunikasiya texnologiyalarının geniş tətbiqi ölkənin hərtərəfli inkişafına xidmət etməklə yanaşı, informasiya sahəsində milli təhlükəsizliyin təmin olunması baxımından da xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının Avropa və Asiya qitələri arasında əlverişli geoiqtisadi, coğrafi, eləcə də informasiya magistrallarının kəsişdiyi məkanda yerləşməsi informasiya mübadiləsinin xarici ölkələrdən asılılığının aradan qaldırılması, iqtisadi və informasiya təhlükəsizliyinin əsas komponentlərindən olan telekommunikasiya peyklərinin hazırlanması və orbitə çıxarılması Azərbaycanın regionda informasiyanın ötürülməsi sahəsində lider ölkəyə çevrilməsi baxımından böyük əhəmiyyət kəsb edir”. Beləliklə, hazırda ölkəmiz Trans-Avrasiya Super İnformasiya Magistralı (TASM) layihəsinin reallaşması ilə informasiya-kommunikasiya texnologiyaları mərkəzinə çevrilir. “Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 02 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş, sənəddə bu sahənin inkişafı üzrə 2020-ci ilə kimi konkret məqsəd və vəzifələr müəyyən edilmişdir.

Azərbaycanda İKT-nin inkişafı üzrə görülmüş işlər beynəlxalq təşkilatların hesabatlarında da öz əksini tapmaqdadır. Belə ki, statistik məlumata əsasən Azərbaycan Dünya İqtisadi Forumunun “Qlobal İnformasiya Texnologiyaları 2016” hesabatında “Şəbəkələşmə Hazırlığı İndeksi”nə görə əvvəlki mövqeyindən 4 pillə irəliləyərək dünyanın 139 ölkəsi arasında 53-cü yerə yüksəlmiş, habelə həmin hesabatda hökumətin gələcəklə bağlı İKT sektoruna yanaşması üzrə dünya ölkələri arasında 8-ci yeri, İKT sektorunun təbliğində hökumətin uğuruna görə 8-ci, hökumətin xidmətlərinin səmərəliliyində İKT-dən istifadə üzrə isə 12-ci yeri tutmuşdur. Beynəlxalq Telekommunikasiya İttifaqının “İnformasiya cəmiyyətinin ölçülməsi 2015” hesabatında isə Azərbaycan “İKT İnkişaf İndeksi”nə görə 167 ölkə arasında 67-ci yerdə qərarlaşmışdır. Həmin hesabatda İKT Qiymət Səbəti İndeksi üzrə isə Azərbaycan 170 ölkə içərisində 60-cı yerdə olmuşdur. 2015-ci ildə dövlət orqanları ilə 7469 müəssisə internet vasitəsilə əlaqə yaratmış və onların sayı 2005-ci illə müqayisədə 36,8 dəfə, 2014-cü illə müqayisədə 3,9 faiz artmışdır. Ümumiyyətlə, Azərbaycanda informasiya cəmiyyətinin yaradılması, “Elektron hökumət”in formalaşdırılması və intellektual potensialın inkişafı sayəsində sosial-iqtisadi inkişafın təmin və daim yüksəldilməsi aktual məsələdir. İKT-nin 2014-2017-ci illərdə inkişaf strategiyasının əsasını “Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya”ya uyğun demokratik inkişafın davamlılığını təmin etmək və qlobal informasiya fəzasına inteqrasiyanı genişləndirərək yüksək inkişaf səviyyəsinə nail olmaq təşkil edir. İKT-nin sürətli inkişafı son zamanlar elektron vizaların verilməsi, “Tax free” sisteminin tətbiqi, Birinci Avropa Oyunları, Formula-1, IV İslam Həmrəyliyi Oyunları, Humanitar forumlar, Mədəniyyətlərarası dialoq kimi mötəbər tədbirlərin keçirilməsinə və sonda ölkədə turizmin yüksəktempli tərəqqisinə də əhəmiyyətli töhfələr verib.

## *Özəl sektorun inkişafına dövlət dəstəyi yüksək nəticələr verir*

Prezident İlham Əliyevin iqtisadi islahatlar sırasında 2016-cı ildən özəl sektorun inkişafı ilə bağlı qəbul etdiyi qərarlar real iqtisadiyyatın davamlı inkişafının təmin olunması baxımından strateji xarakterə malikdir. Ölkə rəhbərliyi sahibkarlara maksimum sərbəstlik verilməsi üçün bütün müvafiq addımları atır. Son illər ərzində Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə sahibkarlara dövlət tərəfindən 2 milyard manatdan çox güzəştli şərtlərlə kreditlər verilmişdir. Dövlətin sahibkarlığa göstərdiyi siyasi, mənəvi, maliyyə dəstəkləri, inkişafı üçün aparılan ciddi islahatlar və onlara edilən güzəştlər bu gün Azərbaycanda qeyri-neft sektorunun inkişafına təkan verən əsas amillərdən biridir. Sahibkarlığın inkişafında regional inkişaf Dövlət proqramlarının əhəmiyyətini xüsusi qeyd etmək lazımdır. Bu proqramların icrası nəticəsində bölgələrdə zəruri olan müasir infrastruktur yaradıldı.

İnzibati prosedurların sadələşdirilməsi də özəl sektorun sürətli inkişafında mühüm amillərdən biridir. Artıq aydındır ki, bu istiqamətdə “ASAN Xidmət”in rolu və əhəmiyyəti kifayət qədər yüksəkdir. Burada xidmətlərin yüksək keyfiyyətlə, şəffaf və operativ göstərilməsi vətəndaşların rahatlığını təmin etməklə bərabər, həm də sahibkarların da əvvəllər üzləşdikləri bir sıra problemləri həll edir. “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən, vergi yoxlamaları, insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına təhlükə yaradan hallar istisna olmaqla, sahibkarlıq sahəsində aparılan bütün yoxlamalar 2 il müddətinə dayandırılmış və yenidən müddəti uzadılmışdır. Nəticədə 2015-ci ilin noyabrından 2017-ci ilin aprelinədək cəmi 49 yoxlama (vergi yoxlamaları istisna olmaqla) keçirilmişdir. Əvvəllər bu dövrdə 33336 yoxlama aparılmışdı. Azərbaycan Respublikasının Prezidenti yanında, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında apellyasiya şuralarının yaradılması da sahibkarların hüquqlarının daha etibarlı qorunması üçündür. Özəl sektorun inkişafı, bu istiqamətdə əlverişli şəraitin yaradılması məqsədilə ölkə başçısının müvafiq fərmanlarına əsasən, lisenziya tələb olunan fəaliyyət növlərinin sayı 59-dan 37-yə endirilmiş, indiyədək verilmiş və qüvvədə olan lisenziyalar müddətsiz elan edilib, yeni verilən lisenziyalar isə müddətsiz verilir, lisenziyanın verilməsinə görə ödənilən dövlət rüsumunun məbləği təxminən 2 dəfə, regionlar üzrə 4 dəfə azaldılmış, lisenziya verilməsi üçün tələb olunan prosedurlar sadələşdirilmişdir. Artıq dövlət təhlükəsizliyi ilə bağlı hallar istisna olmaqla lisenziyalar İqtisadiyyat Nazirliyi tərəfindən “ASAN Xidmət” mərkəzləri vasitəsilə verilir. “ASAN Xidmət” mərkəzləri vasitəsilə sahibkarlara ən çox özəl tibb, əczaçılıq, tikinti-quraşdırma, layihələndirmə, mühəndis-axtarış, baytarlıq preparatlarının satışı, bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin idxalı, təhsil, sürətli poçt rabitə xidməti, maye və təbii qaz təsərrüfatı obyektlərinin quraşdırılması, dağ-mədən işlərinin aparılması, yanğından mühafizə fəaliyyətinə və sair sahələrə dair lisenziya verilmişdir. Eyni zamanda, qəbul olunmuş “Lisenziyalar və icazələr haqqında” Qanuna əsasən, sahibkarlıq fəaliyyəti növlərinə verilən icazələrin sayı təqribən 4 dəfə azaldılaraq 330-dan 87-yə endirilmişdir. “Lisenziyalar və icazələr” portalının yaradılması, dövlət orqanları tərəfindən sahibkarlara lisenziya və icazə məsələləri üzrə qanunvericiliyin tətbiqi ilə bağlı məsləhətlərin verilməsi, “bir pəncərə” prinsipinin tətbiqi və işi yüngülləşdirən digər mütərəqqi mexanizmlərin müəyyən edilməsi də sahibkarlığın inkişafına güclü stimul verməkdədir. Portalın fəaliyyətə başlaması sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün tələb olunan lisenziya və icazələrin verilməsinin tamamilə elektron qaydada həyata keçirilməsi, dövlət orqanlarının informasiya sistemlərinin uzlaşdırılması və qarşılıqlı əlaqənin təmin edilməsi deməkdir. İqtisadi islahatların ən mühüm istiqamətlərindən biri də investisiyaların təşviqi ilə bağlıdır. 2016-cı ilin 20 aprelində Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanları ilə “İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası”, investisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahələri, investisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğ və layihənin həyata keçiriləcəyi inzibati ərazi vahidləri təsdiq edilmişdir. Bu sənəd Vergi Məcəlləsində və “Gömrük tarifi haqqında” Qanunda nəzərdə tutulmuş güzəştlərdən yararlanmağa imkan verir. İnvestisiya təşviqi sənədini almış sahibkarlar mənfəət və gəlirin 50 faizinin vergisindən, əmlak və torpaq vergisindən, həmçinin idxal etdikləri texnika, texnoloji avadanlıq və qurğular üzrə idxalda ƏDV-dən və idxal rüsumlarından 7 il müddətinə azad edilirlər. Göründüyü kimi, bu addımlar sahibkarlığın inkişafına əhəmiyyətli töhfədir. “Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında” Qanunda nəzərdə tutulmuş “Tik, idarə et, təhvil ver” (TİT) modelinin tətbiqi də sahibkarlığın inkişafına geniş imkan yaradır, ölkə iqtisadiyyatına investisiyaların cəlb olunması baxımından xüsusi əhəmiyyətə malikdir. Səbəb də odur ki, investisiya layihələrini TİT modelinə uyğun həyata keçirən investor dövlət rüsumlarından və yığımlardan azaddır.

## *Ölkəmizin xarici siyasəti səmimi, açıq, şəffaf, proqnozlaşdırıla bilən və müstəqildir*

Azərbaycan hazırda bu dünyanı düşündürən ən mühüm problemlərin müzakirə mərkəzinə çevrilib. Çünki ölkəmizin siyasəti çox açıqdır, xoşniyyətlidir, şəffafdır və bu siyasət ölkələri birləşdirməyə, qarşılıqlı inkişafa, maraqları ödəməyə, şəffaf münasibətlərə, bir-birinin daxili işlərinə qarışmamağa hesablanıb, ayırmağa yox. Ötən ay 55 ölkədən 500-dən çox nümayəndənin qatıldığı VII Qlobal Bakı Forumunun da paytaxtımızda keçirilməsi bunun təsdiqidir. Azərbaycan Prezidenti İlham Əliyev ölkənin xarici siyasətinin prioritetləri və prinsipial mövqeyi, dünyada, regionda dəyişən və sonu bilinməyən vəziyyətdə fəaliyyət barədə demişdir ki, bizim xarici siyasətimiz əsas etibarilə sabit, proqnozlaşdırıla bilən və müstəqildir. O, bizim milli maraqlarımıza əsaslanır. Tərəfdaşlıq, qarşılıqlı faydalı əməkdaşlıq vasitəsilə regionumuzda və daha geniş coğrafiyada təhlükəsizlik, sabitlik istiqamətində ölkələrlə yaxın əlaqələrin qurulması Azərbaycanın prioritetlərindən biridir. Biz ənənəvi tərəfdaşlarımızla əlaqələrimizi gücləndirməyə, yeni dostlar qazanmağa, yeni körpülər tikməyə müvəffəq olmuşuq.

## *Multikulturalizm xalqımızın yaşam tərzi, dövlət siyasətində prioritetdir*

Ölkəmizdə mövcud milli birliyin əsasında duran amillərdən biri də məhz bəşəri dəyər-multikulturalizmdir. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra multikulturalizm dövlət siyasətində prioritetdir. Müxtəlif mədəniyyətləri bir araya gətirmək, birgəyaşayışa töhfə vermək, qarşıdurmanı önləmək, dünyada milli-dini zəmində baş verən kataklizmlərə son qoymaq üçün Azərbaycan 2008-ci ildə “Bakı prosesi”nə start verdi və dünyada ilk dəfə İslam Əməkdaşlıq Təşkilatına və Avropa Şurasına üzv olan dövlətlərin mədəniyyət nazirlərinin Bakıda toplantısını keçirdi. Müasir gərgin beynəlxalq şəraitdə “Bakı prosesi” artıq zəruri reallıqdır, milli-dini dözümlülüyə, tolerantlığa, multikulturalizmə mühüm töhfədir. Azərbaycan multikulturalizm dəyərlərini təşviq edən, sülhə, sabitliyə, sosial-iqtisadi inkişafa, əməkdaşlığa, mədəniyyətlərin qarşılıqlı zənginləşməsinə əhəmiyyətli stimul verdiyini göstərən çoxsaylı beynəlxalq tədbirlər keçirir. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması və uğurlu fəaliyyəti də bu istiqamətdə atılan əhəmiyyətli addımdır. Hazırda dünyanın bir çox ölkələrində Azərbaycanın multikulturalizm sahəsində təcrübəsi tədqiq edilir, öyrənilir və tədris edilir. Ölkəmiz dünya dini liderlərinin zirvə görüşünün, Mədəniyyətlərarası Dialoq Forumu və Beynəlxalq Humanitar forumlarının təşkilatçısıdır. Ölkəmizdə BMT-nin təşkilatçılığı ilə Sivilizasiyalar Alyansının 7-ci toplantısının keçirilməsi isə bu sahədə yüksək nüfuzun təsdiqidir.

## *Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi ilə bağlı böyük əhəmiyyətə malik Konvensiyanın imzalanmasında Azərbaycanın rolu*

Qazanılan uğurlar sırasında regional əməkdaşlığa böyük töhfə kimi dəyərləndirilən Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi ilə bağlı Konvensiyanın imzalanması böyük əhəmiyyətə malikdir. SSRİ-nin süqutundan sonra Xəzər regionunda yaranan yeni müstəqil dövlətlərin bu günə qədər davam edən bu sahədə müzakirələrinin müsbət sonluqla başa çatmasında Azərbaycanın xüsusi rolu vardır. Ölkəmizin yeni əməkdaşlıq formatlarının yaranmasındakı təşəbbüskarlığı, iki və çoxtərəfli əlaqələrin inkişafındakı fəallığı bu prosesdə də özünü büruzə vermiş, dövlətimiz Xəzəryanı ölkələr arasında münasibətlərin hüquqi bazasının yaradılmasında aktivliyi ilə diqqəti bir daha cəlb etmişdir. Dövlət başçımız vurğulamışdır ki, bu gün Xəzərdə təhlükəsizlik və sabitlik bizim imzaladığımız Konvensiya ilə müəyyən olunur. Bu saziş Xəzəryanı ölkələrin sıx qarşılıqlı fəaliyyəti, iqtisadi, nəqliyyat xarakterli və xalqlarımızın həyat səviyyəsinin yaxşılaşmasına kömək edəcək məsələlərin, qarşılıqlı maraqların həlli üçün geniş perspektivlər açır.

## *Müasir müdafiə sənayesinin inkişafı və qüdrətli ordu quruculuğu*

Ərazilərimizin Ermənistan tərəfindən 20 faizinin işğalı və bu ölkənin danışıqlarda sülh yolu ilə həll istiqamətində qeyri-konstruktiv yanaşması davam edir. İşğalçı dövlət BMT Təhlükəsizlik Şurasının onun qoşunlarının zəbt etdiyi ərazilərimizdən qeyd-şərtsiz və dərhal çıxarılmasını tələb edən 4 qətnaməsinə riayət etmir. Avropa Parlamenti, ATƏT, Avropa Şurasının Parlament Assambleyası, İslam Konfransı Təşkilatı, Qoşulmama Hərəkatı, NATO və digərlərinin Azərbaycanın haqq işini dəstəkləyən kifayət qədər qərar və qətnamələri də vardır. Bu qətnamələr icra olunmamış qalır, hələ də kağız üzərindədir, ermənilər digər ərazilərə də iddialarından əl çəkməmişlər. Buna görə də Azərbaycan müharibə şəraitində yaşayır. Bu baxımdan da müdafiə sənayesinə və müasir güclü orduya malik olmaq həyati əhəmiyyət kəsb edir.

Aydındır ki, müdafiə sənayesinin inkişafı və qüdrətli ordu quruculuğu dinamik innovativ iqtisadi inkişaf zəminində baş verir. Hazırda ölkəmizin tərəqqisinin dinamizmi qorunur və ilbəil yeni yüksək mərhələyə qalxan güclü hərbi sənayesi, qüdrətini daim artıran silahlı qüvvələri vardır. Bu artan gücü 2016-cı il aprel döyüşləri, Naxçıvanda 11 min hektar ərazimizin azad edilməsi və bütün strateji nöqtələrin nəzarətə götürülməsi bir daha sübut edib. Artıq nazirliyin müəssisələri beynəlxalq bazarlara da uğurla çıxır. Bu isə istehsal olunan məmulatların keyfiyyətliliyinin və beynəlxalq standartlara cavab verdiyinin təsdiqidir. İxrac edilən məmulatlar sırasında bütün növ döyüş sursatları, müasir atıcı silahları, snayper tüfəngləri, pilotsuz uçuş aparatları və s. vardır. İxrac imkanlarının genişləndirməsi məqsədilə bütün tədbirlər görülür və bu uğurlar mütəmadi olaraq beynəlxalq müdafiə sənayesi sərgilərində yeni-yeni məmulat və məhsullarla iştirakla da bağlıdır. Ölkəmiz ilk qatıldığı sərgidə 27 adda məmulatla təmsil olunurdusa, “ADEX- 2014”ə 37 şirkətlə qatılmış və 168 adda məhsul nümayiş etdirmişdi. Bu sərgidə dünyanın 34 ölkəsindən 200 şirkət və 22 rəsmi nümyəndə iştirak etmişdi. Malayziyada keçirilən dünyanın 5 ən böyük müdafiə sərgisi 15-ci “DSA-2016”da nazirlik 220 adda məhsulun təqdimatını keçirmişdir. Bakıda “ADEX-2016” II Beynəlxalq müdafiə sərgisində isə 38 ölkədən 200-dən çox şirkətdən sifarişlər qəbul edilmişdir. Müdafiə Sənayesi Nazirliyinin təşəbbüsü və təşkilatçılığı ilə Azərbaycanda keçirilən “ADEX-2018” üçüncü Beynəlxalq Müdafiə Sənayesi sərgisində Türkiyə, Fransa, İsrail, Rusiya, Belarus, Pakistan, Çin və sair dövlətlər daxil olmaqla dünyanın 29 ölkəsindən 224 şirkət iştirak edib. İştirak edən dövlətlərdən 11 ölkə - Azərbaycan, Türkiyə, Rusiya, Fransa, Belarus, Çin, Pakistan, İsrail, İran, Ukrayna və Serbiya milli pavilyonları ilə təmsil olunublar. “ADEX-2018” sərgisində Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində yaradılan və istehsal olunan məmulatlardan - 7,62 millimetrlik AZ-50 tipli avtomat, 7,62x54 millimetrlik HP-7,62 tipli hücum pulemyotu, 8,6x70 millimetrlik “Vaşaq” snayper tüfəngi, 12,7x108 millimetrlik “Mübariz” snayper tüfəngi, 12,7x108 millimetrlik ST-12,7 tipli iriçaplı snayper tüfəngi, 23x115 millimetrlik İST-23 tipli iriçaplı snayper tüfəngi, 14,5x114 millimetrlik NST-14,5 tipli iriçaplı snayper tüfəngi, 12,7 millimetrlik iriçaplı NSVT-12,7 tipli pulemyotu, məsafədən idarə olunan döyüş modulu ilk dəfə idi ki, nümayiş etdirilirdi.

## *Xalqımızın zəngin tarixinə, ədəbiyyatına, mədəniyyətinə və milli-mənəvi dəyərlərinə sahib çıxılır və yaşadılır*

Öz tarixinə və milli-mənəvi dəyərlərinə sahib çıxmayan xalq məhvə məhkumdur. Ölkəmizdə 2018-ci il “Azərbaycan Xalq Cümhuriyyəti ili”, 2019-cu il isə “Nəsimi ili” elan edilmişdir. Bu istiqamətdə addımlar davamlıdır və xalqımızın zəngin tarixinə, ədəbiyyatına, mədəniyyətinə və milli-mənəvi dəyərlərinə sahibliyinin və yaşadılmasının təsdiqidir. Müasir dünyamızda sərhədsiz informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı şəraitində bu bir ilin mühüm sənədləri sırasında “Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Fərman da xüsusi yer tutur. Beləliklə, dünya təcrübəsi sübut edir ki, dilinin, tarixinin, milli-mənəvi dəyərlərinin sahibi və mühafizi olan xalq məğlubedilməzdir. UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının bu il 30 iyun-10 iyul tarixlərində ölkəmizdə keçirilməsi ilə bağlı qərarının qəbul olunmasında da həm milli-mənəvi dəyərlərimizə yüksək qayğı, həm də multikulturalizmin yaşam tərzimiz olması və tolerantlığımız kimi xüsusiyyətlərimiz əsas səbəb yer olub.

## *Seçkilərdə verilən vədlərin yerinə yetirilməsi xalq-iqtidar birliyini daim möhkəmləndirən amildir*

2003-cü ildən gələn və son bir ildə daha da yüksəyə qalxan inkişaf mərhələləri xalqla iqtidar birliyinin sayəsindədir desək, səhv etmərik. Dövlətimizin başçısı İlham Əliyev dəfələrlə bu vəhdətliyi diqqətə çatdırıb və vurğulayıb ki, mən həmişə Azərbaycan xalqının dəstəyini hiss etmişəm və hiss edirəm. Bu dəstək mənə güc verir. Mən bu dəstəyə arxalanıram və xalqı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da xalqa və Vətənə ləyaqətlə xidmət edəcəyəm. Azərbaycan xalq-iqtidar birliyi sayəsində yeni-yeni inkişaf mərhələsinə doğru inamla addımlayır. Bunu ölkəmizdə keçirilən beynəlxalq sorğuların nəticələri də təsdiqləyir. Bu ilin martında Fransanın “Opinion Way” şirkətinin Azərbaycanda apardığı rəy sorğusu ölkə başçısı İlham Əliyevin yenə də xalqın əksəriyyətinin yüksək etimadına malik olduğunu təsdiq etdi. Belə ki, respondentlərin 80,1 faizi ölkəmizdəki ictimai-siyasi və sosial-iqtisadi sabitliyin qorunmasını Prezident kimi İlham Əliyevin ən uğurlu fəaliyyətinin nəticəsi kimi qiymətləndirib. Onlar vurğulayıblar ki, dünyada və bölgədə yaşanan çoxsaylı mənfi proseslərə rəğmən Azərbaycan son bir ildə ictimai-siyasi sabitlik şəraitində öz dinamik sosial-iqtisadi inkişafının dinamizmini qoruyub, əmin-amanlığın təmini və sosial rifah naminə mühüm addımlar atıb. Ölkədə etnik, dini icmalar arasında qarşılıqlı hörmət və dözümlülük mühiti mövcuddur və ictimai-siyasi zəmində sabitlik hökm sürüb.

Təbii ki, bir yazıda ölkədə baş verən proqressiv irəliləyişi, bütün və yeni mərhələnin müsbət yekunlarını ehtiva etmək qeyri-mümkündür. Yuxarıdakı göstəricilər də Prezident İlham Əliyevin seçkiqabağı vədlərinin yerinə yetirilməsini təsdiq edir və aşkardır ki, qiymətləndirilməyə dair “Opinion Way”in suallarına respondentlərin 75,6 faizinin müsbət cavab verməsinə hərtərəfli davamlı proqressiv inkişaf səbəb olub.

**Ataş CƏBRAYILOV,**
**“Respublika”.**

# DAŞKƏSƏN: HƏRBİ XİDMƏTİNİ BAŞA VURMUŞ GƏNCLƏRİN TƏNTƏNƏLİ QARŞILANMA MƏRASİMİ

**Daşkəsən Rayon İcra Hakimiyyəti, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Daşkəsən rayon bölməsinin birgə təşkilatçılığı ilə ənənəvi olaraq, Daşkəsən rayonundan olan ehtiyata buraxılmış müddətli həqiqi hərbi xidmət qulluqçularının qarşılanması münasibətilə təntənəli tədbir keçirilib.**



Tədbirdə rayon rəhbərliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Daşkəsən rayon bölməsinin şəxsi heyəti, şəhid ailələri, Qarabağ müharibəsi veteranları, hərbi xidmətə çağırış yaşlı gənclər, valideynlər, məktəblilər, rayon ictimaiyyətinin nümayəndələri və KİV mənsubları iştirak ediblər.

Əvvəlcə tədbir iştirakçıları rayon mərkəzində ucaldılmış xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi önünə tər gül dəstələri qoyaraq ulu öndərin əziz xatirəsini ehtiramla yad ediblər.

Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və torpaqlarımızın ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş qəhrəman Vətən övladlarının əziz xatirəsinin ehtiramla yad edilməsi ilə başlanan tədbiri giriş sözü ilə açan Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev qeyd edib ki, müasir Azərbaycan dövlətinin ordu quruculuğu və onun qısa müddətdə yüksək inkişafı xalqımızın ümummilli lideri Heydər Əliyevin müstəsna xidmətləri ilə bağlıdır. Heydər Əliyev Azərbaycanın hərtərəfli inkişafına, iqtisadi-siyasi cəhətdən güclənməsinə, vətəndaşların həyat şəraitinin yaxşılaşdırılmasına, dövlətimizin, xalqımızın təhlükəsizliyinin təminatına böyük töhfələrini vermiş, onun gələcəyini müəyyən etmişdir. Ulu öndərin Azərbaycanda ordu quruculuğu istiqamətində açdığı yol bu gün möhtərəm Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi altında Silahlı Qüvvələrimiz özünün yeni inkişaf mərhələsinə qədəm qoymuş, şəxsi heyətin müasir hərbi texnika ilə təminatı, onun xidmət və həyat şəraiti davamlı şəkildə yaxşılaşdırılmışdır. Aparılan genişmiqyaslı islahatlar nəticəsində hazırda Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü ordularından biri kimi dəyərləndirilir.

Çıxış edən Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Daşkəsən rayon bölməsinin rəisi mayor Aqşin Xancanov isə ölkəmizdə ordu quruculuğu sahəsində qazanılmış uğurlardan söhbət açıb. Vətəni göz bəbəyitək qorumağın müqəddəs və məsuliyyətli vəzifə olduğunu deyən bölmə rəisi düşməndən qat-qat üstün olan ordumuzun doğma torpaqlarımızın keşiyində daim ayıq-sayıq dayandığını, hərb işinin sirlərinə mükəmməl yiyələndiklərini, dövlət başçımızın rəhbərliyi altında ölkəmizin ərazi bütövlüyünün möhkəm qorunduğunu diqqətə çatdırıb.

Tərxis olunmuş çağırışçılar adından çıxış edən Zöhrab Həsənov isə göstərilən diqqətə, yaradılan hər cür yüksək şəraitə görə Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə minnətdarlığını bildirdi.

Daha sonra Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev Silahlı Qüvvələrimizin sıralarından tərxis olunmuş rayon gənclərinə hərbi biletlərini və hədiyyələr təqdim edib.

Tədbir ədəbi-bədii kompozisiya və musiqi proqramı ilə başa çatıb.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# Tərtərdə yaradıcılıq festivalı

**"Bölgələrdən bölgələrə" Yaradıcılıq Festivalı çərçivəsində növbəti tədbir cəbhə xəttində yerləşən Tərtər şəhərində reallaşıb. Heydər Əliyev Parkında təşkil olunan tədbirdə Tərtər sakinləri, Mədəniyyət Nazirliyinin nümayəndələri, habelə regional mədəniyyət idarələrinin rəisləri və mədəniyyət işçiləri iştirak ediblər.**



Tədbir iştirakçıları əvvəlcə şəhərin Mərkəzi Meydanında yerləşən ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edib, önünə tər gül-çiçək dəstələri düzüblər.

"Bölgələrdən bölgələrə" Yaradıcılıq Festivalında sərgi çadırları qurulub. İsmayıllı ustalarının metalişləmənin fərqli texnika və üsullarından istifadə edərək hazırladıqları misgərlik nümunələri, məişət qabları, kəlağayılar, Sumqayıt sənətkarlarının bədii tikmənin bir çox növünə aid zərif naxışlı tikmələri, çay daşları və ağacdan hazırladıqları muncuq və digər bəzək əşyaları, Masallı regional idarəsi tərəfindən təqdim olunan həsirdən hörmə, toxuma əl işləri, ağacoyma və dulusçuluq kimi digər nümunələr maraqla qarşılanıb.

Sərgidə oymaçı rəssam Sərvər Abdullayev Azərbaycanın müasir memarlıq simvolu olan Heydər Əliyev Mərkəzi, tarixi məkanlardan olan Ağdam "Çay evi" və Ağdam məscidi, Hökumət evi kimi respublikamızın tanınmış tikililərini kibrit dənələrindən hazırlamaqla ziyarətçilərin diqqətini çəkib.

Sərgidə Qarabağ və Qazax xalçaları da nümayiş olunub. Hərbçilərin xüsusi göstərdikləri nömrələr maraqla qarşılanıb. Tədbirin zəngin proqramını yaddaqalan edən anlardan biri də el havasının sədaları altında meydana Qarabağ atlarının gəlişi olub. Qarabağ atları Heydər Əliyev Parkının ətrafında bir neçə dəfə dövrə vurublar.

Festivalda 2019-cu ilin "Nəsimi ili" elan edilməsi ilə əlaqədar kitab guşəsi də təşkil olunub. Kitab guşəsində ədibin əsərlərindən əlavə, Prezident İlham Əliyevin sərəncamları ilə cari il ərzində yubileylərinin keçirilməsi nəzərdə tutulan şair və yazıçıların da kitabları sərgilənib.

Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov çıxış edərək, festivalın əhəmiyyətini yüksək qiymətləndirib. Bildirib ki, festival Azərbaycanın bütün regionlarının mədəni zənginliyi, sənətkarlıq irsi və incəsənəti ilə tanış olmağa, bölgələr arasındakı mədəni mübadiləni gücləndirməyə, eləcə də yeni təşəbbüslərə zəmin yaradır.

Tədbirdə mədəniyyət işçilərinin təqdimatında "Azərbaycan mədəniyyətinin inkişaf tarixi" mövzusunda ədəbi-bədii kompozisiya da nümayiş etdirilib. Kompozisiyada oğuz elinin ağsaqqalı, ozanların atası Dədə Qorqud obrazının gəlişi ilə Azərbaycan mədəniyyətinin qədim dövrlərdən ta indiki zamanımıza kimi inkişaf mərhələsini əks etdirən epizodlar əyani şəkildə qonaqlara göstərilib. Yaradıcılıq Festivalında hər bir regional idarə üzrə folklor qrupları, yerli incəsənət və bədii özfəaliyyət kollektivləri konsert proqramı ilə çıxış ediblər. Təqdim olunan rəngarəng musiqi nömrələri, rəqslər tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

**Vəli VƏLİYEV,**
**"Respublika".**

# Saatlı: "AQRO-AZ" MMC çiyid səpini ilə pambıq əkininə start verdi

*"Ağ qızıl" ustaları yeni mövsümdə məhsuldarlığı yüksəltmək əzmindədirlər*

**Dövlət başçımız cənab İlham Əliyevin aqrar təsərrüfatın bu sahəsinə göstərdiyi qayğı və diqqət kənd əməkçilərini daha da ruhlandırmış, məhsuldarlığın yüksəldilməsi yolunda yeni stimul olmuşdur. Saatlıda pambıq əkini ilə bir neçə təsərrüfat və şirkət məşğul olur. Onlardan biri - "AQRO-AZ" MMC hər il olduğu kimi bu mövsümdə də səpini mütəşəkkil təşkil etdiyindən burada çalışan kollektivlə görüşməyi qərara aldıq. "AQRO-AZ" MMC-nin Pambıq emalı zavodunun direktoru Yaşar Hüseynovla görüşürük. Direktorun vaxtı məhdud olsa da, Yaşar müəllimdən keçən mövsümdə əldə edilən göstəricilər barədə məlumatlar öyrənirik:**

- Kollektivimiz keçən mövsümdə Saatlı rayonunda 4.200 hektar sahədə məhsul becərmişdir. 10.300 ton "ağ qızıl" əldə edib məhsuldarlığı hektardan 24,5 sentnerə yüksəldə bildik. Keçən mövsümdə müqavilə bağladığımız fermerlərə avans olaraq pul verildi. Bununla da fermerlər əldə etdikləri vəsait hesabına heç bir çətinlik çəkmədən əkinə, becərməyə, yığıma sərf olunan dərman preparatları, texniki vasitələr və sair əldə etmək imkanı qazandılar. Yeri gəlmişkən, yüksək məhsuldarlıq əldə edən fermerlərdən Vilayət Mirzəyevin adını xüsusi qeyd etmək istəyirəm. Vilayət keçən il 120 hektarda pambıq becərib 500 ton məhsul əldə elədi. Bu il əkin sahəsinin həcmini artıraraq 200 hektara müqavilə bağlayıb. Özü də hektardan 40-45 sentner məhsul götürməyə söz verib. Keçən mövsümdə Vasif Hüseynovun, Güləli Dursunovun, Nizami Cəfərovun əldə etdiyi göstəricilər sevindiricidir. Zavodda istehsal olunan keçənilki mahlıcın böyük hissəsi artıq satılıb, yaxın vaxtlarda yerdə qalanı satışa çıxarılacaq. Burası da çox yaxşıdır ki, məhsulun ixracında üzləşdiyimiz süni baryerlər artıq aradan qaldırılmışdır. Bu işdə indi heç bir çətinlik yoxdur.

Yaşar müəllim deyir:

—Dövlət başçımız cənab İlham Əliyevin pambıqçılarla keçirdiyi görüşlərdə qarşıya qoyduğu vəzifələr bizə yüksək məhsuldarlıq əldə etməkdə yeni impuls vermişdir. Yüksək məhsuldarlığın əsasını çiyid səpininin optimal müddətdə, keyfiyyətlə başa çatdırılması təşkil edir. Deyim ki, təbiətin özü bu il bizə yardımçı olmuşdur. Səpin ərəfəsində yağan bol yağışlar torpağın aratına əlverişli təsir etmişdir. Bu il əkin aparacağımız 5 min hektar sahə səpinə tam hazırdır. Sahənin 4500 hektarı Saatlının, 500 hektarı Sabirabad rayonunun ərazisində yerləşir. 1100 fermerlə müqavilə bağlayıb ilkin olaraq onlara 1 milyon 200 min manat avans və mal-material vermişik. Tarlalarda qızğın iş gedir, səpin heç bir problem olmadan, mütəşəkkilliklə aparılır. Bu günə kimi 1500 hektardan artıq sahəyə çiyid səpilib. Səpində yüksək məhsuldarlıqlı "ADN-123", "BA-440" xarici, "AZNX-194" növlü yerli toxumdan istifadə olunur. Kifayət qədər texnikamız var. Çiyidsəpən və ağır malaçəkənlə birlikdə şum traktorları fermerlərin ixtiyarındadır. Bundan əlavə, 10 fermerin hər birinə lizinq yolu ilə "MTZ-80X" markalı traktor verilmişdir.

"AQRO-AZ" MMC-nin müasir tipli pambıq emalı zavodu var. Burada 120 nəfər fəhlə daimi işlə təmin olunmuşdur. Fəhlələrin orta aylıq əməkhaqqı 300-350 manat təşkil edir. Müəssisə oturaqlaşmış müəssisədir. Yeri gəlmişkən deyək ki, müəssisənin qurulmasında uzun illər Şirvan-Muğan ərazisində yüksək təşkilatçılıq qabiliyyətinə malik, mütəxəssis pambıqçı Vahid Hüseynovun əvəzsiz xidmətləri var. Bu gün təkcə Saatlıda deyil, respublikamızın pambıqçılıqla məşğul olan əksər regionlarında "ağ qızıl" ustaları Vahid müəllimi yaxşı tanıyır, ona müraciət edib məsləhətlər alırlar. Vahid müəllim özünün köməkliyi ilə qurulan müəssisəyə tez-tez baş çəkir, kollektivdən köməyini əsirgəmir. Saatlı Rayon İcra Hakimiyyətinin başçısı Siraqəddin Cabbarov "AQRO-AZ" MMC-nin hər bir qayğısı ilə maraqlanır, qarşıya çıxan problemin həllinə yardımçı olur.



Yaşar Hüseynov söhbətimizin sonunda bir daha pambıqçılığa geniş meydan verdiyinə görə ölkə Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlıq hissini bildirir:

—Cənab Prezident, sözün əsl mənasında, pambıqçılığın inkişafına geniş meydan vermişdir. Dövlət başçımızın etimadını doğrultmaq üçün əlimizdən gələni əsirgəməyəcəyik. Hələlik əsas vəzifə çiyid səpinini optimal müddət ərzində başa çatdırmaqdır.

**Tofiq HÜSEYN,**
**"Respublika".**

# VƏTƏNPƏRVƏR HƏKİM

**Lerikin Zuvand mahalı qədim tarixi, zəngin və unikal təbiəti, görkəmli dövlət xadimləri, alimləri, təbibləri, nüfuzlu ziyalıları ilə tanınır. Haqqında söhbət açacağımız Əsədulla Əsgərov da 1949-cu ilin aprelində bu mahalın Hilədərə kəndində dünyaya göz açıb.**

Uşaqlığı çətin illərə düşüb. Üç yaşında ikən rəhbərin "atalıq qayğısı" sayəsində Zuvandın 40-a yaxın kəndi deportasiyaya məruz qalıb. Atası Həzərxan kişi həmkəndliləri ilə zorla Biləsuvar rayonuna köçürülüb. Ailə Əsgərabad kəndində məskunlaşıb. Əsədullanın valideynləri kolxozda işləyib. Halal zəhmətlə dolanıblar. Yeniyetməlik dövründə atası dünyasını dəyişib. Dörd qız və dörd oğlan uşağını böyüdüb ərsəyə çatdırmaq Əminə ananın kövrək çiyinlərinə düşüb. Ana min bir əziyyətlə övladlarını saxlayıb, onları ev-eşik sahibi edib. Bir əsrdən çox ömür sürüb, mərd, cəfakeş, qeyrətli ana kimi yaddaşlarda iz qoyub.

Əsədulla ibtidai məktəbi kənddə bitirib. Sonra Nizami adına Biləsuvar şəhər 1 nömrəli tam orta məktəbdə təhsil alıb. Orta məktəbi bitirəndən sonra ailəyə kömək məqsədilə poçt şöbəsində, məktəbdə işləyib. Atasının vaxsız ölümü onu hədsiz dərəcədə sarsıdıb. Uzun müddət atasızlığın ağrılarını, nisgilini yaşayıb. Böyüyəndə həkim olacağını, uşaqların atalı-analı böyüməsi üçün əlindən gələni edəcəyini düşünüb, gələcəyə nikbin arzularla baxıb.

Əsədulla 1969-cu ildə Azərbaycan Dövlət Tibb Universitetinin müalicə-profilaktika fakültəsinə qəbul olundu. Qabaqcıl, nümunəvi tələbə kimi tanındı. Ali məktəbdə qalmaq şansı olsa da insanların sağlamlığı keşiyində durmağa üstünlük verdi.

1976-cı ildə təyinatla Kəlbəcər rayonundakı "İstisu" sanatoriyasında əmək fəaliyyətinə başladı. Dərin biliyi, savadı, bacarığı ilə kollektivdə seçildi. Gənc həkim yeni müalicə üsullarını tətbiq edir, xəstələrin sağalması üçün qüvvə və bacarığını əsirgəmirdi. Xəstələr daha çox ona müraciət edirdilər. O illərdə dəfələrlə iş otağının qapısında növbələrin yarandığının şahidiyəm. Sanatoriyanın iclas zalında tibbi mövzuda oxuduğu mühazirələr, verdiyi tövsiyə və məsləhətlər maraqla qarşılanır, sağaltdığı xəstələr həkimə inamı daha da artırırdı. Əsədulla həkim "İstisu"da mədə-bağırsaq xəstəlikləri şöbəsinin müdiri kimi 4 il çalışdı. Burada zəngin təcrübə qazandı, peşəkar həkim kimi formalaşdı.

İşgüzarlığı, həkimlik məharəti, təşkilatçılıq qabiliyyəti Respublika Baş Kurortlar İdarəsinin rəhbərliyinin diqqətindən yayınmadı. 1980-cı ilin yanvar ayında "Şuşa" Kurort Birliyində baş həkimin müalicə işləri üzrə müavini vəzifəsinə təyinat aldı. "Şuşa" o vaxt Ümumittifaq əhəmiyyətli sanatoriya kimi sovet məkanında tanınırdı. İttifaqın hər yerindən bura müalicə almağa, dincəlməyə gəlirdilər. İş başdan aşırdı. Əsədulla həkim istirahətin nə olduğunu bilmir, müalicə işinin düzgün, səmərəli təşkilinə, onun keyfiyyətinin artırılmasına var qüvvə ilə çalışırdı. Beləcə ömrünün 12 ilini Şuşada kurort-sanatoriya sisteminin inkişafına həsr etdi.

Şuşanın çətin günlərində sanatoriyanın fəaliyyəti dayanmışdı. Bakıda ona layiqli iş təklif olunsa da o, Şuşanı tərk etmədi. Vətənpərvər həkimin iş yerini ön cəbhə, səngərlər əvəz etdi. Şuşa özünümüdafiə batalyonunun tərkibində döyüşlərdə olur, yaralı əsgər və zabitlərə ilkin yardım edir, onları təcili tibbi yardım maşını ilə xəstəxanaya çatdırırdı. Xoşbəxtlikdən düşmən gülləsi dəfələrlə ondan yan keçmiş, ölüm hər dəfə bu mərd, qorxmaz, cəsur həkimdən "qaçmışdı."

Ermənilər iki dəfə onun yaşadığı binaya ağır, odlu silahlardan zərbələr endirmişdilər. "Alazan" tipli paket yaşadığı mənzilin eyvanına düşmüş, pəncərələr qırılmış, mənzilə xeyli ziyan dəymişdi. İkinci dəfə "Qrad" qurğusu mənzili yandırıb viran etmişdi. Ailə zirzəmidə olduğu üçün xəsarət alan olmamışdı. Dostları bu gün də deyir ki, Əsədulla həkim ancaq Tanrının lütfü hesabına sağ qalıb.

Şuşalı günlərini o, həmişə həsrətlə, ürəkağrısı ilə xatırlayır. Qarabağın baş tacının, Pənahəli xanın yadigarının düşmən əsarətində olması ilə heç cür barışmır, 27 il əvvəlki kimi yenə də düşmənlə döyüşə hazır olduğunu deyir.

Şuşanın işğalından sonra taleyini "Bilgəh" sanatoriyasına bağlayıb. O illərdə sanatoriyanın baş həkimi işləyən Solmaz Miriyeva kurort-sanatoriya sistemində zəngin təcrübə qazanmış, Qarabağ uğrunda gedən müharibənin alovlarından çıxmış vətənpərvər həkimi işlə, xidməti mənzillə təmin edir. Elə o vaxtdan Əsədulla Əsgərov sanatoriyada baş həkimin müalicə işləri üzrə müavini vəzifəsində çalışır.

Ali dərəcəli həkim-kardioloq, qocaman tibb işçisi Surxay Rəhimov Əsədulla həkimin sanatoriyada böyük əməyi olduğunu önə çəkərək deyir:

- Mən 50 ilə yaxındır ki, kurort-sanatoriya sistemində çalışıram. "Bilgəh"də uzun müddət baş həkim müavini işləmişəm. Həkim Əsədulla Əsgərovu 1992-ci ildən tanıyıram. Savadlı, hərtərəfli, geniş dünyagörüşünə, əhatə dairəsinə malik həkim, bacarıqlı səhiyyə təşkilatçısıdır. Sanatoriyada tibbi xidmətin təşkilində, həkimlərin, orta tibb işçilərinin ixtisaslarının, peşəkarlıqlarının artırılmasında əməyi çoxdur. Özü də dəfələrlə Bakıda, Moskvada, Sankt-Peterburqda, Pyatiqorsk və digər şəhərlərdə qastroentorologiya, kardiologiya, tibb müəssisələri üçün rəhbər kadrlar hazırlayan ixtisasartırma kurslarında olmuş, müqəddəs həkimlik peşəsinin zirvəsinə ucalmışdır. Sanatoriyada müasir kardiologiyanın problemlərinə həsr edilmiş konfransların keçirilməsində, yeni müalicə metodlarının kollektivə çatdırılmasında və tətbiqində əvəzsiz xidmətləri vardır. İşini çox gözəl qurub. Çətinlikləri yerindəcə həll etməyi bacarır. Kollektiv onu çox sevir. Hər bir işçiyə fərdi qaydada yanaşır, qayğısını, təmənnasız köməyini heç vaxt əsirgəmir. Hazırda orta tibb işçilərini növbəti attestasiya imtahanına hazırlayır. Səmimi, vicdanlı, xeyirxah, vətənpərvər həkim kimi onu tanıyıram. Sənətini, həkim şərəfini, ləyaqətini həmişə uca tutur. Qarabağ müharibəsinin veteranıdır. Xidmətlərini, çəkdiyi əziyyətləri heç vaxt dilinə gətirməz.



Sanatoriyanın həkim-kardioloqu, respublikanın Əməkdar həkimi Rima Nəcəfova həmkarı barədə deyir:

- Əsədulla cox savadlı, peşəsini sevən, işinə bağlı həkimdir. Uzun illərdir ki, sanator-kurort sistemində birgə calışırıq. İşinə hər zaman məsuliyyətlə yanaşır. Poeziya vurğunudur. Klassik və müasir ədəbiyyatımızın bilicisidir. Geniş diapazona malikdir. Hansı sahədən istəsən məlumatı var. Etibarlı, gözəl dost, maraqlı həmsöhbətdir. Ömür-gün yoldaşı Səkinə Abuzərova da tibb işçisidir. Bir yerdə işləyirik. Ailənin yeganə övladı Elvinin gələcəkdə həkim olmasını, ailə ənənələrini yaşatmasını arzulayırıq.

Əsədulla həkim 43 il ərzində minlərlə xəstəyə şəfa verib. Bu günlərdə onun iş yerində 70 illik yubileyi yüksək səviyyədə qeyd olunub. Yubiley tədbiri kollektivin əsl bayramına çevrilib. Sanatoriyanın baş həkimi Muxtar Əhmədov, Respublika Həmkarlar İttifaqları Konfederasiyasının, "Kurort" Qapalı Səhmdar Cəmiyyətinin məsul işçiləri, iş yoldaşları onu təcrübəli həkim, bacarıqlı səhiyyə təşkilatçısı, xeyirxah, alicənab, nəcib, gözəl insan kimi tanıdıqlarını qeyd edərək haqqında ürək sözlərini, təbriklərini söyləyiblər. El-obaya, müstəqil Azərbaycana bütün varlığı ilə bağlı olan vətənpərvər həkimin bundan sonra da dövlətçiliyimizə, kurort-sanatoriya sisteminin inkişafına dəyərli töhfələr verəcəyi əminliklə qeyd olunub.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**

*Çiyid səpini - 2019*

# Dövlət dəstəyi fermerləri daha da ruhlandırıb

**Bahar barıt qoxulu torpağın sinəsinə min bir rəngə çalan naxış vurub. Alça, ərik, şaftalı, alma ağacları çiçək açıb, qarışqalar qaynaşır, qaranquşların, torağayların cəh-cəhi aləmi başına götürüb. Çiçəklərin qanadında yaz bu yerlərə özgə bir gözəllik gətirib, torpaq yaşıl donunu geyinib, axşam düşənə kimi əkin sahələrində traktorların, toxum səpən aqreqatların səsi kəsilmir. İndi cəbhə bölgəsində yaz-tarla işlərinin qızğın çağıdır.**

Uzaqdan baxanda taxıl zəmiləri yaşıl adanı xatırladır. Taxıl zəmiləri xəfif mehin təsirindən dalğalanır. Pambıq əkilən sahələrdə adamlar çox böyük həvəslə çalışırlar. Bu da səbəbsiz deyil. Pambıqçılığın inkişaf etdirilməsinə dövlət dəstəyinin gücləndirilməsi, subsidiyaların verilməsi ağdamlı pambıqçıların fəaliyyətinə güclü təkan verib.

İnişil, pambıqçılığın inkişaf etdirilməsinə həsr edilmiş ümumrespublika müşavirəsindən sonra yerli pambıqçılar öz imkanlarını götür-qoy edərək belə qərara gəliblər ki, rayonun bu sahədəki keçmiş şöhrətini özünə qaytarsınlar.

Rayondakı torpaqlar çox münbitdir, təbii su mənbələri erməni işğalı altında qalsa da, Yuxarı Qarabağ kanalının və subartezianların hesabına suvarmada heç bir çətinlik yoxdur. Vaxtilə rayonda pambıq istehsalı rekord həddə çatdırılıb, insanların həyat şəraitinə müsbət təsir göstərib, onlarla əmək qəhrəmanı yetişib, insanların büdcəsinə böyük gəlir daxil olub. Nə yaxşı ki, unudulmuş və demək olar ki, itirilmiş pambıqçılıq artıq iki ildir ki, dövlətin diqqət mərkəzində mühüm yer tutub, sahənin inkişaf etdirilməsi üçün bütün zəruri tədbirlər həyata keçirilir.

Rayonda fermer və torpaq mülkiyyətçiləri çiyid səpininə başlayıblar. Ağdam pambıqçıları üç gündə 633 hektarda səpin həyata keçiriblər.



Bu il rayonda 2600 hektarda çiyid səpilməsi nəzərdə tutulub. Səpin aparılacaq təsərrüfatların hamısında sahələr vaxtında şumlanıb, arata qoyulub, malalanaraq hazır vəziyyətə gətirilib.

İlk olaraq səpinə Quzanlı qəsəbəsi, İmamqulubəyli, Xındırıstan, Üçoğlan kəndləri ərazisində başlanılıb. Rayonda fəaliyyət göstərən "MKT İstehsalat Kommersiya" MMC, "Azərpambıq" MMC və "P-Aqro" MMC ilə bağlanan müqavilələrə əsasən, pambıq istehsalçıları lazımi texnika, toxum, gübrə və kimyəvi preparatlarla tam təmin edilirlər. Səpin işlərinin aprel ayının axırınadək başa çatdırılacağı nəzərdə tutulur.

Rayonda pambıq səpininə ilkin başlayan fermerlərdən biri Xındırıstan kənd sakini Ramil Babayevdir. Əvvəlki illərdə hektarın məhsuldarlığına görə yüksək nəticələr əldə edən fermer bu ili də uğurla başa vurmaq əzmindədir. Fermer deyir:

- Dövlət tərəfindən pambıqçılığa göstərilən qayğıdan ruhlanaraq, 2017-ci ildə 60 hektarda pambıq becərib 192 ton məhsul götürdüm. 2018-ci ildə pambıq əkinlərini və məhsuldarlığı bir qədər də artırdım. Hər hektardan orta hesabla 53 sentner məhsulumuz oldu. Bu il aqrotexniki tədbirləri ardıcıl və düzgün həyata keçirərək, məhsuldarlığı daha da yüksəltməyə çalışacağam. Qeyd edək ki, 2018-ci ildə Ağdam rayonunda 3100 hektar sahədə pambıq əkilib, 5822,2 ton məhsul istehsal olunub.

Pambıq əkilən sahələrin birində mexanizator Talıb Hüseynovla tanış olduq. Onun çöhrəsində tər damcıları bərq vururdu. Keçmiş sovet dönəmində Talıb kişi gənc mexanizator kimi çalışdığı illərdən ətraflı söz açır, pambığın qiymətli məhsul olmasından inamla danışır. Ötən ildə yaxşı əməkhaqqı aldığını bildirir. İndi kənddə bekar adam qalmadığını deyən Talıb kişi bunun çox yaxşı olduğunu deyir. Məhsul vaxtı da ailəlikcə pambıq yığımında iştirak edəcəklərini bildirən əmək adamı yaxşı qazanc götürəcəklərinə inandığını bildirir.

Aran rayonunda torpaq bərəkətli, günəş şəfəqləri bol, insanlar isə çox zəhmətkeş, qoçaq və torpağa daha çox bağlıdırlar. Rayonda əkinçiliyin inkişaf etdirilməsi üçün münbit şərait var. Həm də eyni zamanda burada qabaqcıl təcrübə, gözəl ənənə mövcuddur. Bax, elə buna görə də rayonda kənd təsərrüfatı məhsullarının istehsalında yüksək nəticələr əldə olunur.

Prezident İlham Əliyevin ölkəmizdə aqrar sektorun ənənəvi sahəsi olan pambıqçılığın inkişafı ilə əlaqədar verdiyi tövsiyə və tapşırıqlara müvafiq olaraq rayonda bu sahənin dirçəldilməsi istiqamətində mühüm addımlar atılıb. Rayonun iqlim şəraiti, sakinlərin pambıqçılıq sahəsində təcrübəsi məhsul istehsalını artırmaq üçün stimul yaradır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə pambıqçılığın inkişafı məsələlərinə dair respublika müşavirəsindəki çıxışında qeyd edib ki, pambıqçılığın ölkə iqtisadiyyatıüçün nə qədər böyük faydası var - ilk növbədə, məşğulluq, ölkəmizə valyuta gətirir, qeyri-neft sektorunu, qeyri-neft sənayesini inkişaf etdirir, yerli istehsala təkan verir, nəinki pambıqçılıq rayonlarında, digər rayonlarda da iş yerləri yaradır.



Ötən il məhsul tədarükünə və hər hektarın məhsuldarlığına görə respublikanın pambıqçılıq rayonları arasında ön sıralarda dayanan Ağcabədi pambıqçıları cari ilin çiyid səpininə başlayıblar.

Bu il rayonda 10 min 432,8 hektarda çiyid səpilməsi nəzərdə tutulub. Səpin aparılacaq təsərrüfatlarda sahələr vaxtında şumlanıb, arata qoyulub, malalanaraq hazır vəziyyətə gətirilib.

İlk olaraq səpinə Ağcabədinin Yeni Qaradolaq, Mehrablı, Yuxarı Qiyaməddinli, Hüsülü kəndlərinin ərazilərində başlanılıb. Rayonda fəaliyyət göstərən "MKT İstehsalat Kommersiya" MMC, "Azərpambıq" MMC və "P-Aqro" MMC ilə bağlanan müqavilələrə əsasən, pambıq istehsalçıları lazımi texnika, toxum, gübrə və kimyəvi preparatlarla tam təmin ediliblər. Ağcabədi pambıqçıları ilk gündə 250 hektarda səpin aparıblar. Səpin işlərinin 15-20 gün müddətinə başa çatdırılacağı nəzərdə tutulub.

Qeyd edək ki, 2018-ci ildə Ağcabədi rayonunda 10 min hektarda pambıq əkilib, 23 min 304,91 ton məhsul istehsal edilib, orta məhsuldarlıq 23,3 sentner olub. 2017-ci illə müqayisədə pambıq əkini sahələri 4,7 faiz, pambıq istehsalı isə 13,6 faiz artıb.

Hər iki rayonda çiyid səpini uğurla davam etdirilir. Səpinçilər qaş qaralana kimi çalışırlar, bol məhsulun təməlini qoyurlar.

**Salman ALIOĞLU,**
**"Respublika".**

HƏMİD ARASLI-110

# Həmid Araslı və türk-müsəlman xalqları ədəbiyyatı

**Görkəmli ədəbiyyatşünas-alim və ictimai xadim, Əməkdar elm xadimi, akademik Həmid Araslı ədəbiyyat tariximizin folklor, aşıq yaradıcılığı, klassik irs və ədəbi əlaqə problemlərinin tədqiqi ilə məşğul olub və Azərbaycan ədəbiyyatı tarixinin yaradıcılarından biri kimi tanınıb.**

**Alimin elmi tədqiqatlarında ədəbi əlaqələr mövzusu mühüm yer tutub. Bu əlaqələrin vacib tezisləri, mühüm elmi müddəaları ilkin renessans dövründə (XII əsr) Qətran Təbrizi, Xaqani Şirvani, Nizami Gəncəvi və Məhsəti Gəncəvi irsinin Özbəkistan, Tacikistan, Hindistan və Türkiyə xalqları ədəbiyyatı; Orta əsrlərdə (XIV-XVI əsrlər) Marağalı Əvhədi, İmadəddin Nəsimi, Kişvəri, Şah İsmayıl Xətai və Məhəmməd Füzuli irsi ilə Şərq xalqları və Asiya ölkələri ədəbiyyatı; erkən yeni dövr üzrə (XVII-XVIII əsrlər) Məhəmməd Əmani, Fədai, Məsihi, Saib Təbrizi, Qövsi Təbrizi, Məhcur Şirvani, Molla Vəli Vidadi və Molla Pənah Vaqif irsinin qarşılıqlı poetik ənənələri, habelə, Yaxın və Orta Şərq xalqları ədəbiyyatına təsiri ilə bağlı olub.**



Həmid Araslının tədqiqatçılığı təsviri, informativ xarakterli olmaqla bərabər, faktların təsdiqi və ya təshihləri ilə birlikdə olub, iqrari və inkari hökmlərə yol açıb, mühakiməli və məntiqli görünüb, mülahizələrə və mübahisələrə yer qoyub. Bu o deməkdir ki, Həmid Araslının tədqiqatlarının çoxu ilkinliklə, fərdi tədqiqat üsulu ilə bağlı olub, vaxt keçdikcə, axtarışlarını, elmi uğurlarını zənginləşdirib.

Ədəbiyyatşünas-alim ciddi mənbəşünaslıq və mətnşünaslıq işləri görüb. Bədii-elmi materiala yaxın olmağı bacarıb. Buna ərəb, fars və rus dillərini, ədəbi qaynaqları daha dərindən bilməsi zəmin olub.

Həmid Araslının elmi-filoloji bilikləri Azərbaycan, Yaxın və Orta Şərq, habelə Asiya ölkələri üzrə konfranslar, əhəmiyyətli mövzu-problemlər ətrafında tədqiqlər, tədris müəssisələrində mühazirələr fonunda zənginləşib. Alimin tədqiqatlarının geniş bir şəbəkəsi tarixi-müqayisəli metoda, analitik təhlil üsuluna əsaslanıb. O, problemləri əhatəsi ilə birlikdə göstərməyə, ənənə, irs və varislik zəminində təqdim etməyə, müasirliyə üstünlük verib, sosial-siyasi şəraitlə elmi-mədəni mühiti bir yerdə götürməyi vacib bilib.

Görkəmli alim tarixi-ədəbi şəxsiyyətləri: Homer, Əbülqasim Firdovsi, Nizami Gəncəvi, Şota Rustaveli, Aligyeri Dante, Əbdürrəhman Cami, Əlişir Nəvai, Uilyam Şekspir, Corc Bayron, İohan Volfhanq Höte, Aleksandr Puşkin, Mirzə Fətəli Axundzadə, Namiq Kamal və Tofiq Fikrəti dövrünün müasirləri səviyyəsindən dəyərləndirib.

Həmid Araslı Nizami Gəncəvi irsini cahanşümul hesab edib. Onun Yaxın və Orta Şərq, habelə Asiya ölkələri şairlərinə geniş təsirindən danışıb. Buna səbəb Nizami humanizmi və bəşəriliyi olub. Alim bu ideyaları Nizami Gəncəvi ədəbi məktəbinin əsasında görüb. O, Şərq xalqlarının zəngin mənəvi irsinə, böyük ərəb və qədim yunan mədəniyyətinə, şifahi xalq yaradıcılığına dərindən bələd olub. Bu poetik məktəb özünəqədərki poetika məktəblərindən seçilib və şairi əsrimizə qədər Şərq və Qərb (Avropa) ölkələrində tanıdıb. Bunu "Gülşəhri və Nizami Gəncəvi" məqaləsində də qeyd edib. Bu baxımdan, alim hind şairi Əmir Xosrov Dəhləvi, İran şairi Məktəbi, tacik şairi Əbdürrəhman Cami, özbək şairi Əlişir Nəvai və türk şairi Şeyxinin adını çəkib.

Ədəbi əlaqələr araşdırıcısının məqalələri türk-müsəlman xalqları məcrasındadır. Bu mənada "Gülşəhri və Nizami Gəncəvi" (1968), "Nizami və özbək ədəbiyyatı" (1980), "Qüdrətli şair, ictimai xadim" (1968), "Cami və Azərbaycan ədəbiyyatı" (1964), "Azərbaycan və Hindistan xalqları arasında mədəni əlaqələrin tarixindən" (1957), "Nəvai və Azərbaycan ədəbiyyatı" (1940), "Tofiq Fikrət və Azərbaycan ədəbiyyatı" (1966), "Sabir və Şərq ədəbiyyatı" (1962), "Füzuli ərəb tədqiqatında" (1971), "Ədəbiyyat tariximiz haqqında yeni əsər" (1982), "Füzuli haqqında yeni kitab" (1956) kimi məqalələri qeyd oluna bilər.

Həmid Araslı ədəbi əlaqələrdə tərcümənin roluna, ciddi filoloji-elmi tərcüməyə əhəmiyyət verib. Alimin tərcüməyə yanaşması münasibətli, müdaxiləli olub. "Nizami əsərlərini yazan katiblər onun türkcə işlətdiyi sözləri nə qədər dəyişdirsələr də, şairin əsərlərində bu sözlər, xüsusilə xalq deyimləri çox qalmışdır. Nizaminin sənət dilinə türk dili baxımından yanaşmayan şərhçilər bu deyimlərin çoxunu izah edə bilməmiş, təxmini şəkildə şərh etmişlər".

Tədqiqatçı Nizami Gəncəvi əsərləri-ninilk dəfə XIV əsrdə Qızıl Orda şairi Qütb tərəfindən tərcüməsi fikrinə etiraz edib. Əsaslandırıb ki, Qütbdən yarım əsr öncə, 1313-cü ildə türk şairi Gülşəhri ilk dəfə Nizami şeirini türk dilinə çevirib.

Həmid Araslı qeyd edib ki, Yaxın Şərqdə elm və ədəbiyyatın inkişafında səlcuqilərin böyük xidməti olub. Fars dilində yaranan şeirin ən qüdrətli nümayəndələri Səlcuqilər sarayında yetişib, Atabəylərin maddi və mənəvi yardımı sayəsində şöhrətlənib.

Görkəmli ədəbiyyatşünas-alimin türk-müsəlman dünyasından daha çox məşğul olduğu sənətkar *Nizami Gəncəvidir.* O, Azərbaycan renessansının bu dahi şəxsiyyəti haqqında monoqrafiya, "Böyük Azərbaycan şairi Nizami Gəncəvinin həyat və yaradıcılığı", "Nizamidə xalq sözləri, xalq ifadə və zərbül- məsəlləri", "Nizami və vətən", "Nizami və Azərbaycan xalq ədəbiyyatı", "Nizaminin lirik şeirləri", "Sirlər xəzinəsi", "Ölməz məhəbbət dastanı", "Nizami yaradıcılığında xalqlar dostluğu", "Şairin dünya şöhrəti" və başqa məqalələrini yazıb. Həmid Araslı Nizaminin Yaxın və Orta Şərqlə əlaqələrini özbək, tacik, hind, türk, fars ədəbiyyatı ilə bağlı izah edib. Bu baxımdan, "Gülşəhri və Nizami", "Qüdrətli şair, ictimai xadim", "Cami və Azərbaycan ədəbiyyatı", "Azərbaycan və Hindistan xalqları arasında mədəni əlaqələrin tarixindən" məqalələrikonfranslar, tarixi bayramlar, ədəbi yubileylər, faktoloji bədii əlaqələr və tədris münasibətilə yazılıb.

Həmid Araslının Nizamiyə aid elmi-metodoloji tədqiqatlarının vacib tərəfi nədir? Alim yazır: "Xəmsə" elə böyük şöhrət qazanmışdır ki, bu mövzularda əsər yazmaq Yaxın Şərqdə şairlik sınağı kimi qiymətləndirilmişdir". "Nizaminin adı Şərq təzkirə müəllifləri və tarixçilərinin əsərlərində böyük sayğı ilə anılmışdır". "Yaxın Şərq xalqları Nizami əsərlərini əsrlər boyu orijinalda oxuduqları kimi, onu başqa dillərə çevirmək yolu ilə də şairi öz ölkələrində şöhrətləndirməyə çalışmışlar".

Həmid Araslının türk-islam məcrasında məşğul olduğu ikinci böyük sənətkar fars-tacik şairi Əbdürrəhman Camidir. O, bütün dünya xalqlarının tanıdığı və zəngin yaradıcılığı Azərbaycan ədəbiyyatı ilə bağlı olan sənətkardır. Ə.Cami özündən əvvəlki sənətkarlara bələd olub, mənzum və mənsur əsərlərində onlardan bəhs edib. Azərbaycan hökmdarlarını, alim və şairlərini tanıyıb, onlarla məktublaşıb. "Baharıstan" və "Nəfəhatül-üns" əsərlərində Xaqani, Nizami, Şah Qasım Ənvar və Əssar Təbrizi haqqında məlumat verib.

Tədqiqatçıya görə, Ə.Camiyə təsir edən ilk qaynaq Xaqani Şirvani yaradıcılığıdır. Xaqani ilk dəfə qəsidələrinə fəlsəfi məzmun aşılayıb, "Qəsideyi-şiniyyə" Şərq şairlərinin 40-dan çoxuna təsir edib. Ə.Caminin "Cilair-ruh" qəsidəsi də Xaqani əsərinə cavab olaraq yazılıb.

Fars-tacik şairi Nizaminin "Xəmsə"sinə cavab yazıb. Teymurilər sarayında (XV əsr) Ə.X.Dəhləvi yaradıcılığı Nizamidən üstün tutulub. Cami isə əksinə, Sultan Hüseyn Baykara və tərəfdarlarından fərqli olaraq Nizami yaradıcılığını yüksək qiymətləndirib, onu Ə.X.Dəhləvi sənətindən artıq tutub. Cami üç əsərilə Nizamini təqlid edib, lakin "Xirədnameyi-İskəndəri" və "Yeddi gözəl" mövzularında əsər yazmayıb.

Həmid Araslı göstərir ki, Əbdürrəhman Caminin şeirlərinə də Nizaminin təsiri olub. O, Marağalı Əşrəf və Şah Qasım Ənvardan da bəhrələnib. Onun Mirzə Cahanşah Həqiqiyə məktubu da olub. Herat şəhərinə qayıtdıqdan sonra Uzun Həsənin oğlu Sultan Yaqubla da məktublaşıb.

Azərbaycan şairləri də Camini ustad kimi seviblər. M.Füzuli "Ənisül-qəlb" əsərlərində onu hörmətlə xatırlayıb və "Hədisi-ərbəin" əsərini dilimizə çevirib, qəzəl və qəsidələrinə də nəzirələr yazıb, ondan təzminlər edib. Mirzə Fətəli Axundzadə də Ə.Cami irsinə bələd olub, onun fəlsəfi görüşlərini qiymətləndirib, fəlsəfi məktublarında Şeyx Mahmud Şəbüstəri, Şəms Təbrizi, Cəlaləddin Rumi və Əbdürrəhman Cami fəlsəfəsini Qərb panteizmi ilə müqayisə edib. M.F.Axundzadənin fikir qaynağında Cami, Ş.M.Şəbüstəri və Rumi fəlsəfəsi əsas olub. Caminin adı M.P.Vaqif, Q.Zakir, S.Ə.Şirvani və M.Ə.Sabirin əsərlərində də çəkilib. Sənətkarın "Yusif və Züleyxa", "Baharıstan" əsərləri Azərbaycan dilinə tərcümə olunub.

Həmid Araslı ədəbi əlaqələr məcrasında ilk növbədə milli-dini və siyasi-ideoloji mənsubiyyəti, habelə Nizami və ona yaxın qüdrətli şairləri: Homer, Firdovsi, Əlişir Nəvai, Dante, Füzuli, Şekspir və Puşkini əsas götürməklə araşdırmalar aparıb. Məs., tədqiqatçı üçün Əlişir Nəvai kimdir? Dövrünün nadir siması, özbək xalqının mədəni inkişafında görkəmli alim, fədakar dövlət xadimi, incəsənət hamisi. Şair ömrünün 50 ilini ədəbiyyata sərf edib, lirik şeirləri ilə məşhur olub, həyatı boyu qəzəl yazıb, dörd "Divan" yaradıb, onları "Xəzayinül-məani" - mənalar xəzinəsi adlandırıb. Sənətkarın əsas mövzusu məhəbbət olub. Böyük türk şairi Nizami, Dəhləvi, Sədi, Hafiz və Camini müəllimləri sayıb. Sənətkar dövlət və idarəçiliyə aid fikirlərini "Məxzənül-əsrar"ın təsvir-təhkiyə formasında olan "Heyrətül-əbrar"da verib. "Leyli və Məcnun"u heç bir əsərə bənzətməyib, zəmanəsini göstərib. "Xəmsə"sinin üçüncüsü "Fərhad və Şirin"də arzularını ifadə edib. Dördüncü poeması "Səbeyi-səyyad"ı Nizaminin "Yeddi gözəl"inin quruluşunda yazıb. Son əsəri "Səddi-İsgəndər" də "İsgəndərnamə"dən təsirdir. Həmid Araslı "Qüdrətli şair, ictimai xadim", "Nizami və özbək ədəbiyyatı", "Nəvai və Azərbaycan ədəbiyyatı" məqalələrini Əlişir Nəvaiyə, qarşılıqlı ədəbi əlaqələrə həsr edib.

Ədəbiyyatşünas-alim "Nizami və özbək ədəbiyyatı" məqaləsində türk-müsəlman xalqlarının ədəbi-mədəni əlaqələrini aydınlaşdırıb. O, Xaqani, Nizami, Rumi, Nəvai və Füzulini türk qövmlərinin tarixi birliyində nadirsənət abidələri hesab edib. Alim yazır ki, Nizaminin Şərq, Orta Asiya xalqlarına, xüsusən, özbək tarixi və mədəniyyətinə dərin bələdliyi olub. Fərabi, İbn Sina, Biruni, M.Kaşğari, Yusif Xas Hacibi öyrənib. Həmid Araslı bu baxımdan Orta Asiya tarixi, iqtisadi həyatı, məişəti, dili və adətlərini müşahidə üçün şairin bədii obrazlarını xatırladıb. Nizami Orta Asiyanın Qaraxan, Qədirxan, Gurxan, Mahmud kimi tarixi şəxsiyyətlərinin adlarını tez-tez işlədib.

Nizami əsərlərinin ən qədim əlyazmaları XIV əsrin sonlarına aiddir. Özbək xalqı XIV əsrdən etibarən Nizami əsərlərini fars və türk dillərində oxumağa başlayıb. İlk dəfə Qütb XIV əsrdə Nizaminin "Xosrov və Şirin" poemasını türkcəyə tərcümə edib (əlyazması Paris milli kitabxanasındadır), Polyak alimi Zayonçovski fotosurəti və transkripsiyası ilə birlikdə nəşr edib, sonra Qazan və Daşkənd nəşrləri gəlib.

Həmid Araslıya görə, Nizami mövzuları ilə Ə.Nəvaidən əvvəl Heydər Xarəzmi məşğul olub. Ondan sonra Ə.Nəvai, daha sonra dövlət xadimi, şair və tarixçi Zəhirəddin Məhəmməd Babur gəlib. O, "Baburnamə" və "Müxtəsər"də Nizaminin, onun əsərlərinin adlarını çəkib. Dahi şairin yaradıcılığı ilə sonra Xacə, Ahagi, Buxaralı Övhi məşğul olub. XV-XVI və XVII-XVIII əsrlərdə özbək təzkirlərində də Nizami adı hörmətlə çəkilib. XX əsrdə Şərəfəddinov, Sədrəddin Eyni, Qafur Qulam, Aybək, Hadi Zərifov, Məqsud Şeyxzadə, A.Xaytmetov, Mollayev, Vahid Abdullayev, Sadircan Erkinov özbək Nizamişünaslığında mühüm rol oynayıblar.

Ədəbi araşdırıcı "Qüdrətli şair, ictimai xadim" məqaləsində Əlişir Nəvaini Homer, Əbülqasim Firdovsi, NizamiGəncəvi, Aligyeri Dante, Məhəmməd Füzuli, Uilyam Şekspir, Aleksandr Sergeyeviç Puşkin kimi dahilərin sırasında görüb, müasiri Bəsiri, Kişvəri, Füzuli və Qövsinin ondan öyrəndiyini, Sam Mirzə və Sadiq bəy Əfşarın onun "Məcalüsünnəfais" əsərindən istifadə etdiyini yazıb. Alim "Nəvai və Azərbaycan ədəbiyyatı" məqaləsində göstərib ki, Nizamidən başqa, Həsənoğlu, İmadəddin Nəsimi və Şah Qasım Ənvar poeziyasını dərindən öyrənib, Ə.X.Dəhləvi, Ə.Cami, Məktəbi və Füzulidən də poetik təsirlənib, Nizami mövzularında dəyərli "Xəmsə" yaradıb.

XVI-XIX əsrlərdə Azərbaycanda yazılmış təzkirə və cünglərdə Əlişir Nəvaidən geniş bəhs edilib, əsərlərindən nümunələr verilib. XIX əsrdə Azərbaycandakı ədəbi cəmiyyətlərdə Nəvai qəzəllərinə də Füzuli qəzəlləri kimi nəzirələr yazılıb.

Həmid Araslının Yaxın və Orta Şərq xalqları ədəbiyyatından məşğul olduğu üçüncü görkəmli sənətkar *Əmir Xosrov Dəhləvidir.* Nə üçün məhz Dəhləvi? Alim yazır ki, Azərbaycan və Hindistan xalqlarının əlaqələr tarixi qədimdir. "Azərbaycan xalqının qabaqcıl nümayəndələri mədəniyyəti ilə yaxından tanış olduğu kimi, Hindistan xalqlarının görkəmli simaları da Azərbaycanla və onun zəngin mədəniyyəti ilə həmişə maraqlanmışlar. Bu xalqların mədəniyyəti, xüsusən ədəbiyyatları bir-birinə qüvvətli təsir göstərmişdir". Həmid Araslı belə əlaqələrin zəminini ilk növbədə iqtisadi sahədə görüb. "Hələ X əsrdən başlayaraq XVIII əsrə qədər, yəni Hindistanın ingilislər tərəfindən işğalına qədərki əsrlərdə Azərbaycanda bir çox hind tacirləri olduğu kimi, Azərbaycan tacirləri də tez-tez Hindistana getmiş, ticarət əlaqələri ilə birlikdə Azərbaycan və Hindistan xalqları arasında mədəni əlaqələr də gündən-günə genişlənmişdir". Belə iqtisadi-mədəni əlaqələr Qətran Təbrizinin əsərlərində ifadəsini tapıb.

Nizami Gəncəvi Hindistan haqqında daha ətraflı məlumat verib. O, "Yeddi gözəl"də Hindistanı mədəni ölkələrdən biri kimi xatırladıb və hind şahzadəsinin nağılını verib. "Xosrov və Şirin"də "Pançatantradan" ("Kəlilə və Dimnə"dən) istifadə edib. Şair "İsgəndərnamə" qəhrəmanını Hindistana da aparıb, oranın təbiəti, filosofları və təbiblərindən danışıb. Hind fəlsəfəsi ilə yunan fəlsəfəsini qarşılaşdırıb, üstünlüyü hind fəlsəfəsinə verib. Nizami "Xəmsə"si əsasında ilk kitab Hindistandan çıxıb. Əmir Xosrov Dəhləvi "Xəmsə"sində hər poemanı Nizaminin adı ilə başlayıb, adı ilə bitirib. O, Əfzələddin Xaqani Şirvani və Mücirəddin Beyləqanini də yüksək qiymətləndirib. Dəhləvinin əsərləri Füzulinin də diqqətini cəlb edib. "Ənisül-qəlb"də onu xatırlayıb.

Azərbaycan-Hindistan əlaqələri XVI əsrin sonu, XVII əsrin əvvəlində, Əkbər Şahın vaxtında daha çox güclənib. Bir çox Azərbaycan şairi, ədib və alimləri Hindistana gedib, qiymətli əsərlərini orada yaradıblar. Məsihi, Saib Təbrizi, İbrahim Ordubadi uzun illər Hindistanda yaşayıb, bir çox əsərlərini burada yazıblar.

Cahanşah dövründə Məmməd Saleh Təbrizi, Şərəfəddin Təbrizi Hindistana gedib, Benqalda yaşayıblar. Kəmaləddin Mir Hüseyn də yaradıcılığını Hindistanda davam etdirib. Mirzə Sadıq Ordubadi Dəgən şəhərində yaşayıb, Nizayi şahın sarayında olub. Mahmud bəy Füsuni, Qasım xan Təbrizi, Kəlbəli Təbrizi, Lütfi Təbrizi, Məbdi, Əbdüləli Məhvi, Hacı Müzəffər Təbrizi, Məmməd Hüseyn Məlum Kəşmirə gedib, orada yaradıcılığını davam etdirib, - H.Araslı belə məlumat verib.

Mirzə Məhəmməd Münşi Təbrizi hind dilində yazıb-yaradıb. Haci Ordubadi də Hindistanda yaşayıb. XVI-XVIII əsrlərdə Hindistan təzkirlərində Azərbaycan yazıçıları, habelə, Nizami, Xaqani, Nəsimi, Füzuli, Saib Təbrizidən bəhs edilib.

XVIII əsrdə Nadir şah dövründə Mirzə Abutalıb xan Təbrizi, Arif təxəllüslü Abdulla Təbrizi Benarisdə yaşayıb. XIX əsrdə Firuqi Təbrizi də Hindistanda olub. XVIII əsrdə hind abidəsi "Pançatandra" Azərbaycan dilinə tərcümə edilib və s.

XVIII əsrin sonu, XIX əsrin əvvəllərində Zeynəlabidin Şirvani üç əsərində Hindistan şəhərini, məişətini təsvir edib. O, hind xalqının tarixini, fəlsəfəsini, adət-ənənəsini, əfsanə və rəvayətlərini ətraflı qələmə alıb. M.F.Axundzadə də ölkənin tarix və fəlsəfəsinə bələd olub, Hindistan alimləri ilə məktublaşıb. Səməd Vurğun hindlilərin taleyindən bəhs edib, "Buruqlar səltənəti" poemasında Rabindranat Taqordan parçalar verib. Həmid Araslı *"Azərbaycan və Hindistan xalqları arasında mədəni əlaqələrin tarixindən"* məqaləsini Hindistanın respublika elan edilməsi münasibətiləqələmə alıb.

Həmid Araslının türk-islam dünyasından araşdırma obyekti etdiyi daha bir ədəbi şəxsiyyət *Tofiq Fikrətdir.* Alim Tofiq Fikrət poeziyasının humanizmini, fərdi üslubunu və elmi-tənqidi nəşrini nəzərdə tutaraq şairin 100 illiyi münasibətilə "Tofiq Fikrət və Azərbaycan ədəbiyyatı" məqaləsini qələmə alıb. Tədqiqatçı yazır: "Fikrətin təsiri, Türkiyənin xaricində onun yaradıcılığına verilən dəyər hələlik ətraflı tədqiqatdan kənarda qalmaqdadır". "Bu böyük insanpərvər şairin zəngin və mənalı yaradıcılığı yalnız türk xalqı üçün deyil, bütün bəşəriyyət üçün dəyərli olduğundan bir çox ölkələrdə, o sıradan sovet ittifaqında, xüsusilə Azərbaycanda bu doğum günü məhəbbətlə qeyd ediləcəkdir".

Azərbaycan ziyalılarının çox oxuduqları türk sənətkarları Namiq Kamal, Ziya Paşa, Rəcaizadə Əkrəm, Əbdülhəq Hamid, Rza Tofiq, xüsusilə, Məhmət Əmin və Tofiq Fikrət olub. Azərbaycanda Rəşad Nuri, Xalidə Ədib, Nazim Hikmət, Əziz Nesin, Yaşar Kamalı tanımayan yoxdur.

Tofiq Fikrətin Azərbaycan mətbuatında şeirləri ilk dəfə 1906-cı ildə "Füyuzat" jurnalının ikinci nömrəsində nəşr edilib. Əli bəy Hüseynzadə şairin poeziyasına böyük qiymət verib. Sənətkarın adı 1912-ci ildən dərs kitablarına salınıb, orta məktəbdə tədris edilib. Şeirləri Abdulla Şaiqin "Gülzar", Fərhad Ağazadənin "Ədəbiyyat məcmuəsi" ndə verilib. H.Cavid, M.Hadi, A.Səhhət, A.Şaiq, C.Cabbarlı, M.Müşfiq, S.Vurğun Tofiq Fikrət poeziyasının zəngin ənənələrindən faydalanıb.

Tofiq Fikrət yalnız Türkiyədə deyil, Yaxın Şərq ədəbiyyatında mühüm rol oynayıb, poetikasının təsiri özbək, türkmən, tatar, başqırd, habelə, XX əsr fars ədəbiyyatı, Mirzadə Eşqi, İrəc Mirzə və Arif Qəzvini yaradıcılığında özünü hiss etdirib,-alimin qənaəti belədir.

Həmid Araslı türk-müsəlman birliyi, qarşılıqlı əlaqə məsələsində Mirzə Ələkbər Sabirin də əhəmiyyətli rolunu görüb, şairin 100 illiyi münasibətilə "Sabir və Şərq ədəbiyyatı" məqaləsini yazıb. Göstərib ki, görkəmli lirik və satirik sənətkar Azərbaycan klassikləri ilə bərabər, Firdovsi, Xəyyam, Sədi, Hafiz və Caminin əsərlərini dərindən bilib, onlardan tərcümələr edib.

Tədqiqatçı-alim M.Ə.Sabiri Azərbaycan, İran, Özbəkistan, Türkmənistan və Tatarıstanda yeni satirik şeirin nümayəndəsi, M.Möcüz, Ə.Nəzmi və Ə.Qəmküsarı isə M.Ə.Sabir ədəbi məktəbinin davamçıları kimi qiymətləndirib.

M.Ə.Sabir Namiq Kamal, Mahmud Əkrəm, Tofiq Fikrət poeziyasını öyrənib, İran məşrutə hərəkatı, 1905-ci il Türkiyə inqilabı, Buxara, Tatarıstan və Qazaxıstandakı hadisələrə münasibətini ifadə edib. Lahuti M.Ə.Sabirin təsiri ilə yeni məzmunlu şeirlər yazıb, Əşrəf Gilani satirik sənətkarın şeirlərini fars dilinə tərcümə edib, ona nəzirələr yazıb.

Həmid Araslı bildirib ki, "Hophopnamə" Özbəkistanda oxunub, "Muştum" satirik jurnalı Sabir şeirindən qidalanıb, onlara nəzirələr yazılıb. Türkmənistandakı "Toxmaq" məcmuəsi ətrafında satirik şairlər toplanıb. Türkiyədə M.Ə.Sabir şeirinə nəzirə yazılışı 1909-cu ildən başlanıb, "Qaragöz" adlı satira jurnalı M.Ə.Sabir üslubuna həssas olub. Alim hesab edib ki, "türk mətbuatı geniş tədqiq olunsa, Sabir yaradıcılığının Türkiyə ədəbiyyatı üzərində təsiri aydınlaşdırıla bilər".

Görkəmli füzulişünas Həmid Araslı Füzuli irsi ilə daha dərindən məşğul olub, "Böyük Azərbaycan şairi Füzuli" adlı qiymətli monoqrafiyasını yazıb, Füzuli irsinin öyrənilməsi tarixini, füzulişünaslıq haqqında tədqiqatları, habelə Füzuli və dünya ədəbiyyatını izləyib.

Alimin "Füzuli ərəb tədqiqatında" məqaləsi ərəb alimi Hüseyn Mucibin "Qədim türk şeirinin əmiri Bağdadlı Füzuli" kitabı (1967) haqqındadır. Əsər 2 hissədir. I hissə Füzulinin tədqiqi tarixi, dövrü, türk, fars, ərəb ədəbiyyatı ilə bağları, ədəbi mühit, əqidəsi, məzhəbi, sufizmi, dili, şəxsiyyəti və müasirləri ilə bağlıdır. II hissədə şairin ədəbi irsi araşdırılıb, türkdilli "Divan"ından, qəsidə, qəzəl və rübailərindən, "Bəngü-Badə", "Leyli və Məcnun", "Hədisi-ərbəin" əsərlərindən, farsca tərkübbənd, saqinamə və qəsidələrindən, "Divan", "Ənisül-qəlb" və müəmmalarından məlumat verilib.

Araşdırmada "Şikayətnamə", məktublar,"Leyli və Məcnun", "Hədiqətüssüədə" və "Divan"ına yazılmış müqəddimədən bəhs olunub. Farsca nəsr əsərləri kimi "Divan"ının müqəddiməsi, müəmmalarının müqəddiməsi, "Səhhət və Mərəz", "Rindü-Zahid" əsərləri göstərilib.

Həmid Araslı əsərin təsvir və təhlilini verib, çatışan və çatışmayan cəhətlərini göstərib. Ərəb aliminin türk alimlərindən, onların Füzuli haqqında tədqiqatlarından geniş bəhrələndiyini bildirib. Alim iradlarını da göstərib: "Füzulinin yaradıcılığı haqqında aparılan zəngin tədqiqatın, nəşr edilmiş cildliyin və farsca şeirlərin ərəb aləminə məlum olmaması bu qiymətli kitabın ciddi nöqsanıdır". Həmid Araslıya görə, Hüseyn Mucib Füzulinin ərəbdilli şeirlərinin ərəb ədəbiyyatında tutduğu mövqeyidə lazımınca qiymətləndirə bilməyib, ərəbcə şeirlərinin aşağı səviyyədə olduğunusöyləyib. Həmid Araslı: "Füzulinin mövcud ərəbcə şeirlərini klassik ərəb şeiri ilə deyil, onunla müasir olan iraqlı ərəb şairlərinin əsərləri ilə müqayisədə düzgün fikir söyləmək olar", - qənaətini ifadə edib.

Tədqiqatçı əsərin uğurlu cəhətlərini göstərib. Fars klassiklərindən Sədi, Hafiz, Rudəki və Firdovsi haqqında araşdırmaları, Y.E.Bertelsin "Fars ədəbiyyatı tarixi" əsərini oxuduğunu, özbək ədəbiyyatını türk mənbələri əsasında öyrəndiyini bildirib. Həmid Araslı Hüseyn Mucibin "Qədim türk şeirinin əmiri Bağdadlı Füzuli" tədqiqatını Füzulişünaslığa faydalı xidmət hesab edib.

Alimin Füzuli haqqında bir məqaləsi də türk alimi Hasibə Mazıoğlunun "Füzuli-Hafiz" (1956) adlı doktorluq dissertasiyası ilə bağlıdır. Əsər giriş və 3 fəsildən ibarətdir. Girişdə Hafiz və Füzuliyə qədərki İran və türk ədəbiyyatındakı qəzəl janrının inkişafından bəhs edilib. I fəsil Füzuli "Divan"ının təhlilinə, şairin bədii dili, vəzn, qafiyə xüsusiyyətlərinə, II fəsil Hafiz "Divan"ının təhlilinə, fəlsəfə və əxlaqi görüşlərinə, dil, vəzn və qafiyə xüsusiyyətlərinə, III fəsil Füzuli və Hafiz "Divan"larının müqayisəsinə, şairlərin həyati və dövrlərinə, dini etiqad və fəlsəfi görüşlərinə, məhəbbətə münasibətlərinə, Füzuli və Hafiz şeirlərinin bədii cəhətdən müqayisəli analizlərinə həsr edilib.

Kitabda Həsənoğludan Füzuliyə qədərki Azərbaycan ədəbiyyatına nəzər salınıb, Azərbaycan ədəbiyyatının müstəqilliyi, Şərq və Qərb türkcəsindən fərqliliyi, Türkiyə təzkirəçilərinin Füzulinin dil və üslubuna orijinal baxışı düzgün izah olunub,- H.Araslı bu qənaətdədir. Alim şərh və izahlarında obyektivliyə çalışıb, analizlər aparıb, əsasən təqdir etdiyi əsərdə qüsurları da qeyd edib, bildirib ki, "lakin müəllif elmi prinsipə əsaslanmadan Azərbaycan və türk "Divan" müəlliflərinin yaradıcılığını klassik İran ədəbiyyatının təsirində göstərməyə çalışmışdır". Halbuki bu, İran və Azərbaycan ədəbiyyatının qarşılıqlı təsirinin nəticəsi olmalı idi. Aydınlaşdırıb ki, fars dili Yaxın Şərq ədəbiyyatı üçün məcburi olduğu üçün fars ədəbiyyatının türk xalqlarına təsiri də təbii, türk xalqlarının da fars ədəbiyyatına təsiri labüd idi. Bu mənada Füzulini İran ədəbiyyatının təsiri ilə izah etmək düzgün olmazdı. Alimə görə, Hasibə Mazıoğlu Füzulini təsəvvüfdən ayrı, Füzuli məhəbbətini real, insani həyatla bağlı izah edib, onun təsəvvüf və ilahi eşqdən uzaq olduğunu bildirib. Lakin uğurludur ki, alim Füzuli dilini Azərbaycan ədəbi dilinin inkişafında bir mərhələ hesab edib.

Həmid Araslı Hasibə Mazıoğlunun elmi mülahizələrinin yanlışlarını da göstərib. Bildirib ki, tədqiqat elmi-tənqidi mətnlər əsasında aparılmayıb. Alim hesab edib ki, Əli Nəhad Tərlanın çap etdiyi "Divan" Ə.Gölpınarlı nəşrindən (1948) daha düzgün, daha elmidir. Füzuli və Hafiz müqayisələrində yanlışlar vardır. Müəllif Füzuli şeirinin mövzu etibarilə Hafiz şeirindən məhdud olduğunu iddia edib. Həmid Araslı isə fərqi göstərib: Hafiz bir "Divan" müəllifi, Füzuli isə "Divan"lar müəllifi kimi tanınıb. Füzuli Şərq ədəbi mühitində seçilib, bədii irsi lirik, epik və fəlsəfi mövzularda olub, mövzu-məzmun baxımından zənginlik ifadə edib. Qənaəti bu olub ki, Füzuli yaradıcılığını "Divan" çərçivəsində başa düşmək düzgün olmaz. Hasibə Mazıoğlu Füzuli haqqında sovet dövrü ədəbiyyatşünaslığındakı tədqiqatlardan istifadə etməyib, Füzuli əsərinin yalnız 1944-cü il Bakı nəşrini göstərib, bir sıra elmi məlumatı təkrar edib, bununla belə, müəllifin əsəri Füzuli yaradıcılığının tanınmasında faydalı addım olub, - deyə füzulişünas-alim qeyd edib.

Görkəmli ədəbiyyatşünasın "Ədəbiyyat tariximiz haqqında yeni əsər" məqaləsi "Varlıq" jurnalının naşiri və baş redaktoru doktor Cavad Heyətin jurnalında çap etdirdiyi məqalələr, 1979-cu ildə Tehranda ana dilində "Azərbaycan ədəbiyyatı tarixinə bir baxış" adı ilə nəşr etdirdiyi kitab münasibətilə yazılıb. Müqəddimə doktor Həmid Nitqinindir.

Cavad Heyət ərəbdilli, farsdilli şairlər haqqında məlumat verib, "Azərbaycan türkcəsinin tarixinə qısa bir baxış" - giriş yazıb, birinci baxışda Həsənoğlu, "Qisseyi-Yusif" müəllifi Əli, Qazi Bürhanəddin, Nəsimi, Şah Qasım Ənvar, Şeyx Əlvan Şirazi, Nəsimi, Həqiqi, Həbibi və Xətaidən, ikinci baxışda Füzulidən (qüsurları: Bakıda nəşr olunmuş dörd cildliklə və monoqrafiya ilə tanış olmayıb, ən qədim "Divan"ı, "Mətləül-etiqad"ın Bakı nəşrini görməyib, "Rindü-Zahid", "Söhbətül-əsmar"ın adını çəkməyib), üçüncü baxışda "Töhfeyi-Sami", "Məcməül-xəvas", "Əhdi Bağdadi" təzkirələri və oradakı Azərbaycan şairlərindən, (Saib Təbrizi və Qövsi Təbrizi) geniş danışıb, Qövsinin 1958-ci il Bakı nəşrindən, "Seçilmiş əsərləri"ndən və müqəddiməsindən xəbərsiz olub.

Dördüncü baxışda Molla Pənah Vaqif, beşinci baxışda Molla Vəli Vidadi və Şirvan şairləri, Aciz, Əbdürrəhman Dilbazoğlu, Arif və Salikdən, altıncı baxışda Dəxil, Raci, Dilsuz, Qumri və Sərraf şeirindən, yeddinci baxışda Ləli, Heyran xanım, Xalxalı, Mirzə Mehdi Şükuhidən, səkkizinci baxışda Abbasqulu ağa Bakıxanov, İsmayıl bəy Qutqaşınlı, Mirzə Şəfi Vazeh və Qasım bəy Zakirdən, doqquzuncu baxışda XIX əsrin ikinci yarısındakı ədəbiyyatdan, Mirzə Fətəli Axundzadədən, Seyid Əzim Şirvani, Xurşidbanu Natəvan və ədəbi məclislərdən, onuncu baxışda Azərbaycan mətbuatı, "Əkinçi" qəzeti və dramaturgiyanın inkişafından bəhs edib. Həmid Araslı kitabı həm də bəzi simaların yeni təqdimatına görə qiymətləndirib. Əsər farsca yazılıb. Kitabda Şeyx Mahmud Şəbüstəri, Arif Ərdəbili, Marağalı Əvhədi, Əssar Təbrizi, Mirzə Əbdürrəhim Talıbov, Zeynalabdin Marağayidən danışılmayıb, lakin Həmid Araslı əsəri ədəbi həyatımızın fərəhli hadisəsi hesab edib.

Görkəmli ədəbiyyatşünas-alim, Əməkdar elm xadimi, akademik Həmid Araslı türk-müsəlman ədəbiyyatına aid mülahizə, rəy və məktubların da müəllifidir. Bu tarixi-ədəbi şəxsiyyət Azərbaycan ədəbiyyatı tarixi və problemləri məcrasında qiymətli tədqiqatların müəllifi olub, Azərbaycan ədəbiyyatı tarixi və tarixçiləri sırasında görkəmli yer tutur. 11 fevral 2019-cu il tarixli Prezident Sərəncamına əsasən AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun 25 fevral 2019-cu ildə keçirdiyi elmi sessiyasında akademik İsa Həbibbəyli, Əməkdar elm xadimi Qəzənfər Paşayev, professorlar Şirindil Alışanlı, Fəridə xanım Əzizova, Paşa Kərimov və Əlizadə Əsgərlinin məruzələri də bu elmi həqiqəti bir daha bəyan etdi. Ruhu şad olsun!

**Əlizadə ƏSGƏRLİ,**
**AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi işlər üzrə direktor müavini, filologiya elmləri doktoru, professor.**

# Gənclər ordu sıralarına coşqu ilə yollanır



...Səhər tezdən olsa da baharın ılıq nəfəsi duyulur, milli musiqimiz dalğa-dalğa ətrafa yayılır, insanlar dəstə-dəstə paytaxtın Bakıxanov küçəsinin ərazisində yerləşən Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Nəsimi rayon idarəsinə doğru axışır, gənclərin əsgəri xidmətə yolasalınması ilə bağlı keçirilən mərasim hamıda xoş ovqat yaradırdı. Hiss olunurdu ki, əllərində Azərbaycanın üçrəngli bayrağını dalğalandıran sabahın əsgərləri ordu sıralarına coşqu ilə yola düşür, hər birinin qəlbi Vətən, yurd eşqi ilə döyünür.

Gənclər idarənin foyesində səliqə ilə hazırlanmış plakat və şüarları diqqətlə nəzərdən keçirir, fərəhli bir gündə dostları, doğmaları ilə birgə xatirə şəkilləri çəkdirirdilər.

Ordu sıralarına yollanan Vətənə sipər oğullar **idarənin Çağırış Şöbəsinin rəisi, polkovnik-leytenant Vüsal Məmmədovun** əhatəsində idi. O, gənclərə dəyərli tövsiyələr verir, Azərbaycanın müstəqillik illərində ordu quruculuğu sahəsində qazandığı uğurlardan söhbət açır, qürur hissi ilə bildirirdi ki, bu gün Azərbaycan Silahlı Qüvvələri dünyanın ən qüdrətli 50 ordusu sırasındadır, hərbi gücümüzü artırırıq, döyüş qabiliyyətimiz yüksək səviyyədədir. Siz qüdrətli Azərbaycan Ordusunda xidmət edəcəksiniz, hər biriniz Vətənin ərazi bütövlüyünün qorunmasına maksimum səy göstərməlisiniz.

Gənclərin ordu sıralarına yolasalınma mərasimində **idarənin rəisi, polkovnik Eldəniz Əliyev** çıxış edərək dedi:

- Bu gün Vətənə sizin kimi cəsarətli, mətin, mübariz oğullar gərəkdir. Elə oğullar ki, Vətənimizin müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü qoruya bilsin. Ata-babalarımızın şanlı döyüş ənənələrinə sadiqlik nümunəsi nümayiş etdirə bilsin.

Dövlət müstəqilliyimizin, milli təhlükəsizliyimizin, xalqın əmin-amanlıq içərisində yaşamasının təminatçısı olan ordumuz son illərdə daha da möhkəmlənmiş, qüdrətlənmiş, mütəşəkkil hərbi qüvvəyə çevrilmişdir. Azərbaycan ordusu regionun ən güclü ordusudur və istənilən təcavüzün qarşısını almağa, hücum tapşırığını yerinə yetirməyə qadirdir. Bu gün Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevin Prezident kimi fəaliyyətində ordu quruculuğu məsələləri prioritetdir.

Son illər ərzində maddi-texniki bazanın möhkəmləndirilməsində böyük işlər görülmüşdür, çoxlu texnika, avadanlıq, müasir silahlar alınmışdır və beləliklə, Azərbaycan ordusu möhkəmlənmişdir. İndi bu proses davam etdirilir. Azərbaycan müharibə şəraitində yaşayır və belə olan halda ilk növbədə ordu quruculuğuna böyük diqqət göstərilir.

Bu gün Azərbaycan sözün əsl mənasında bölgədə ən yüksək mövqelərə malikdir. Əlbəttə, bunu şərtləndirən ən müxtəlif amillər var. O cümlədən iqtisadi potensial və ordunun güclü olması. Güclü ordu, güclü dövlət deməkdir.

Polkovnik Eldəniz Əliyev çıxışında ordu quruculuğu ilə bağlı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin belə bir fikrini xatırladı: **"İndi Azərbaycan ən sürətlə inkişaf edən ölkələr sırasındadır. Bu gün Azərbaycanda elə sahə yoxdur ki, orada güclü inkişaf getməsin. Bütün bu işlərin təməli məhz 1990-cı illərin ortalarında qoyulmuşdur. Bugünkü ordunun səviyyəsinin də əsas səbəbi 1990-cı illərin ortalarında orduda başlanmış islahatlar, ordunun hazırlıq səviyyəsinin qaldırılması, maddi-texniki bazasının möhkəmləndirilməsi, orduda peşəkar kadrların hazırlanması, təhsil məsələlərinə verilən böyük diqqətdir. Bütün bunların nəticəsində bu gün deyə bilərik ki, biz çox güclü orduya malikik və regionda bizim ordumuz qarşıda duran bütün vəzifələri həll etməyə qadirdir".**

Gənclərin həqiqi hərbi xidmətə yolasalınma mərasimində **Azər Xanbutayev** valideylər adından çıxış edərək vurğuladı ki, Nəsimi rayonunda gənclərin hərbi-vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi ilə bağlı məqsədyönlü iş aparılır. Gənc nəslin təlim-tərbiyəsi diqqət mərkəzindədir. Bir ata tək bu gün qürur hissi keçirirəm, fərəhim köksümə sığmır. Oğlum İslamı qüdrətli Azərbaycan ordusuna yola salıram. Hamınıza bir tövsiyəm var: Vətənə sidq ürəklə bağlanın, yurdumuzun ərazi bütövlüyünü ləyaqətlə qoruyun, hər an düşməndən intiqam almağa, torpaqlarımızı işğaldan azad etməyə hazır olun. Bayrağınıza, Himninizə, Gerbinizə, Andınıza sədaqətli qalın!

Gənclərin əsgəri xidmətə yolasalınması ilə bağlı keçirilən təntənəli, yaddaqalan tədbir sona yetir. Sabahın əsgərlərindən Rüfət Əlizadə, Hüseyn Əbülfəzoğlu, Eldar İsmayılov və başqaları mərasim iştirakçılarının xeyir-duası ilə bir yaz günündə ordu sıralarına yollanırlar.

**Qədir ASLAN,**
**"Respublika".**

*Nəsimi ili*

# Nəsimi adına məktəbin uğurları

**Möhkəm mənəvi bütövlük və kamillik nümunəsi olan Seyid İmadəddin Nəsiminin anadan olmasının 650 ili tamam olur.**

Mütəfəkkir şairin yubileyinin təntənə ilə qeyd edilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 11 yanvar 2019-cu il tarixdə imzaladığı Sərəncamda deyilir: "Azərbaycan xalqının çoxəsrlik bədii və fəlsəfi fikir tarixində dərin iz qoymuş mütəfəkkir şair İmadəddin Nəsiminin zəngin irsi bu gündə insanların mənəvi-əxlaqi kamilləşməsində mühüm əhəmiyyətə malikdir. Şərq xalqlarının mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yer tutan Nəsimi yaradıcılığı uzun illərdən bəri elmi-ədəbi fikrin diqqət mərkəzindədir. Şairin irsinin ölkəmizdə sistemli tədqiqi və təbliği ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Nəsiminin 600 illik yubileyinin keçirildiyi vaxta təsadüf edir. Böyük söz ustasının 600 illiyinin YUNESKO-nun görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin yubileyləri siyahısına daxil edildiyi və beynəlxalq miqyasda qeyd olunduğu həmin dövrdən etibarən Nəsimi ilə bağlı çoxlu sayda araşdırmalar aparılmışdır. Qüdrətli şairin yaradıcılığının üzə çıxarılan əlyazma nüsxələri arasında öyrənilməsi Azərbaycan dili və ədəbiyyatı tarixinin tədqiqində yeni mərhələ açmışdır. Nəsiminin əsərləri ölkəmizdə dəfələrlə işıq üzü görmüşdür. Şairin əsərləri Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamına əsasən, kütləvi tirajla nəşr olunaraq ölkə kitabxanalarına hədiyyə edilmişdir. Ötən illər ərzində Nəsiminin xatirəsinin əbədiləşdirilməsi istiqamətində silsilə tədbirlər həyata keçirilmiş və onun ədəbiyyatda, incəsənətdə parlaq obrazı yaradılmış, eləcə də 1979-cu ildə ölkəmizin paytaxtında heykəli ucaldılmışdır.

2017-ci ilin may ayında Parisdə YUNESKO-nun baş qərargahında Nəsiminin vəfatının 600 illiyi qeyd edilmiş, 2018-ci ilin sentyabr ayında ölkəmizdə ilk dəfə Nəsimi şeir, incəsənət və mənəviyyat festivalı keçirilmişdir.

2019-cu ildə Nəsiminin anadan olmasının 650 ili tamam olur. Azərbaycan ədəbi-mədəni fikir tarixinin bu əlamətdar hadisəsinin dövlət səviyyəsində layiqincə qeyd edilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında" 2018-ci il 15 noyabr tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinə müvafiq tədbirlər planının hazırlanıb həyata keçirilməsi tapşırılmışdır.

Nəsimi irsinin müasir humanitar düşüncənin tələbləri kontekstində aktuallığını, milli-mənəvi dəyərlərin təbliği baxımından xüsusi əhəmiyyətini nəzərə alaraq və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

2019-cu il Azərbaycan Respublikasında "Nəsimi ili" elan edilsin.

Böyük şairin adını daşıyan təhsil, mədəniyyət ocaqlarının sayı ölkəmizdə yetərincədir. Təbii ki, onların hər biri xalqımızın ədəbi-bədii fikir tarixində qəhrəmanlıq, əqidə, mətinlik simvoluna çevrilmiş İmadəddin Nəsiminin adına layiq işləməyə, fəaliyyət göstərməyə çalışır, daha böyük uğurlara imza atmağa səy göstərirlər.

Ölkəmizin şimal-qərb bölgəsində yerləşən Balakən rayonunda 1972-ci ildən fəaliyyət göstərən 2 saylı tam orta məktəb də böyük Azərbaycan şairi Seyid İmadəddin Nəsiminin adını daşıyır.



600 nəfərdən çox şagirdin təhsil aldığı bu qabaqcıl müəssisəyə təcrübəli pedaqoq, Bakı Dövlət Universitetinin məzunu, Yeni Azərbaycan Partiyasının fəallarından olan Samirə xanım Varansova rəhbərlik edir.

Bu günlərdə rayonda olarkən qabaqcıl təhsil ocağında görülən işlərlə daha yaxından tanış olduq.

Məktəbin direktoru bizi görülümüş işlərlə tanış edərək bildirdi ki, "Nəsimi ili" ilə əlaqədar olaraq məktəbimizdə konkret işlər görülməsi üçün geniş tədbirlər planı hazırlanmışdır. Tədbirlər planına uyğun olaraq məktəbin pedaqoji kollektivinin yığıncağı keçirilmiş, qarşıda görüləcək işlər müzakirə olunmuş, kollektiv üzvlərinə müvafiq tapşırıq və tövsiyələr verilmişdir.

Məktəbin foyesində guşə yaradılmışdır. Şagirdlərin rəsmlərinin, inşa yazılarının guşədə toplanılması təmin edilmişdir.

"Nəsimi ili" ərzində məktəb kollektivinin fəaliyyətinin yüksəldilməsi diqqət mərkəzində saxlanılmışdır. Məktəbdə mütaliə həftəsi ilə bağlı şagirdlərin yazı və oxu bacarıqlarının öyrənilməsinə obyektiv yanaşılmışdır. Keçirilən monitorinqin nəticələri məktəb kollektivinin yığıncağında geniş şəkildə müzakirə olunmuşdur. Müəllimlərin nəzərinə çatdırılmışdır. Sinifdənxaric və məktəbdənkənar tədbirlərin yüksək səviyyədə təşkili və bu tədbirlərin şagirdlərin təlim-tərbiyəsinə müsbət təsir etməsi üçün qarşıda görüləcək işlərə aydınlıq gətirilmişdir.

Məktəbdə "Nəsimi ili" ərzində təlim-tərbiyənin yüksəldilməsi istiqamətində aparılan işlərdə dərnəklərin, maraq kurslarının sinifdənxaric məktəbdənkənar tədbirlərin imkanlarından bacarıqla istifadə olunması bir vəzifə olaraq qarşıya qoyulmuşdur.

Məhz görülmüş işlərin, həyata keçirilmiş tədbirlərin nəticəsidir ki, indiyənədək məktəbdə "Nəsimi ili" ilə əlaqədar olaraq 20-dən çox bir-birindən rəngarəng və maraqlı tədbirlər həyata keçirmişdir. Ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü, İ.Nəsiminin həyat və yaradıcılığına həsr olunmuş "Nəsimini tanıyaq, tanıdaq" mövzusunda "dəyirmi masa", Beynəlxalq Ana dili Gününə həsr olunmuş "Ana dilim şirindir" X və XI sinif şagirdləri arasında Azərbaycan dili fənni üzrə keçirilən bilik yarışı, ədəbiyyat gecəsi İmadəddin Nəsiminin "Məndə sığar iki cahan" qəzəlinin müzakirəsi, İ.Nəsiminin həyat və yaradıcılığına həsr olunmuş ədəbi-bədii gecə məktəb şagirdlərinin böyük diqqət və marağına səbəb olmuş, keçirilən tədbirlərdə şagirdlərimiz yüksək fəallıq nümayiş etdirmişdilər. V-XI sinif şagirdləri arasında keçirilən bilik yarışmalarında, fənn gecələrində 300 nəfərdən çox şagird iştirak etmişdir.

Ədəbiyyat, riyaziyyat, biologiya, coğrafiya fənləri üzrə keçirilən fənn gecələri daha maraqlı və yaddaqalan olmuşdur. Fənn gecələrində hazırlanmış fotostendlər hazırda məktəbin foyesinin bəzəyinə çevrilmişdi. Yubiley ili ərzində idmançılarımızın da uğurları sevindirici olmuşdur. Azyaşlılar arasında keçirilən rayon və respublika birinciliyində 10 nəfərdən çox şagirdimiz şahmatda layiqli yer tutmuş, medallarla təltif olunmuşdur. 13 yaşlı qızlar arasında futzal yarışında isə qızlarımız bürünc medala layiq görülmüşdür. Ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə rayon Təhsil Şöbəsinin keçirdiyi "Ən yaxşı təqdimat" müsabiqəsində rayonun məktəbləri arasında məktəbimizin şagirdi Səfərli Bəhram Sərvan oğlu birinci yerə layiq görülmüşdür. Rayon təhsil şöbəsinin keçirdiyi məktəblərarası inşa müsabiqəsində "Qəhrəmanlar unudulmur" adlı inşası ilə məktəbimizin V sinif şagirdi İbrahimova Azadə Azad qızı 1-ci yerə layiq görülmüşdür. Keçirilən tədbirlərdə valideynlərimizin iştirakı da diqqət mərkəzində saxlanılmışdır.



Məktəbdə valideyn və sinif iclaslarının yüksək səviyyədə keçirilməsi təşkil olunur. Sinif rəhbərləri zəif oxuyan, dərs buraxan şagirdlərlə fərdi söhbətlər aparır, onlarla əlavə məşğələ saatlarının keçirilməsinə xüsusi diqqət yetirirlər. Sinif təşkilat saatları vaxtlı-vaxtında keçirilir. Dərs ilinin əvvəlindən başlayaraq bütün fənlər üzrə açıq dərslərin keçirilməsi təşkil olunmuşdur. Tədris ili ərzində indiyənədək 30-dan çox açıq dərs keçirilmişdir. Keçirilən açıq dərslərdə rayon təhsil şöbəsinin işçiləri, valideynlər, qonşu məktəblərin müəllimləri iştirak etmişdilər. Açıq dərslər obyektiv olaraq təhlil olunmuş, fənn müəllimlərinə müvafiq tövsiyələr verilmişdir. Məktəbin direktoru daha sonra qeyd etdi ki, orta əsrlər Azərbaycan poeziyasında insanı Nəsimi qədər uca və möhtəşəm səviyyədə, qüdrətli təqdim edən sənətkar göstərmək çətindir.

Kollektivimiz hazırda "Nəsimi ili"ni yüksək nailiyyətlərlə yekunlaşdırmaq əzmindədir. Tədris ilinin yekun nəticələri əvvəlki illərlə müqayisədə ürəkaçandır. Belə ki, məktəbdə təhsil alan şagirdlərin 20 faizə qədəri əlaçıdır. 2017-2018-ci tədris ili ilə müqayisədə 2018/2019-cu tədris ilində keyfiyyət 7 faiz yüksəlmişdir. Ötən tədris ilində açıq qapı günlərində il ərzində 103 nəfər valideyn dərslərdə, məktəb tədbirlərində iştirak etmişdirsə, bu rəqəm 2018-2019-cu tədris ilində 186 nəfər təşkil edir. Məktəb kitabxanasına, eləcə də şəhər kitabxanasına üzv olan şagirdlərin sayı da əvvəlki tədris ildəkinə nisbətən 12 faiz artmışdır. 50 ölkə 2000 müəllim və minlərlə şagirdin iştirak etdiyi "İnnovate Your Vreams" adlı beynəlxalq layihədə məktəbimizin Biologiya müəllimi Nübar Qurbanova və 20 şagirdimiz uğurla iştirak edərək Beynəlxalq Sertifikata layiq görülmüşdür. Qarşıda görüləcək işlər çoxdur. "Nəsimi ili" ilə əlaqədar olaraq nəzərdə tutulmuş bütün tədbirlər müvəffəqiyyətli həllini tapacaqdır.

**Söhbəti qələmə aldı:**
**İlham PƏNAHOV,**
**"Respublika".**

# Hüquq sisteminin davamlı inkişafı təmin olunacaqdır

**Müstəqil Azərbaycanın qısa müddətdə demokratikləşmə sahəsində böyük nailiyyətlər qazanması bilavasitə vətəndaş cəmiyyəti quruculuğuna hesablanmış məhkəmə-hüquq islahatlarının ölkənin sosial-iqtisadi inkişaf ahəngi və demokratik şüur səviyyəsi ilə uzlaşdırılması nəticəsində mümkün olmuşdur. Tarixi təcrübə göstərir ki, hər bir islahatın uğurlu nəticəsi, ilk növbədə onun aktuallığından, əhatə dairəsindən, ən əsası vətəndaşların hüquq və azadlıqlarını özündə tam ehtiva etdirməsindən asılıdır.**

İctimai münasibətlər sisteminin qanuna müvafiq qaydada tənzimlənməsində, insan və vətəndaş hüquq və azadlıqlarının təminatında mühüm rol oynayan məhkəmə hakimiyyətində kompleks islahatların həyata keçirilməsi ulu öndər Heydər Əliyevin daim xüsusi diqqət mərkəzində olmuşdur. 1995-ci il noyabrın 12-də qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası dövlətimizin tarixində hakimiyyət bölgüsü prinsipi ilə, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunun hüquqi əsaslarını, insan hüquq və azadlıqlarının qeyd-şərtsiz təmin olunmasının möhkəm təməlini qoymuşdur. Belə ki, hakimiyyətin üç müstəqil qolundan biri olan məhkəmələr dünyanın mütərəqqi təcrübəsinə əsaslanan modeldə formalaşdırılmışdır. Bu modelə əsasən, ölkəmizdə birinci instansiya, apelyasiya və kasasiya instansiyalı üçpilləli məhkəmə sistemi fəaliyyət göstərir. Üçpilləli məhkəmə sistemi ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına xidmət etməklə, işlərə birinci instansiya qaydasında baxılmasına, bundan sonra onların hüquqa və fakta görə apelyasiya qaydasında yoxlanılmasına, daha sonra isə məhkəmə qərarlarına kasasiya qaydasında yenidən baxılmasına imkan yaradır. Bu sistem birinci instansiya məhkəməsinin buraxdığı hər hansı səhvin yuxarı məhkəmə instansiyalarında aradan qaldırılmasına, işlərin mahiyyətcə düzgün və obyektiv həllinə şərait yaratmış olur. Qanunvericilik işlərə yenidən baxılmasının xüsusi hallarını da müəyyən edir. Bu işlərə əlavə kasasiya və əlavə açılmış hallar üzrə yenidən baxmaq mümkündür.

Ümummilli lider sonrakı mərhələdə də həyatımızın bütün sahələrində çoxşaxəli islahatların həyata keçirilməsini təmin etmişdir. Hüquqa və ədalətə söykənən mülki cəmiyyətin formalaşdırılması üçün ilk növbədə, milli qanunvericiliyin Avropa standartlarına uyğunlaşdırılması prosesi davam etdirilmiş, ardıcıl surətdə həyata keçirilən köklü iqtisadi, sosial və hüquqi islahatların qayəsində insana qayğı, insan ləyaqətinə, şəxsiyyətinə hörmət prinsipi dayanmışdır.

Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan demokratik-hüquqi dövlət quruculuğu prosesi hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının bütün sahələrdə ardıcıl və sistemli olaraq həyata keçirdiyi islahatların uğurlu nəticələri göz önündədir. Bu islahatlar həm də ölkədə qanunçuluğun, insan hüquq və azadlıqlarının etibarlı təminatına xidmət edir. Bu gün Azərbaycan cəmiyyəti indiyə qədər görünməmiş sürətlə inkişaf edir. Belə şəraitdə insan faktoru, insan hüquq və azadlıqlarının müdafiəsi ən önəmli vəzifələrdən birinə çevrilir. Yalnız məhkəmə-hüquq islahatlarını ardıcıl və dönmədən həyata keçirməklə insan hüquq və azadlıqlarına təminat verən demokratik-hüquqi, vətəndaş cəmiyyəti qurmaq mümkündür. Hazırda Azərbaycanın yaşadığı yeni inkişaf mərhələsi insan hüquqlarının müdafiəsi və demokratik hüquqi dövlət quruculuğu sahəsində aparılan ardıcıl islahatların davam etdirilməsini şərtləndirir. Ölkəmizdə demokratik cəmiyyətlərə xas məhkəmə-hüquq sisteminin fəaliyyətinə, insan hüquqlarının etibarlı müdafiəsinə nail olmaq üçün Azərbaycan Respublikasının Prezidenti mühüm təşəbbüslərlə çıxış edir. Belə ki, hüquq sisteminin və ədalət mühakiməsinin səmərəliliyinin artırılması məqsədilə qanunvercilik və institusional islahatlar daha da dərinləşdirilir. Praktiki tədbirlərin dairəsi isə genişləndirilir. Ədalət mühakiməsinin inkişafında keyfiyyətcə yeni dəyişikliklər baş verir. Dövlət başçısının imzaladığı "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 03 aprel 2019-cu il tarixli Fərman da bunu təsdiqləyən faktdır. Sənəddə vurğulandığı kimi, ölkəmizin davamlı tərəqqisinin təmin olunması üçün bütün sahələrdə həyata keçirilən islahatlar məhkəmə-hüquq sisteminin inkişafında yeni mərhələnin başlanmasını və bu sahədə islahatların dərinləşdirilməsini zəruri edir. Qeyd olunan Fərman ədalət mühakiməsinin səmərəliliyinin, məhkəmə qərarlarının icra vəziyyətinin yaxşılaşdırılması, vətəndaşların məhkəmələrə inamının artırılması və onların narazılıqlarına səbəb olan sui-istifadə, süründürməçilik, korrupsiya hallarının və digər nöqsanların aradan qaldırılması, ədalət mühakiməsinin həyata keçirilməsində şəffaflığın təmin edilməsi, məhkəmələrə müraciət imkanlarının asanlaşdırılması, yeni informasiya texnologiyalarının tətbiq edilməsi, hakimlərin və məhkəmə aparatı işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, məhkəmə aparatlarının strukturunun və işinin daha optimal şəkildə qurulması, maddi-texniki təchizatının yüksəldilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Ədalət mühakiməsinin həyata keçirilməsinin prinsipləri qanunvericilikdə təsbit olunsa da, bəzi hallarda bu prinsiplərə riayət olunmaması vətəndaşların haqlı narazılıqlarına, məhkəmələrə olan inamlarının sarsılmasına səbəb olmuşdur. Bu səbəbdən də fərmanda məhkəmə hakimiyyətinin nüfuzunun artırılması və cəmiyyətdə məhkəmələrə etimadın möhkəmlənməsi üçün fəaliyyətlərində ədalət, qanunçuluq, qərəzsizlik, aşkarlıq, hər kəsin qanun və məhkəmə qarşısında bərabərliyi və Azərbaycan Respublikasının Konstitusiyası və qanunlarında təsbit edilmiş ədalət mühakiməsinin digər prinsiplərinə dönmədən riayət olunması tövsiyə edilir.

Fərmanda əksini tapmış cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması üzrə tədbirlərin davam etdirilməsi barədə tövsiyə və tapşırıq Azərbaycan Respublikası Prezidentinin humanist mövqeyinin daha bir bariz nümunəsidir. Məlum olduğu kimi, bundan əvvəl dövlət başçısının humanist siyasətinin təzahürü olan, mühüm əhəmiyyətə malik bir sənəd kimi ölkənin hüquq sisteminin müasir dövrün ən yüksək tələbləri səviyyəsində yenilənməsinə və təkmilləşməsinə təkan verən "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 10 fevral 2017-ci il tarixli Sərəncam imzalanmışdır. Həmin Sərəncamdan irəli gələn vəzifələrin vaxtında və tam şəkildə yerinə yetirilməsi, cəza siyasətinin liberallaşdırılması, cinayət təqibi ilə əlaqədar fəaliyyətin səmərəli təşkil edilməsi məqsədilə Azərbaycan Respublikası Ali Məhkəməsi, Ədliyyə Nazirliyi və Azərbaycan Respublikası Prokurorluğu əməkdaşlarından ibarət tərkibdə yaradılmış birgə işçi qrupu tərəfindən təkliflər hazırlanmış, həmin təkliflər əsasında tərtib edilmiş qanun layihəsi Azərbaycan Respublikasının Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında qanunvericilik orqanına təqdim edilmiş, həmin layihə qəbul edilməklə 1 dekabr 2017-ci il tarixdən qüvvəyə minmişdir. Yeni qanunla Cinayət Məcəlləsinə ümumilikdə 300-ə yaxın dəyişiklik edilərək, Məcəllədə indiyədək nəzərdə tutulmuş 18 növ cinayət əməli dekriminallaşdırılmış, cinayət məsuliyyətinə alternativ olan tədbirlərin tətbiqi əsasları xeyli dərəcədə genişləndirilmiş, 152 növ cinayətlərin sanksiyasına azadlıqdan məhrum etməyə alternativ cəzalar əlavə olunaraq cəza siyasətinin humanistləşdirilməsi istiqamətində bir sıra digər mühüm tədbirlər həyata keçirilmişdir. Hazırkı fərmanda da qeyd edilən tövsiyə və tapşırığın öz əksini tapması Azərbaycan Respublikası Prezidentinin öz vətəndaşına qarşı humanist münasibətinin, dəfələrlə çıxışlarında səsləndirdiyi "Azərbaycan dövlətinin siyasətinin mərkəzində Azərbaycan vətəndaşı durur" fikrinin təsdiqidir.

Fərmanda ən mühüm məsələlərdən biri də sahibkarların məhkəməyə müraciət imkanlarının asanlaşdırılması və sahibkarlıqla bağlı mübahisələrə müvafiq sahədə daha dərin hüquqi bilik və təcrübəsi olan hakimlər tərəfindən baxılmasını təmin etmək məqsədilə vergi və gömrük ödənişləri, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi ilə bağlı yaranan mübahisələrə, habelə sahibkarlıq fəaliyyəti ilə əlaqədar digər məsələlərə dair işlər üzrə ixtisaslaşmış məhkəmənin yaradılması barədə tövsiyə və tapşırıqdır. Son illər regional əhəmiyyət kəsb edən böyük enerji və nəqliyyat-kommunikasiya infrastrukturunun inkişaf etdirilməsi layihələri, regionların sosial-iqtisadi inkişaf proqramları həyata keçirilir, liberal bazar münasibətlərinə keçidlə əlaqədar sahibkarlığın fəallaşması müşahidə olunur. Azərbaycan Respublikası Prezidentinin iqtisadi siyasət kursunun əsas məqsədi inkişaf templərini daha da artırmaq, sosial-iqtisadi islahatları sürətləndirmək, xarici ölkələrlə əməkdaşlığı daha da dərinləşdirmək, yeni texnologiyaların ölkəmizə gətirilməsi ilə onun müasirləşməsinə nail olmaq və bu inkişafa mane ola biləcək amilləri aradan qaldırmaqdır. Belə ki, iqtisadiyyatın sürətli inkişafı, eyni zamanda mülki və iqtisadi mübahisələrin sayının artmasına, institusional dəyişikliklərin dərinləşməsinə gətirib çıxarır. İqtisadi islahatlar prosesində yaranan yeni mülkiyyət münasibətlərinin tənzimlənməsi və mülkiyyət hüquqlarının müdafiəsi müstəqil məhkəmə sistemini və səmərəli ədalət mühakiməsini zəruri edir. Bu mənada sahibkarlıq fəaliyyəti ilə əlaqədar məsələlərə dair işlər üzrə ixtisaslaşmış məhkəmənin yaradılması sahibkarlıq fəaliyyəti sahəsində yaranmış mübahisələrin obyektiv, şəffaf və operativ həllinə nail olmağa kömək edəcəkdir.

Fərmanda, həmçinin ədalət mühakiməsinin əlçatanlığının və şəffaflığının daha da artırılması məqsədilə "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi ilə əlaqədar təşkilati işlərin yekunlaşdırılması da qarşıya qoyulan tələblərdən biridir. Bu sistemin tətbiqi göstərilən xidmətlərin keyfiyyətinin daha da artmasına, informasiya təminatının yaxşılaşmasına, məhkəmənin ümumi iş fəaliyyətində operativliyin təmin olunmasına gətirib çıxaracaq. Elektron sistem eyni zamanda vətəndaşların hüquqlarının səmərəli müdafiə edilməsi üçün effektiv vasitə qismində çıxış edəcək. İnformasiya sistemi fiziki və hüquqi şəxslərin məhkəmələrə müraciətlərinin, iddia ərizələrinin, müxtəlif məhkəmə instansiyalarına şikayətlərin elektron formada qəbul edilməsinə şərait yaradacaq. Bütün bunlar da insan hüquqlarının müdafiəsi mexanizmlərinin vətəndaşlara daha da yaxınlaşması deməkdir. İnformasiya texnologiyalarının tətbiqi insanların məhkəməyə yeni və daha rahat üsullarla müraciət etmək imkanını yaratmaqla yanaşı, vaxt itkisini tamamilə aradan qaldıracaq, ən başlıcası isə məhkəmələrin fəaliyyətini tam şəffaf edəcəkdir.

Məhkəmələrin hüquqi məsələlərin həllinə yanaşmasının sabitliyini və normativ hüquqi aktların tətbiqi ilə bağlı hüquqi mövqeyinin proqnozlaşdırılan olmasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Ali Məhkəməsinin vahid məhkəmə təcrübəsi formalaşdırmaq vəzifəsinin və həmin vəzifənin icra olunması mexanizminin təsbit edilməsi Fərmanda əksini tapmış mühüm məsələlərdəndir. Belə bir təcrübənin və mexanizmin təsbit edilməsi mahiyyətcə eyni hüquqi məsələyə ayrı-ayrı məhkəmələr tərəfindən fərqli yanaşılması, qanunvericilik normalarının fərqli tətbiq edilməsi, bununla da korrupsiya əməllərinə imkan verən şəraitin yaranması kimi neqativ hallara son qoyulmasına, vətəndaşların müəyyən hüquqi məsələ ilə bağlı məhkəmələrin hüquqi mövqeyini qabaqcadan proqnozlaşdıra bilməsinə kömək edəcək. Bu isə öz-özlüyündə vətəndaşların məhkəmə hakimiyyətinə inamını möhkəmləndirəcəkdir.

Həmçinin Fərmanda ədalət mühakiməsinin nüfuzunun artırılması məqsədilə qeyri-prosessual münasibətlərin yolverilməzliyinin təmin olunması, məhkəmə fəaliyyətinə müdaxilənin qarşısının alınması, məhkəmə icraatının şəffaflığı, məhkəmə qərarlarının elektron dərci, işlərin elektron qaydada bölüşdürülməsi, məhkəmə ekspertizası prosesinin təkmilləşdirilməsi, mediasiya institutunun tətbiq edilməsi, habelə məhkəmələrdə dövlət ittihamının müdafiəsi və protest verilməsi təcrübəsinin mütəmadi olaraq təhlil edilməsi və bu fəaliyyətin keyfiyyətinin artırılması xüsusilə qeyd edilmişdir.

Qeyd olunan fərman məhkəmə hakimiyyəti sahəsində islahatların dərinləşdirilməsi və məhkəmə sisteminin gələcək inkişafı üçün strateji prioritetləri müəyyənləşdirən mühüm yol xəritəsidir. Dövlət başçısının imzaladığı fərmanda göstərilən tövsiyə və tapşırıqların yerinə yetirilməsi ilə bağlı görüləcək işlər bu sahədə inqilabi yeniliklər edəcəkdir və məhkəmə-hüquq sisteminə, demokratik cəmiyyət quruculuğuna böyük töhfədir. Azərbaycan Respublikası Prezidentinin hüquq sisteminin müasirləşdirilməsi konsepsiyası çərçivəsində həyata keçirdiyi islahatlar hüquq sisteminin davamlı inkişafını təmin edəcək və sənədin icrası bu sistemdə köklü dəyişikliklərlə yadda qalacaq.

**Rövşən ƏFƏNDİYEV,**
**Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Hərbi prokurorluqlarda istintaqa nəzarət şöbəsinin rəisi, ədliyyə polkovniki.**

*Bakı Dövlət Universiteti - 100*

# Azərbaycan Respublikasında nanotexnologiyanın inkişafının vəziyyəti və perspektivləri

**Son zamanlar böyük texnoloji uğurlara imza atmış inkişaf etmiş ölkələrin iqtisadi inkişafının səbəblərini araşdırarkən müəyyən olunmuşdur ki, bu inkişafın səbəbləri içərisində insan intellektinin məhsulu olan elmi innovasiyaların tətbiqi ön sırada dayanır. Yüksək texnologiyaların inkişafı və onların geniş sənaye tətbiqinin gətirdiyi gəlirləri təbiətin bəxş etdiyi yeraltı və yerüstü sərvətlərin gətirdiyi gəlirlərlə müqayisə etdikdə elmi innovasiyaların tətbiqindən gələn gəlirlərdən qat-qat çox olduğunun şahidi oluruq.**

Hazırda dünyanın inkişaf etmiş ölkələrinin geniş imkanla malik olmasını elmi innovasiyaların elm tutumlu sənayeyə tətbiqi ilə əlaqələndirirlər. Aparıcı ölkələrin əsas gəlirlərinin əsasını yüksək texnologiyaların sənayeyə və kənd təsərrüfatına sürətli tətbiqi təşkil etdiyi aşkar olmuşdur. Əgər elmi innovasiyaların tətbiqindən gələn gəlir üçüncü dünya ölkələri üçün 0-2 faiz təşkil edirsə, inkişaf etməkdə olan ölkələrdə bu rəqəm 10-15 faiz, inkişaf etmiş ölkələrdə isə qat-qat daha çoxdur. Düşünməyə əsas verən bu rəqəmlərin elmi innovasiyaların tətbiqi hesabına formalaşdığını nəzərə alsaq, bu məsələnin nə qədər aktual olduğunu görmüş olarıq.

YUNESKO XXI əsri elm və təhsil əsri elan etmişdir. İnkişafı elmə, təhsilə söykənməyən ölkələrin gələcəyinin olmayacağı qeyd edilmişdir. Əgər bəşəriyyətin inkişafını vətəndaş cəmiyyətinin qurulması ilə əlaqələndiririksə, yüksək intellektual təfəkkürə malik insanların yetişdirilməsinə ancaq elm və təhsilin inkişafı yolu ilə nail olmaq olar.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi vətəndaş cəmiyyətinin yaradılması və möhkəmlənməsi, demokratikləşmə prosesinin möhkəmlənməsi, hüquqi dövlətin qurulması, sadəcə olaraq, bir şüar, yaxud da bir niyyət deyil, Azərbaycanın hərtərəfli inkişafı üçün başlıca şərtdir.

Ölkəmizdə həyata keçirilən ardıcıl və məqsədyönlü dövlət siyasətinin nəticəsində elm tutumlu sənayenin yaradılması və yeni texnologiyaların tətbiqi istiqamətində ciddi irəliləyişlər əldə edilmişdir. Ona görə də ölkə iqtisadiyyatı hazırda rəqabət qabiliyyətinə görə dünya ölkələri arasında öncül sıralara qədər yüksəlmişdir. Bu inkişaf ilk növbədə elm və təhsil sahəsində düzgün islahatların aparılması, dünya elm və təhsilinə inteqrasiya sahəsində Dövlət proqramlarının qəbul edilməsi ilə bağlı aparılan çoxşaxəli işlərlə əlaqədardır. Ölkə Prezidenti cənab İlham Əliyev öz çıxışlarında dəfələrlə qeyd etmişdir ki, biz gələcəyimizi neft amili üzərində qura bilmərik, bu təbii resursdur, müəyyən zamandan sonra bu tükənə bilər, ölkə iqtisadiyyatı isə öz inkişafını elmin üzərində qurmalıdır.

Yaşadığımız XXI əsrdə elm və texnikanın sürətli inkişafı bəşəriyyət qarşısında həlli dünənə qədər mümkün olmayan problemlərin həll olunması üçün geniş imkanlar açmaqdadır. Bəşəriyyət bu yüzillikdə hansı qlobal problemlərin həll oluna biləcəyi haqqında çox düşünür və həlli dünənə qədər mümkün olmayan suallara cavab tapmağa çalışır. Son zamanlar dünya elminin prioritet istiqamətlərindən biri sayılan nanotexnologiya çox böyük sürətlə inkişaf edir. Nano elmi və nanotexnologiya haqqında ilk dəfə Nobel mükafatı laueratı Riçard Feynman 1959-cu ildə Kaliforniya Universitetindəki mühazirəsində belə demişdir: bizdən aşağıda çoxlu boşluqlar var və bu boşluqlarda biz atom və molekulları yenidən düzərək prinsipcə yeni materiallar, yeni strukturlar ala bilərik. "Nano" terminini ilk dəfə elmə 1974-cü ildə Tokiyo Universitetinin professoru Norio Taniguchi təklif etmişdir. Nanotexnologiya-atom və molekullarla sərbəst manipulyasiya etməyə imkan verən texnologiyadır və 0,1-100 nm ölçüdə maddənin quruluş və tərkibini tənzimləmək imkanına malik üsullar toplusudur. Nanotexnologiya termini "texnologiya" sözünə nano ölçü vahidinin artırılması ilə meydana gəlmişdir və texnologiya 2 yunan sözünün "techne" məharət, bacarıq və "logos" elm sözlərinin birləşməsindən əmələ gəlmişdir və nanoölçülü materialların məharətlə emal edilməsi elmi deməkdir. Məlumdur ki, 1 nanometr metrin milyardda bir hissəsi deməkdir. Müqayisə üçün qeyd etmək lazımdır ki, bu ölçü insan saçının qalınlığından 100 min dəfə kiçikdir.

Azərbaycanda elm və təhsil sahəsində görülən işlər əsasən ölkəmizin dünya elm və təhsil məkanına inteqrasiyasına xidmət edir və bu sahədə görülən işlər beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir. Bu gün Azərbaycan Respublikasında çalışan alimlərin nanotexnologiya sahəsində apardığı elmi-tədqiqat işləri elmi səviyyəsinə görə aparıcı ölkələrin işlərinə yaxındır və bu işlər Web of Science Clarivate Analytics *(Thomson Reuters)* Agentliyinin siyahısına daxil olan jurnallarda uğurla dərc edilir. Respublikamızda bu sahədə aparılan işlər yüksək nəzəri və təchizatı nisbətən zəif eksperimental bazaya söykəndiyi üçün, yaxın zamanlarda bu istiqamətə dövlət səviyyəsində dəstək olması vacibdir. Ölkəmizdə nanotexnologiya sahəsində tədqiqat işlərinin inkişafı hazırda dünya səviyyəsindən xeyli geridə qalır.

Azərbaycanda nanotexnologiya sahəsində aparılan elmi işlər dövlət büdcəsində çalışan və zəif, orta təchizatlı laboratoriyalarda, elmi tədqiqat institutlarında və universitetlərdə həyata keçirilir.

Bütün inkişaf etmiş ölkələrdə nanotexnologiyanın inkişafı ilə əlaqədar Dövlət proqramları qəbul olunmuş və uğurla həyata keçirilir. Ona görə də Azərbaycan Respublikasında bu istiqamətdə müəyyən elmi tədqiqat işləri ilə bərabər maarifləmə və kadr hazırlığı həyata keçirilməlidir. Azərbaycan Milli Elmlər Akademiyasında, Bakı Dövlət Universitetində, Azərbaycan Dövlət Tibb Universitetlində, Azərbaycan Dövlət Neft Akademiyasında nanotexnologiyanın ayrı-ayrı sahələri ilə əlaqədar pərakəndə şəkildə elmi tədqiqat işləri, laboratoriyalar səviyyəsində tətbiqi işlər aparılır ki, bu da təbii ki, dünya elminin bu mühüm istiqaməti üçün əsla yetərli deyildir. Hazırda Azərbaycan Respublikasında nanotexnologiya istiqaməti üzrə elmi potensialın səviyyəsinin daha da artırılması məqsədi ilə, bu istiqamətdə fəaliyyət göstərəcək kadrların hazırlanması məsələsinə xüsusi diqqət ayrılmalıdır. Artıq nanotexnologiya məhsullarının Azərbaycana daxil olması prosesi gedir və bu istiqamətdə maarifləmə prosesinin inkişafı zərurəti günün tələbinə çevrilmişdir.

Nanotexnologiya istiqamətində innovativ tədqiqatların uğurlu inkişafına, onun elmi nəticələrinin sənayenin və kənd təsərrüfatının istehsal və emal sənayesinin ayrı-ayrı sahələrində tətbiqinə nail olmaq və yüksək texnologiyaların nəticələrindən istifadə edərək ölkəmizə böyük gəlirlər gətirmək üçün bu istiqamətdə Dövlət Proqramının hazırlanmasının ölkəmiz üçün böyük əhəmiyyəti var. Bu sahədə beynəlxalq təcrübə, dünyada edilən yeniliklər və inkişaf meyilləri nəzərə alınmalı, vətəndaş, cəmiyyət, dövlət prioritetləri və Azərbaycanın prioritet istiqamətlərinin vacibliyini nəzərə alaraq elm və sənaye sahələrinin imkanlarından səmərəli istifadəsini əsas götürmək lazımdır. Dövlət Proqramı ilə müəyyən edilmiş tədbirlərin həyata keçirilməsinə özəl sektorun və qeyri-hökumət təşkilatlarının fəal cəlb olunması, vətəndaş və ictimai təşəbbüslərin irəli sürülməsi və onların reallaşdırılmasında birgə fəaliyyətə şərait yaradılması nəzərə alınmalıdır. Nanotexnologiya sahəsində işlərin əsaslı təşkili və sürətləndirilməsi Azərbaycan Respublikasının Milli strateji maraqlarına, respublikamızın spesifik iqtisadi xüsusiyyətlərinə, elm və texnikanın inkişafı üçün dövlət siyasətində nəzərdə tutulmuş müddəalara uyğun olmalıdır. Əhalinin həyat səviyyəsinin yüksəldilməsi məqsədi ilə yüksək texnologiyaların tətbiqi, yüksək texnologiyalara əsaslanan iqtisadi artıma nail olunması, fundamental elmlərin, təhsil və mədəniyyətin inkişaf etdirilməsi, ölkənin milli və iqtisadi təhlükəsizliyinin təmini, əhalinin sağlamlığı və həyat səviyyəsinin qorunması prinsipləri əsas götürülməlidir. Bu prinsiplərin yerinə yetirilməsinə nail olmaq üçün nanotexnologiya sahəsində əsas məqsəd elm, texnikanı inkişaf etdirərək texnoloji bazanı formalaşdırmaq, bununla da, elm və texnikanın bəzi vacib sahələrində aparıcı dövlətlərlə sıx əlaqə saxlamaq, ekoloji təmiz müasir sənaye istehsalını yaratmaq, nanotexnologiyanın neft sənayesinə tətbiqinin elmi və texnoloji əsasını qurmaq və inkişaf etdirmək, dövlətin müdafiə qabiliyyəti səviyyəsinin artırılması istiqamətində tətbiqi xarakterli tədqiqatları inkişaf etdirmək lazımdır. Ekoloji problemlərin həllində nanotexnologiya sahəsində tədqiqatları artırmaq və bu sahədə nanosənayenin yaradılması və formalaşması əsas strateji istiqamət olmalıdır.

İlk dəfə ölkəmizdə 2004-cü ilin oktyabrın 4-də Azərbaycan Respublikasının Prezident cənab İlham Əliyevin Rumıniyaya rəsmi səfəri zamanı Azərbaycan və Ruminiya universitetləri arasında nanotexnologiya istiqamətində müqavilə imzalandıqdan sonra BDU-da dünya elminin bu prioritet istiqamətində tədqiqatlara start verildi. Dünya elminin bu mühüm istiqamətində tədrisi və elmi araşdırmaları təşkil etmək məqsədi ilə Nanomaterialların kimyəvi fizikası kafedrası və Nano Araşdırmalar Mərkəzi yaradıldı. Qısa bir zamandan sonra Fizika, Kimya, Biologiya fakültələrində təhsilin bakalavr pilləsində bu elmin əsasları tələbələrə tədris edilməyə başladı, yeni tədris proqramları, dərsliklər və dərs vəsaitləri hazırlandı. Bakı Dövlət Universitetində 3 istiqamətdə-fizika fakültəsində "Nanohissəciklərin fizikası", Kimya fakültəsində "Nanomaterialların fiziki kimyası", Biologiya fakültəsində "Nanobiotexnologiya" ixtisaslaşmaları üzrə magistr hazırlığı başlandı. Hazırda təhsilin doktorantura pilləsində "Nanostukturların fizikası və texnologiyası" (8 nəfərin müdafiəsi), "Nanokimya və nanomateriallar" (4 nəfərin müdafiəsi) ixtisasları üzrə kadr hazırlığı aparılmış və aparılmaqdadır. BDU-nun nanotexnoloq alimləri öz elmi işlərini dünyanın aparıcı donor elmi strukturları, respublikanın ayrı-ayrı nazirliklərin istehsal müəssisələri, Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun sifarişi və qrant layihələrinin maliyyə dəstəyi ilə aparır.

Bakı Dövlət Universitetində nanotexnologiya istiqamətində bir sıra sahələr üzrə uğurlu araşdırmalar aparılır və bu araşdırmalar texnika, tibb, neft, ekologiya, kənd təsərrüfatı və hərbi sahələri əhatə edir. Universitet alimləri müxtəlif texnoloji üsullarla nanohissəciklərin alınması, stabilləşdirilməsi, xassələri və tətbiq imkanlarının müəyyən edilməsi istiqamətində uğurlu araşdırmalar aparırlar. Bu istiqamətdə superparamaqnit xassəli və maqnit müqavimətinə malik nanokompozit strukturlar alınmış, onların quruluşu tədqiq edilmiş, nanokompozitlərin texnikanın müxtəlif sahələrində tətbiqi imkanları araşdırılmış və bu nanokompozitlərin bəziləri respublikanın müxtəlif sənaye yerlərində tətbiq olunmuşdur. Polimer maqnit nanokompozit quruluşlarında yaranan nəhəng maqnit müqaviməti və superparamaqnetizmin tədqiqi ilə əlaqədar elmi tədqiqat işləri ABŞ-ın Mülki Araşdırmalar Mərkəzinin (CRDF) ayırdığı qrant layihəsi çərçivəsində ABŞ Massaçutes Texnologiya Universiteti ilə birgə yerinə yetirilmişdir. BDU-da nanohissəciklərin canlı sistemlərə, əsasən bitkilərə, onların həyat qabiliyyətinə təsiri ilə bağlı tədqiqatlar aparılarkən göstərilmişdir ki, nanohissəciklər bitki hüceyrələrinin membranından daxilinə diffuziya yolu ilə keçərək həmin hüceyrənin həyat fəaliyyətinin pozulmasına səbəb olur. Bu nəticələr ilk dəfə İsveçrənin Elm Fondu tərəfindən maliyyələşdirilən SCOPES proqramı çərçivəsində Lozanna Politexnik Federal İnstitutu (EPFL) ilə birlikdə alınmışdır. Bu tədqiqatlardan alınan nəticələrdən sonra dünyanın inkişaf etmiş ölkələrində bu istiqamətdə intensiv tədqiqat işləri aparılmağa başladı və yeni bir elmi istiqamətin nanotoksikologiyanın əsası qoyuldu. Qeyd etmək istəyirəm ki, Massaçutes Texnologiya Universiteti 2018-ci ildə QS World University Rankings reytinq cədvəlində dünyada 1-ci, Lozanna Politexnik Federal İnstitutu (EPFL) isə dünyada 12-ci yerdədir. Göründüyü kimi, BDU-da nanotexnologiya sahəsində aparılan tədqiqat işləri dünyanın ən öncül universitetlərinin işlərinə yaxındır. BDU-nun Nanoaraşdırmalar Mərkəzində 3-5 nm ölçülərində dəmir oksidi nanohissəcikləri mitsellərdə sintez edildi, nanohissəciklərin səthinə şiş hüceyrələrinin inkişafına təsir edən dərman maddəsi yerləşdirildi və onlar in-vitro tədqiq olundu. Bu tədqiqatlar Almaniya və İran alimləri ilə birlikdə aparıldı və göstərildi ki, dərman maddələri digər hüceyrələri zədələmədən xəstə hüceyrələrə maqnit nanohissəciklər vasitəsi ilə daşına bilər. Universitetdə şoran torpaqlarda bitkilərin inkişafına təsir edən nanohissəciklərin aşkar edilməsi, onların bioloji və fizioloji effektlərinin araşdırılması və bitkilərdə duzadavamlığın artırılmasına imkan verən tədqiqatlar aparılmış və müəyyən edilmişdir ki, bitkilərin toxumlarını metal əsaslı nanohissəciklər ilə işləndikdən sonra duzluluğu müxtəlif olan torpaqlarda onların cücərmə qabiliyyəti artır və cücərtilər normal inkişaf edir. Tədqiqatlar zamanı nanohissəciklərin şoran mühitdə toxumların inkişafına təsir edən amilləri öyrənilmişdir. Nanoaraşdırmalar mərkəzində müxtəlif texnoloji üsullarla bimetallik və trimetallik nanohissəciklərin alınma texnologiyası işlənmiş və onların sintezi və stabilləşməsinin optimal şəraitləri müəyyən edilmişdir. Sintez olunan bimetallik və trimetallik nanohissəciklərin yüksək miqdarda nitratla çirklənmiş sularda onların katalitik-reduksiyaedicilik təsirləri tədqiq edilmiş və ion xromatoqrafik analizlər nəticəsində müəyyən edilmişdir ki, nanohissəciklər çox böyük sürətlə qısa zaman ərzində nitrat ionlarını reduksiya edərək su nümunələrin təmizlənməsinə gətirib çıxarır. Bu texnoloji nəticələr yeyinti sənayesində uğurla tətbiq edilə bilər və ekoloji tarazlığın bərpası üçün böyük əhəmiyyətə malikdir. Alimlərimiz geniş spektral-həssaslıq xassələrinə malik müxtəlif fotolüminessent nanohissəciklərin polimer matrisada alınması texnologiyası işlənmiş və göstərilmişdir ki, yarımkeçirici nanohissəciklərin sintezi zamanı ölçüləri homogen olan polimer nanokompozit strukturlar və onların əsasında müxtəlif təyinatlı sensorlar almaq olar. Son zamanlar aparılan yüksək texnoloji tədqiqatlardan biri də Yaponiyanın Kumamoto Universiteti ilə birgə yerinə yetirilən metal oksidləri nanohissəciklərinin səthi müəyyən texnoloji əməliyyatlar vasitəsilə karbonlaşdırılır və səthi karbonla örtülmüş aktiv xassələrə malik nanohissəciklər sintez olunur. Bu işlər Kumamoto Universitetinin və Bakı Dövlət Universitetinin birgə fəaliyyəti nəticəsində həyata keçirilmişdir. Bu tədqiqatların çox böyük perspektivi var və bu tədqiqatlar imkan verəcək ki, dinamik iqtisadi inkişaf edən Azərbaycan Respublikasında nanosənayedə ölkə iqtisadiyyatı üçün yeni nəsil nanostrukturların alınmasına kömək etsin.

Son zamanlar şiş hüceyrələrinə maqnit nanohissəcikləri vasitəsi ilə dərman maddələrinin daşınması problemləri ilə dünyanın aparıcı tədqiqat laboratoriyaları məşğul olur və burada əsas problem bir maqnit nanohissəciyə bir neçə dərman molekulunun tikilməsidir. Bu texnologiya ilə maqnit nanohissəciyinin səthini karbonlaşdırmaqla ona çoxlu sayda dərman molekulunun tikilməsi mümkün olacaq və bu da yüksək təsir imkanlarına malik nanohissəcik-dərman sisteminin yaranmasına səbəb olacaqdır. Hazırda aparılan tədqiqatlar bu sahədə böyük uğurların olacağı ümidini yaradır. Universitetdə polimer matrisada maqnit nanohissəcikləri formalaşdırmaqla yüksək tezlikli elektromaqnit dalğalarını udan nanokompozit strukturların alınması istiqamətində intensiv tədqiqat işləri aparılır. Bu tədqiqat işləri ABŞ-ın CRDF qrant layihəsinin, Azərbaycan Respublikası Prezidenti Yanında Elmin İnkişaf Fondunun maliyyə dəstəyi ilə və ölkənin bir sıra sənaye strukturlarının sifarişi ilə yerinə yetirilir. Aparılan tədqiqat işlərinin nəticələri 10-dan çox yüksək impakt faktorlu jurnallarda məqalə şəklində çap edilmişdir. Son zamanlar texnikanın sürətli inkişafı maye kristal displeylərin texniki xarakteristikalarının davamlı yaxşılaşdırılmasını tələb edir. Bu məsələnin ən effektli texnoloji həlli yollarından biri maye kristallarla yüksək spontan polyarlaşmaya malik olan seqnetoelektrik nanohissəciklərinin xassələrini konstruktiv şəkildə uzlaşdırmaqdır. Seqnetoelektrik nanohissəciklərlə dispersiya olunmuş maye kristal sistemlərin astana gərginliyi, molekulların yürüklüyü və maye kristallik fazanın mümkün olma intervalı kimi vacib parametrlərinin keyfiyyətinin qənaətbəxş şəkildə yüksəldiyi nəticələr əldə edilmişdir. Bakı Dövlət Universitetində ilk dəfə olaraq siçanların qarın boşluğuna maqnit nanohissəcikləri daxil edilmiş, onların müxtəlif orqanlarında, o cümlədən beyin toxumalarında nanohissəciklərin yığılması elektron-paramaqnit rezonansı (EPR) metodu vasitəsi ilə İsveçrə Federal Texnologiya İnstitutunda öyrənilmiş və beləliklə nanohissəciklərin hemato-ensefolak baryer vasitəsi ilə daxil olması sübut edilmişdir.

Nanotexnologiya istiqamətində BDU-nun uğurlu elmi tədqiqat işlərindən biri də ABŞ Massaçutes Texnologiya Universiteti ilə birgə yerinə yetirilmiş "Polimer matrisada formalaşmış halkogenid yarımkeçirici nanohissəciklərdə diffuziya və ion mübadiləsi" adlı qrant layihəsidir. Eyni zamanda ümumi dəyəri 655000 avro olan "Nanotexnologiyaya əsaslanan ekologiya mühəndisliyi kurrikulumunun reforması və modernləşdirilməsi" adlı elm və təhsil layihəsi Avropa və Azərbaycan alimlərinin birgə səyi nəticəsində uğurla başa çatmışdır. İlk dəfə olaraq magistratura pilləsini bitirmiş 12 nəfər azərbaycanlı gənc Azərbaycan və Avropa alimlərinin iştirakı ilə postmagistr proqramı çərçivəsində nanotexnologiya və ekologiya problemləri ilə bağlı nəzəri kurs keçmiş və sonra Avropada uğurlu tədqiqat işləri aparmışlar. Dissertasiya işlərini uğurla yerinə yetirdikdən sonra BDU-da beynəlxalq komissiya qarşısında müdafiə etmişlər. Bu layihə dünya elminin bu prioritet istiqamətində ilk müştərək təhsil və elm layihəsidir və Avropa təhsil mühitinin Azərbaycana transferi sahəsində uğurlu addımdır. Hazırda həmin gənclər öz elmi fəaliyyətini ölkəmizin ali məktəblərində davam etdirirlər. Avropa Birliyinin maliyyələşdirdiyi "Fotonika və Elektronika üçün nanotexnoloji platforma" adlı qrant layihəsi də BDU-da uğurla yerinə yetirilmişdir.

Universitetdə uğurla yerinə layihələr çərçivəsində müasir avadanlıq və cihazlar alınmışdır. Bakı Dövlət Universitetində beynəlxalq qrant layihələri və ölkədaxili müqavilələr hesabına formalaşmış maliyyə imkanlarının hesabına Yaponiyanın Tokyo Boeki şirkətindən dəyəri 1050000,0 $ olan son dərəcədə geniş imkanlara və həssaslığa malik skanedici elektron mikroskopu alınmışdır. Həmçinin qrant layihəsi hesabına mərkəzə hüceyrə strukturunu zədələmədən onun membranını kəsmək üçün mikroton və Almaniyanın Carl Zeiss şirkətinin geniş imkanlara malik optik mikroskopu alınmışdır. Hazırda materialların strukturları və xassələri haqqında ətraflı məlumat almaq və onların xassələrini daha geniş miqyasda dəyişmək üçün molekulyar səviyyədə tədqiqat işləri aparmaq lazımdır.

Respublikada nanotədqiqatlar istiqamətində işlərin səviyyəsini qaldırmaq və inkişaf etdirmək məqsədi ilə elmi məktəblərin səviyyəsini artırmaq və yeni innovativ tədqiqat düşüncəli kadr hazırlığı aparmaq lazımdır. Bu istiqamətdə də BDU-da uğurlu işlər aparılır. Bakı Dövlət Universitetində nanotexnologiya sahəsində magistr və doktorantura səviyyəsində yüksəkixtisaslı kadr hazırlığı uğurla həyata keçirilir. "Nanohissəciklərin fizikası" , "Nanomaterialların fiziki kimyası", "Nanobiotexnologiya" ixtisaslaşmaları üzrə magistr, "Nanostrukturların fizikası və texnologiyası" və "Nanokimya və nanomateriallar" ixtisasları üzrə doktorantlar hazırlanır.

Bu istiqamətdə aparılan tədqiqatlar beynəlxalq donor təşkilatlarının maliyyəsi ilə yerinə yetirilən qrant layihələri və beynəlxalq proqramlar əsasında aparılır. Beynəlxalq qrant layihələrinin qazanılması proseduru kifayət qədər ağırdır. Dünyada aparıcı donor ölkələrin qrantlarının qazanılma ehtimalı normalda 3-5% tərtibindədir. Bu ona bərabərdir ki, dünyada təqdim edilən hər 100 layihənin 3-5-i qalib ola bilər. Qeyd etmək istəyirəm ki, nanotexnologiya istiqamətində son 10 ildə udulan və uğurla yerinə yetirilən layihələrin həcmi milyonlarla ABŞ dolları tərtibindədir. Fransa, İtaliya, Almaniya, İspaniya, Çexiya, İsveç, Türkiyə, Rusiya, Yaponiya, İsveçrə, Yunanıstan, Kanada, ABŞ, Macarıstan, Ruminiya və sair ölkələrlə uğurlu tədqiqatlar aparılır. Təsadüfi deyildir ki, 2013-cü ilin dekabr ayında BDU-nun alimlərinin həmmüəllif olduğu "Perspektiv Nanokompozitlər: növləri, xassələri və tətbiqləri" adlı monoqrafiya ABŞ-da "Nova Publişer" nəşriyyatı tərəfindən çap edilmişdir. 2017-ci ildə universitet alimləri Elsevier nəşriyyatında dərc edilən "Antimikrob nanoquruluşlar, onların sintezi və tətbiqləri" adlı nüfuzlu monoqrafiyanın bir fəslini yazmışlar. Yalnız onu qeyd etmək istəyirəm ki, BDU alimləri son on ildə nanotexnologiyalar sahəsində **Web of Science Clarivate Analytics (Thomson Reuters)** sisteminə daxil olan jurnallarda 200-dən artıq məqalə dərc etdirmişlər. Universitet alimlərinin işləri ilə yaxından maraqlanan Kimya üzrə Nobel mükafatı laureatı **John Polanyi** Kanadadan BDU-ya gəlmiş və birgə tədqiqat işləri aparmaq üçün müzakirələr aparmışdır.

Bakı Dövlət Universitetində nanotexnologiya sahəsində Nobel mükafatı laureatları Markuz Rudolf Artur, Laflin Robert Betts məruzə ilə çıxış etmişdir.

Nobel mükafatçıları nanotexnologiya istiqamətində təhsilin təşkili proseslərinə və aparılan araşdırma işlərinə yüksək qiymət vermiş və universitet alimlərinin bu istiqamətdə inkişaf etmiş ölkələrin alimləri ilə bərabər səviyyəli işlər apardıqlarını xüsusi vurğulamışlar.

Yaponiyanın Kumamoto Universitetinin professoru Hirokata Ihara; İtaliyanın Pavia Universitetinin professoru Lorenzo Makkonen, Yaponiyanın Hokkaido Universitetinin professoru Oliver B.Wright, ABŞ-ın Delavare Universitetinin professoru Seyd Ismat Shah və b. laboratoriya ilə elmi əməkdaşlıq edirlər.

Göründüyü kimi, Bakı Dövlət Universitetində nanotexnologiya istiqamətində aparılan tədqiqat işləri öz miqyasına və səviyyəsinə görə dünyanın aparıcı ölkələrində aparılan işlərlə yaxındır.

Respublikanın digər elm və təhsil strukturlarında da nanotexnologiyanın ayrı-ayrı istiqamətində tətbiqi xarakterli ciddi işlər aparılır. Lakin bu işlərin aparılması əsasən ayrı-ayrı elm və təhsil strukturlarında çalışan alimlərin elmi maraqlarına uyğunlaşmışdır. Ona görə də bütün bu işlərin elmi koordinasiyasının formalaşdırılması və respublikamızın elm, təhsil, sənaye, kənd təsərrüfatı və səhiyyənin maraqlarına uyğun inkişaf etdirilməsi üçün vahid bir Proqramının hazırlanması faydalı olardı.

Müstəqil Azərbaycan Respublikasında elmi innovasiyaların tətbiqi istiqamətində uğurlu dövlət siyasəti aparılır. Ümid edirəm ki, ölkəmizdə nanotexnologiya istiqamətində aparılan elmi-tədqiqat işlərinin tətbiqi perspektivi olduğu üçün və ölkəmizdə bu istiqamətdə uğurlu tətbiqi nəticələr alındığını, görülən işlərin tədqiqat, təhsil və innovasiya fəaliyyətinin inteqrasiyasına böyük töhfə verəcək.

**Məhəmmədəli RAMAZANOV,**
**BDU-nun Fizika fakültəsinin dekanı,**
**f.e.d., professor.**

## *Gəncə Dövlət Universitetində*



Gəncə Dövlət Universitetinin rektoru, professor Yusif Yusibov Azərbaycan İlahiyyat İnstitutunun rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədovla və institutun əməkdaşları ilə görüşüb.

Rektor Yusif Yusibov qonaqları salamlayaraq, universitetin zəngin və şərəfli tarixindən, beynəlxalq əlaqələrindən, nailiyyətlərindən, o cümlədən, yüksək reytinqli universitetlər ilə sıx əməkdaşlıq münasibətlərindən əhatəli söhbət açmışdır. Eyni zamanda, Gəncə Dövlət Universitetində təhsilin səviyyəsinin yüksəldilməsi, tədrisin səmərəliliyinin artırılması istiqamətində görülən işlərdən, əldə edilən nailiyyətlərdən əhatəli məlumat vermişdir. Professor Yusif Yusibov Gəncə Dövlət Universiteti ilə Azərbaycan İlahiyyat İnstitutu arasında qarşılıqlı əlaqələrin hər iki tərəf üçün səmərəli olacağını birmənalı bildirmişdir. Azərbaycan İlahiyyat İnstitutunun rektoru Ceyhun Məmmədov Gəncə Dövlət Universitetində baş tutan görüşdən məmnunluğunu ifadə edərək, təmsil etdikləri ali təhsil müəssisəsinin tarixindən, beynəlxalq əlaqələrindən və perspektivlərindən danışmış və Gəncə Dövlət Universiteti ilə əməkdaşlıq əlaqələrinin qurulmasına maraqlı olduqlarını bildirmişlər.

Qonaqlar universitetin zəngin laboratoriyalarında, geniş, işıqlı auditoriyalarında olmuşlar.

Rəsmi hissədən sonra Gəncə Dövlət Universitetinin rektoru, professor Yusif Yusibov qonaqları Gəncə şəhərinin ecazkar gözəllikləri, muzeyləri və tarixi yerləri ilə tanış etmişdir.

* * *

Gəncə Dövlət Universiteti ilə Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi arasında, Uşaq Musiqi və İncəsənət məktəblərində çalışan pedaqoji heyətin hazırlıq səviyyəsinin yüksəldilməsi, mədəniyyət sahəsində tələbələr arasında könüllülük fəaliyyətinin təşviqi, həmçinin birgə əməkdaşlığın əsas istiqamətlərini özündə əks etdirən Memorandum imzalanıb. Tədbirdə GDU-nun professor-müəllim heyəti, ictimai fəal tələbələr və Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin rəhbərliyi iştirak edib. Qonaqları çox səmimi salamlayan Gəncə Dövlət Universitetinin rektoru, professor Yusif Yusibov gələcək əməkdaşlığın üstünlüklərindən söh-



bət açaraq bildirilib ki, hazırda respublikamızın Qərb bölgəsində ən böyük ali təhsil müəssisəsi olan Gəncə Dövlət Universiteti əsasən yüksək ixtisaslı pedaqoji kadrlar hazırlayan, 80 illik tarixə və zəngin ənənələrə malik elm-təhsil müəssisəsi olmaqla yanaşı, həm də böyük mədəni və intellektual mərkəzdir.

Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin direktoru Asif Usubəliyev çıxışında bildirib ki, imzalanacaq memorandum daha çox fəal gənclərin yüksəkixtisaslı, peşəkar kadrlar kimi gələcəkdə mədəniyyət müəssisələrində fəaliyyətinə geniş imkanlar yaradacaq. Qeyd edilib ki, ali məktəblə əməkdaşlığın əsas predmeti Uşaq Musiqi və İncəsənət məktəblərinin müəllimləri üçün müxtəlif təlimlərin təşkili ilə yanaşı, müvafiq tədris proqramlarının hazırlanması və Gəncə Dövlət Universitetinin tələbələri üçün təcrübə keçmələrinin təşkilindən ibarətdir. Həmçinin gələcəkdə birgə əməkdaşlıq nəticəsində digər layihələrin reallaşdırılacağı da vurğulanıb.

Azərbaycanda mədəniyyətin bütün sahələrinin inkişaf etdirilməsinin hazırda dövlət siyasətinin prioritet istiqamətlərindən olduğunu deyən Elm və innovasiylar üzrə prorektor, Milli Məclisin deputatı Pərvin Kərimzadə bildirib ki, GDU-da bu prosesdə yaxından və fəal iştirak edir. Son illərdə, Azərbaycanda keçirilən bir çox beynəlxalq mədəni tədbirlərdə və ASAN Xidmətin gündəlik fəaliyyətində gənclərin könüllü olaraq yaxından iştirak etdiyini deyən Pərvin Kərimzadə, ölkəmizdə könüllülük fəaliyyətinin gənclər arasında qısa müddətdə zəngin təcrübəyə malik böyük bir hərəkata çevrildiyini təqdirəlayiq hal kimi dəyərləndirib.

Könüllülük fəaliyyəti və gənclər mövzusunda təqdimatla çıxış edən Gənc mədəniyyət işçiləri ilə iş şöbəsinin müdiri Ceyhun Əhmədov mərkəzin İnnovativ inkişaf və təbliğat şöbəsinin müdiri Nurəddin Babazadə gənclərin mədəniyyət sahəsində könüllülük fəaliyyətinə qoşulmaları barədə çıxış ediblər.

Çıxışlardan sonra Gəncə Dövlət Universiteti ilə Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi arasında Memorandum imzalanıb.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# UNEC alimlərinin dünya elminə töhfəsi




Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) alimlərinin "Neftin dünya bazar qiyməti: təsir edən amillər və proqnozlaşdırma ("World Market Price of Oil: İmpactıng Factors and Forecastıng (SpringerBriefs in Economics)" kitabı dünyanın tanınmış nəşriyyat evi və Elmi nəşrlərin Sosial-iqtisad və Təbiət Elmləri (SENSE) sahəsində resenziyalı, yüksək kateqoriyalı "Springer" nəşriyyatı tərəfindən çap edilib.

Kitabın müəllifləri UNEC-in rektoru, professor Ədalət Muradov, UNEC nəzdində İqtisadi Araşdırmalar Elmi-Tədqiqat İnstitutunun direktoru, professor Yadulla Həsənli və UNEC Biznes Məktəbinin direktoru, dosent Nazim Hacıyevdir. Elmi redaktorları Harvard Biznes Məktəbinin professoru və Davis Rusiya və Avrasiya Araşdırmalar Mərkəzinin (Beyin Mərkəzi) direktoru, professor Ravi Abdelal və Milli Məclisin iqtisadi siyasət, sahibkarlıq və sənaye komitəsinin sədri, akademik Ziyad Səmədzadə, elmi rəyçiləri isə Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadə və AMEA-nin İdarəetmə Sistemləri İnstitutunun şöbə müdiri, AMEA-nin müxbir üzvü, İspaniya Kral Akademiyasının akademiki Qorxmaz İmanovdur.

Kitabda qlobal iqtisadiyyatda baş verən yeni tendensiyalar və çağırışlar fonunda mühüm strateji əhəmiyyət daşıyan xam neftin dünya bazarlarında qiymətinə təsir edən amillər, 2020-ilə qədər neftin dünya bazar qiyməti və ilk dəfə olaraq Azərbaycan neftinin (AzərLayt) dünya bazar qiymətinin orta və uzunmüddətli dövr üçün elmi və praktik baxımdan əsaslandırılmış proqnozlaşdırmağa imkan verən ekonometrik (ARİMA, Trend və Hibrit) modelləri qurulub. ■

# Uşaq İncəsənət məktəbində



Hər bir müəssisənin, o cümlədən uşaq incəsənət və musiqi məktəblərinin inkişafında onun bina, musiqi alətləri və qeyri təchizatlarının yüksək olması, kadrların düzgün seçilməsi və yerləşdirilməsi məktəb rəhbərinin də yerində olması böyük rol oynayır. Bu baxımdan Sumqayıt şəhərindəki S.Rüstəmov adına 3 saylı Uşaq İncəsənət məktəbinin bəxti gətirmişdir desək, yanılmarıq. Bütün çətinlikləri keçmiş və öz məqsədinə nail olmuş bu məktəb nəinki Sumqayıtda, eyni zamanda respublikamızda nümunəvi məktəblərdən biridir. Məktəbin intibah dövrü isə 2011-ci ildən, Əziz Əzizov bu məktəbə direktor təyin edildikdən sonra başlamışdır. O, əvvəlcə Sumqayıt şəhərindəki S.Hacıbəyov adına orta ixtisas musiqi texnikumunu, sonra isə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasını bitirmiş və müxtəlif mədəniyyət ocaqlarında işlədikdən sonra 3 saylı Sumqayıt Uşaq İncəsənət məktəbinə direktor təyin edilmişdir. İnsaf naminə qeyd etməliyik ki, elə bu vaxtdan da məktəbin inkişafı başlamışdır. Onun kadr siyasəti nəticəsində müəllim və şagirdlərin kiçik bir kontingent şəraitində olması indi bu məktəbin 208 müəllim, 718 şagirdlə fəaliyyətinə səbəb olmuşdur.

Fərəhlə qeyd etməliyik ki, artıq məktəbdə şöbələrin də sayı artmışdır. Belə ki, indi burada uşaqlar fortepiano, xalq çalğı alətləri, simli və nəfəsli alətlər, azqarmon, ansambl və müşayiət, rəsm və xoreoqrafiya sahəsində sənətlərə yiyələnirlər. Onu da qeyd etməliyik ki, 2016-cı ildə məktəb hörmətli Prezidentimiz İlham Əliyevin göstərişi ilə tikilmiş müasir tipli geniş bina ilə və hər cür texniki avadanlıq, musiqi alətləri ilə təmin olunmuşdur. Həmin dövrdən də məktəb təcrübəli müəllim kadrlar hesabına daha da inkişafa qədəm qoymuşdur. Müəllimlərdən Dilbər Məmmədova, Məmləkət Məhərrəmova, Nəcibə Kərimli, İsmayıl Quliyev, İlqar Əzizov və başqa kadrlar hesabına daha da tanınmağa başlamışdır. 1976-cı ildə musiqi, 1995-ci ildən isə incəsənət məktəb kimi fəaliyyətə başlayan bu təhsil ocağı respublikamıza onlarca musiqiçi bəxş etmişdir. Fərəhləndirici haldır ki, müəllm və şagird kollektivi nəinki şəhər tədbirlərində, eyni zamanda respublika tədbirlərində də daim yaxından iştirak edir.



Belə ki, 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş tədbirlərdə, dahi bəstəkar, Azərbaycanın Xalq artisti Tofiq Quliyevin yaradıcılıq gecəsi, Xocalı soyqırımının ildönümü, Beynəlxalq Qadınlar Günü, ümummilli liderimiz Heydər Əliyevin anadan olması ilə əlaqədar tədbir, dahi bəstəkar Qara Qarayevin 100 illik yubileyi və sairə tarixi günlərə həsr olunmuş tədbirlər bu qəbildəndir. Məktəbdə keçirilən tədbirlər və dərslərin keyfiyyətli keçirilməsi şagirdlərin də yetişməsinə böyük təsir göstərir. Məsələn, şagirdlərdən Seyran Haşımzadə, Nulufər Ağayeva, Həmid Məmmədzadə, Nihat Məmişov, Rövşanə Əliyeva, Rəvan Ağayev və başqaları müsabiqə qalibi olmuş, respublikamızın nüfuzlu mədəniyyət ocaqlarında, tanınmış mütəxəssislər qarşısında müvəfəqiyyətlə çıxışlar etmiş, fəxri fərmanlara layiq görülmüşlər.

Məktəbin skripkaçalanlar ansamblı bir çox şəhər və beynəlxalq tədbirlərdə çıxış edərək layiqli yer tutmuşlar. Məktəbin bir çox musiqi kollektivi Sumqayıt regional idarəsinin qayğısı və təşəbbüsü ilə region mədəniyyət idarəsinin əhatə etdiyi mədəniyyət ocaqlarında tədbirlər keçirir, konsertlər verir. Məsələn, Müəllimlər Günü münasibətilə məktəbin şagirdləri Xırdalan şəhərində geniş proqramla mədəni tədbir keçirmişdir.

Xarici ölkələrdə də məktəbin şagirdləri layiqli yerlərə sahib olurlar. Balaca rəssam Günay Mürsəlova “Göyərçin 40” adlı rəsm müsabiqəsində ikinci yerə layiq görülmüş və fəxri fərman almışdır. Şagirdlərdən Nuray Məmmədova və Məriyam Cəfərova, Türkiyədə keçirilən “Kaspi Art Uluslararası Sanat” yarışmasında I yeri tutmuşlar. Sumqayıtın 70 illiyinə həsr olunmuş “Ritm bir dünyadır” adlı müsabiqədə məktəbin nağaraçalanlar ansamblı birinci yerə layiq görülmüşdür. Cari ildə məktəbin şagirdi Rövşanə Əliyeva məktəblərarası müsabiqədə birinci yerə çıxmışdır. Nağara sinifnin şagirdi Fərid Vahidov “Ən yaxşı ifaçı nominasiyası”nın qalibi olmuş, fəxri fərmanla təltif olunmuşdur. Şagird Zeynəb Qarayeva Bakıda keçirilən “Festene Art Baku” Beynəlxalq İncəsənət Festivalı müsabiqəsində diplom və medala layiq görülmüşdür.



Sumqayıtın 70 illik yubileyi ilə əlaqədar məktəbin müəllim və şagird kollektivi çox böyük həvəslə çalışır və bu yubileyi yüksək səviyyədə qeyd etmək üçün Sumqayıt Şəhər Regional Mədəniyyət İdarəsi şəhərin bütün mədəni-maarif müəssisələri ilə yanaşı, Sumqayıt şəhər 3 nömrəli Səid Rüstəmov adına incəsənət məktəbinə də əlindən gələn bütün köməkliyini göstərir.

**Zabit CAVADOV,**
**“Respublika”.**

# “XXI əsr paytaxt nəşrləri. Kitab günü” forumu

**A.P.Çexov adına Blaqoveşensk şəhər Kitabxanasında “XXI əsr paytaxt nəşrləri. Kitab günü” V Beynəlxalq İctimai Yazıçı-Nəşriyyat Forumu işə başladı. Forumun açılışında telekörpü vasitəsilə Yasamal rayon MKS də iştirak etdi.**





Tədbirdə Blaqoveşensk şəhərinin Mədəniyyət İdarəsinin rəisi Viktoriya Xopatko çıxış edərək bildirdi ki, M.Ş.Vazeh adına Yasamal Rayon Mərkəzi Kitabxanası və Blaqoveşensk kitabxanası arasında 2018-ci ilin payızından təcrübə mübadiləsi aparılır, uğurlu layihələr həyata keçirilir. “Araz” Azərbaycan Milli-Mədəni Cəmiyyətinin sədri Tofiq Niftəliyev hər iki kitabxanaya yaradıcılıq uğurları arzuladı. Yasamal rayon MKS-nin direktoru Lətifə Məmmədova A.S.Puşkinin 220 illki yubileyi ilə bağlı tədbirlərdən məlumat verdi.

Telekörpüdə Azərbaycan və Amur vilayətinin yazıçıları, oxucular və kitabxanaçılar iştirak etdilər. Sonra Azərbaycan Milli Konservatoriyası nəzdində İncəsənət Gimnaziyasının şagirdi Nisə Hüseynovanın ifasında M.F.Axundovun Puşkinin ölümünə yazılmış “Şərq poeması” səsləndirildi. Telekörpüdə “Sözü qaytar” poetik layihənin iştirakçısı, həmyerlimiz Orxan Namazov, İncəsənət Gimnaziyasının şagirdləri Şərif Həsənov, Olivia Abdullayeva, Renata Sultanova, Canəli Canəliyev və Məlik Əliyev A.S.Puşkinin Azərbaycan və rus dilində şeirlərini söylədilər. İncəsənət Gimnaziyasının müəllimləri Rəfiqə Əhmədova, Pərvanə Talıbova və Şərqiyyə Kərimova A.S.Puşkinin yaradıcılığı haqqında maraqlı məlumatlar verdilər.

**“Respublika”.**

# Almaniyalı qonaqlar “Ulduz” Şokolad Fabrikində

**Almaniyanın Siegen Universitetinin müəllim və tələbə heyəti Azərbaycanda kiçik və orta sahibkarlıq mövzusunun araşdırılması məqsədilə “Ulduz” Şokolad Fabrikinə səfər edib. Fabrikdə baş tutan görüşün məqsədi Azərbaycan Dövlət İqtisad Universiteti (ADİU) ilə Siegen Universiteti arasında tələbə və təhsil təcrübəsinin mübadiləsini nəzərdə tutan “EE-KEY-AZ Sahibkarlıq təhsili: Azərbaycanda iş yerlərinin yaradılması və məşğulluğun əsas amili kimi” (EE-KEY-AZ Entrepreneurship Education: a Key to Job Creation and Employability in Azerbaijan) layihəsinə dəstək göstərmək olub.**



“Veysəloğlu” şirkətlər qrupundan verilən məlumata görə, tədbirin açılışını edən “Ulduz” Şokolad Fabrikinin İctimaiyyətlə Əlaqələr bölməsinin müdiri Afaq İbrahimova qonaqları salamlayaraq fabrikin tarixi, istehsal olunan məhsulları haqqında ətraflı məlumat verilib, sonra onlara istehsalat sahəsini göstərilib.

Görüşün davamında Siegen Universitetinin Ailə Biznesi və Sahibkarlıq Kafedrasının müdiri Petra Mug, həmçinin ADİU-nun Beynəlxalq Əməkdaşlıq Departamentinin Xarici Əlaqələr Şöbəsinin müdiri vəzifəsini icra edən Afət Ələkbərova tədbirinin yüksək səviyyədə təşkil olunduğuna görə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, “Ulduz” Şokolad Fabrikində “Açıq qapı” siyasəti həyata keçirilir və maraqlanan hər kəs, fərdi və ya qrup şəklində fabrikə səfər edə, istehsalat prosesini yaxından izləyə bilər.

Sonda qonaqlarla birlikdə xatirə şəkli çəkdirilib, onlara “Ulduz” Şokolad Fabriki adından hədiyyələr təqdim olunub.

**Bəybala BƏYBALAYEV,**
**“Respublika”.**

# Azercell-in Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin dəstəyi ilə “TechCentrum” “Data Science” üzrə 3 aylıq təlimlərə başlayıb

“Azercell Telekom” MMC və PAŞA Bankın dəstəyi ilə Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi ölkəmizdə İT sektorunun inkişafına, eləcə də bu sahədə gənclərimizin peşəkarlığının artırılmasına yönəldilmiş layihə və tədbirlərin həyata keçirilməsinə hər zaman xüsusi diqqətlə yanaşır. Mərkəz İT sahəsinə olan marağı, eyni zamanda mütəxəssislərin azlığını nəzərə alaraq, aztəminatlı və tədrisə yetərli büdcəsi olmayan seçilmiş tələbələr üçün “TechCentrum” platformasının təşkilatçılığı ilə “Data Science” təlimlərinə başlayıb. Təlimlər həftədə 2 dəfə olmaqla, 90 dəqiqə ərzində Barama İnnovasiya və Sahibkarlıq Mərkəzində keçirilir. Təlimçi Kamil Ələsgərov tərəfindən keçirilən sessiyalar 3 aya qədər davam edəcək. Təlimlərdə təsviredici və inferensial statistikanın, riyazi analiz və xətti cəbrin ümumi təkrarı, komanda sətri (cmd) ilə işləməyin əsasları, verilənlər bazaları, SQL DML ilə tanışlıq, Python, R və OOP, data strukturları, datanın daxil edilməsi, təmizləməsi, formatın uyğunlaşdırılması, mövcud olmayan (missing) məlumatlara yanaşma və bir sıra digər vacib mövzular əhatə olunacaq.

Məlumat üçün bildirək ki, təlimçi Kamil Ələsgərov bank sektorunda data analizi və risklərin idarə edilməsi sahəsi üzrə 10 illik iş təcrübəsinə malikdir. ADİU, Xəzər və ADA universitetlərində “Statistika, Ekonometrika və Əməliyyatların tədqiqi”ni (Operations Research) tədris edən Kamil Ələsgərov “Baker Tilly Azerbaijan” şirkətində risk sahəsi üzrə layihə meneceridir və Azərbaycan maliyyə sektorunda “Data Science”in tətbiqi ilə məşğuldur.



Qeyd edək ki, “TechCentrum” İnkişafda olan Texnologiyalar sahəsində təhsil, karyera və inkişaf imkanlarının mübadiləsi məqsədilə yaradılmış platformadır. Üç aylıq fəaliyyəti nəticəsində “TechCentrum” platforması 700-dən çox iştirakçıya “Data Science” və “Data Engineering”, “Cpython”, “Data Products Management” üzrə təlimlər və vebinarlar təşkil edib, Facebook kimi böyük Tech şirkətlərində İT üzrə iş imkanları, təhsil, təcrübə və yay məktəbləri ilə bağlı informasiya mübadiləsi həyata keçirib.

Təlimlər barədə əlavə məlumat üçün techcentrum.az@gmail.com ünvanına müraciət edə bilərsiniz.

# Qaz təsərrüfatı infrastrukturunda yenidənqurma işləri

## Xətai rayonu

Abonentlərin keyfiyyətli və fasiləsiz təbii qazla təmin edilməsi məqsədilə SOCAR-ın “Azəriqaz” İstehsalat Birliyində təxirəsalınmaz işlər həyata keçirilir, yarana biləcək problemlərin operativ həlli istiqamətində zəruri tədbirlər görülür. Bakı şəhərində və ətraf qəsəbələrdə mövcud qazpaylayıcı şəbəkələrin, küçə və dalanların qaz xətlərinin yenidən qurulması işləri diqqət mərkəzindədir. Dinamik artan qaz tələbatını və qaz təchizatı şəbəkəsinin mövcud texniki vəziyyəti nəzərə alınmaqla paytaxtın qaz təchizatının yaxşılaşdırılması ilə əlaqədar aparılan əsaslı təmir-tikinti işləri çərçivəsində Xətai rayonunun Rəşid Bağırov, “Qafqaz” və Nazim Şükürov küçələrində əhali istehlakçılarının mənzillərində istismar müddəti başa çatmış sayğacların “smart-kart” tipli sayğaclarla əvəz olunması, yeni qaz kəmərlərinin çəkilməsi, istismara yararsız vəziyyətdə olan qaz avadanlıqlarının və boru xətlərinin yeniləri ilə əvəz edilməsi işləri uğurla davam etdirilir. Belə ki, qeyd olunan küçələr üzrə müxtəlif diametrli borularla 10000 metrdən artıq qaz xətti yenilənmiş, hazırda isə həmin xətlər üzərinə qaz sayğacları quraşdırılmaqdadır.

Xətai rayonu ərazisində aparılan yenidənqurma işlərinin qısa zamanda başa çatdırılması üçün müvafiq tədbirlər görülür. İşlər tam yekunlaşandan sonra həmin ərazidə yaşayan 4500-ə yaxın qaz istehlakçısını keyfiyyətli, tələb olunan təzyiqdə və fasiləsiz təbii qazla təmin etmək mümkün olacaq.

## Şəmkir rayonu

Şəmkir rayonunun yaşayış məntəqələrinə də təbii qazın bərpası, istehlakçıların qaz təchizatının yaxşılaşdırılması, səmərəli və effektiv qazpaylama infrastrukturunun yaradılması və şəbəkənin nəqletmə imkanlarının genişləndirilməsi, qaz kəmərlərinin və avadanlıqların yenidən qurulması istiqamətində genişmiqyaslı işlər görülməkdədir. Belə ki, tərtib edilmiş tədbirlər proqramına uyğun olaraq, “Azəriqaz” İstehsalat Birliyi tərəfindən nəzərdə tutulmuş işlərin icrası ilə əlaqədar ilk növbədə kənd və qəsəbələrin daşıyıcı qaz kəmərləri yenidən qurulur, kəmərlər üzərindəki istismar müddəti bitmiş avadanlıqlar dəyişdirilir, sonrakı mərhələdə isə mövcud qazpaylayıcı şəbəkələrin, küçə və dalanların qaz xətləri yenilənir, eləcə də hər bir istehlakçının mənzilinə qaz sayğacları quraşdırılır.



Tədbirlər planına uyğun olaraq, cari ildə Şəmkir Regional Qaz İstismar İdarəsinin 6 xidmət sahəsi üzrə 50 km-lik qaz kəmərinin yenilənməsi nəzərdə tutulmuşdur ki, artıq bunun 13 km hissəsi təzələnib. Aparılan əsaslı təmir-tikinti işləri çərçivəsində şəbəkənin qaz nəqletmə imkanının artırılması məqsədilə rayonun Düyərli kəndini təbii qazla təmin edən 4000 metrlik orta təzyiqli daşıyıcı yeraltı qaz kəmərinin 2500 metrdən artıq hissəsi, diametri 250 mm-lik polietilen qaz kəməri ilə əvəzlənib.

Yenidənqurma işləri başa çatdırıldıqdan sonra 2 minə yaxın təbii qaz istehlakçısını tələb olunan təzyiqdə mavi yanacaqla təmin etmək üçün əlavə imkan yaranacaq.

İstehlakçıların bu sahədə ehtiyacını tam ödəmək üçün konkret tədbirlər müəyyənləşdirən Birliyin kollektivi qaz boru xətlərinin, avadanlıqların, ölçü və idarəetmə sistemlərinin işinin etibarlı təmin olunması məqsədilə planlı surətdə profilaktik təmir və qulluq işlərini həyata keçirməklə yanaşı, qaz şəbəkəsinin yenidən qurulması, təchizatın bərpası və yeni yaşayış sahələrinin qazlaşdırılması istiqamətində səylə çalışır.

**“Azəriqaz” İB-nin İctimaiyyətlə əlaqələr şöbəsi.**


**Azərbaycan Dövlət Reklam Agentliyi Bakı Şəhəri Reklam İdarəsi**
**kompüter və kompüter avadanlıqlarının satınalınması üçün**

**AÇIQ TENDER ELAN EDİR**

**Tender 1 (bir) lot üzrə keçirilir.**

**Lot-1.** Kompüter və kompüter avadanlıqlarının alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş və imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıda göstərilən məbləğdə iştirak haqqını hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, İstiqlaliyyət küçəsi 43 ünvandan ala bilərlər. Əlaqəli şəxs: Sadiq Hüseynov. Tel.: (+994 51) 940-20-80

**İştirak haqqı lot üzrə: 300 manat**

*Təşkilat: Azərbaycan Respublikası Dövlət Reklam Agentliyi Bakı Şəhəri Reklam İdarəsi*
*VÖEN: 1702303001*
*Bank: Kapital Bank Mərkəz filialı*
*Kod: 200026*
*M/h: AZ37NABZ01350100000000001944*
*VÖEN (bank): 9900003611*
*H/h: AZ53AİİB38060019440317854102*

**İştirak haqqı heç bir halda qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün ərizə;*
*- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*- tender təklifi (zərflərin açıldığı gündən ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
*- tender təklifi qiymətinin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*- son bir il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*- iddiaçının son bir il ərzində maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
*- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*- müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
*- işləri yerinə yetirmək üçün potensial imkanları və maddi-texniki bazası haqqında məlumat.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 07 iyun 2019-cu il saat 17:00 tarixinə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 13 iyun 2019-cu il saat 17:00 tarixinə qədər Bakı şəhəri İstiqlaliyyət küçəsi 43 ünvanına təqdim etməlidir. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 14 iyun 2019-cu il saat 15:00 tarixində Bakı şəhəri İstiqlaliyyət küçəsi 43 ünvanında açılacaqdır.



**Azərbaycan Respublikası Təhsil Nazirliyi**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

***Dəftərxana və təsərrüfat mallarının satınalınması məqsədi ilə***

**KOTİROVKA SORĞUSU ELAN EDİR**

Sorğuda iştirak etmək istəyənlər müraciət edə bilərlər. Kotirovka sorğusunda iştirak üçün sənədlər 25 aprel 2019-cu il saat 12:00-dək qəbul olunur.

Zərflərin açılışı 2019-cu il aprel ayının 25-i saat 15:00-da əsas tədris binasında keçiriləcəkdir.

**Əlaqələndirici şəxs:** *Aqil Əhmədov*
**Tel.:** *(012) 492-59-23*
**Ünvan:** *Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6, 37-ci otaq.*



Mingəçevir Şəhər Mənzil Təsərrüfatı və Abadlaşdırılması İdarəsi 2019-cu il üzrə ictimai işlərə cəlb edilmiş işçilərə xüsusi geyim və inventarların (maddə 225200) və mal-materialların (maddə 225413) alınması üçün kotirovka sorğusu elan edir.



Beyləqan rayonu Yuxarı Çəmənli kənd sakini Bəbirov Valeh Allahverdi oğlunun və ailə üzvlərinin xüsusi mülkiyyətində olan həmin kənddə yerləşən 7,34 ha torpaq sahəsininin torpağın mülkiyyətə verilməsinə dair JN 0014 (KOD 60712018 nömrəli) dövlət aktı itdiyi üçün etibarsız sayılır.


**ALLAH RƏHMƏT ELƏSİN**

**Tural Əliyev, Şahin Orucov, Lütfiyar Əsgərov yaxınları Ceyhunə xanıma, atası**

**SALMAN müəllimin**

**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**


**Baş redaktor**
**Teymur ƏHMƏDOV**

● **Redaksiyanın telefonları:**

İqtisadiyyat və islahatlar redaksiyası: **539-95-51;**
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: **538-55-20;**
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: **539-26-18;**
Humanitar siyasət redaksiyası: **538-25-70;**
Xəbərlər redaksiyası: **538-61-02;**
İctimai rəy və sosial problemlər redaksiyası: **539-95-51; 538-43-41 tel/faks;**
Qəbul otağı: **538-25-70;**
Katiblik: **538-25-70;**
Reklam və elan xidməti: **441-20-23.**



● **Redaksiyanın ünvanı:**

AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
**E-mail: resp@azdata.net**
**www.respublica-news.az**
*“Respublika” qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

**İndeks** **0240**
**Tiraj** **4292**
**Sifariş** **023**
Qəzetin satış qiyməti 40 qəpik

**Məsul növbətçi**
**Ataş CƏBRAYILOV**

● **Çapa imzalanmışdır**
**20.04.2019**